RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 277 (8870) ÇƏRŞƏNBƏ AXŞAMI, 21 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Müzəffər Komandan, Qüdrətli, Qurucu Lider

## Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:

### "Prezident İlham Əliyev xalqımız qarşısında onilliklər boyu ən vacib məqsəd kimi müəyyənləşən taleyüklü vəzifələri elə peşəkarlıqla, qətiyyətlə, yüksək vətənpərvərliklə həll edib ki, tarix onu Azərbaycan var olduqca yaşadacaq"

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli sərkərdəliyi altında Silahlı Qüvvələrimizin və xalqımızın müəllifi olduğu bu qələbə Azərbaycanın müstəqillik illərində artan gücünü, inkişafını bütün dünyaya göstərdi və uğurları davam edən mühüm hadisədir. Həm də ona yalnız tariximizin bir mərhələsinin layiqli yekunu kimi yanaşmamalıyıq, daha parlaq gələcəyi və yeni hədəfləri müəyyənləşdirən proses kimi qəbul etməliyik. Cənab Prezidentin "Dəmir yumruğ"u təkcə tarixi ədaləti bərpa etmədi, indi artıq bütün bölgənin yeni inkişaf mərhələsini formalaşdırır. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın, Cənubi Qafqazın etibarlı, möhkəm təhlükəsizlik sistemi yaradılır və ölkəmizin regionun lideri kimi beynəlxalq əhəmiyyəti yüksəlir.

Dövlət başçısının siyasi iradəsi budur ki, Azərbaycanın bərqərar etdiyi tarixi ədalət Cənubi Qafqazı qarşıdurma, münaqişə ocagından inkişaf və rifah mərkəzinə çevirsin, bölgədə tam yeni iqtisadi-ticarət münasibətləri formalaşsın, regional kommunikasiyalar tədricən qitələrarası logistik qovşaq funksiyası daşısın. Bu və digər tədbirlər nəticə etibarilə region ölkələrinin və xalqların rifahının yüksəlməsinə, ən əsası isə təhlükəsizliyin daha etibarlı və möhkəm təməllərə söykənməsinə böyük töhfə verəcək.

Cənab İlham Əliyev müəlliifi olduğu tarixi zəfərlə Qafqazda bərqərar etdiyi təhlükəsizliyin əsaslarını indi regional əməkdaşlıq, tərəqqi və rifahla daha da möhkəmləndirir və onu bütün bölgənin nailiyyəti kimi təsbit edir. Möhtərəm Prezidentin bütün qərar və addımları milli maraqları ehtiva etməklə yanaşı, regional mənafeləri də əks etdirir.

Cənab Prezidentin azad edilmiş ərazilərdə verdiyi bəyanatlar, mesajlar Azərbaycan dövlətinin Qarabağ bölgəsi, Qafqaz regionu ilə bağlı strateji baxışlarını, niyyətlərini tam və geniş ifadə edir. Dövlət başçısının bəyanatları bütün dünyaya səsləniş, məğlub Ermənistana isə aydın, konkret çağırışdır. Hər kəs bir daha anlayır ki, Qarabağda tarixi ədaləti hərbi gücüylə təmin edən cənab Prezident İlham Əliyev indi bölgədə mədəniyyət, quruculuq, inkişaf gücünü tətbiq edir, möhkəm və etibarlı təhlükəsizlik mühiti yaradır.

Azad olunan bölgələrin yenidən dirçəlişi, inkişaf salnaməsi məhz Prezident İlham Əliyev tərəfindən yazılır. Zəfər Komandanı indi Qurucu Lider kimi Qarabağı və Şərqi Zəngəzuru Qafqazın ən böyük tikinti meydanına, güclü inkişaf ünvanına, möhkəm təhlükəsizlik məkanına çevirir.

Bu tikinti-quruculuq prosesinin miqyası, dinamikası Azərbaycan dövlətinin gücünü, ən əsası isə Prezident İlham Əliyevin 18 illik fəaliyyət dövrünün nə qədər uğurlu olduğunu göstərir.

Prezident İlham Əliyev Azərbaycanın ən böyük Zəfərinin və ən qüdrətli dövrünün müəllifidir. Günümüzün reallığı, həqiqəti də budur - qətiyyətli İlham Əliyev, qüdrətli Azərbaycan, azad Qarabag və möhkəm "Dəmir yumruq!"

Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycan tarixinin ən şanlı səhifələrini təşkil edən 60 illik müdrik, mənalı, şərəfli ömrünün sadə həqiqəti də, məncə, məhz budur...

Bax: səh. 4

## Qətiyyətin İlham Əliyev nümunəsi

Ötən həftə Prezident İlham Əliyev Brüsselə səfəri zamanı mühüm görüşlər keçirdi və qalib gəldiyimiz Vətən müharibəsindən sonra ilk dəfə olaraq Ermənistanın baş naziri Nikol Paşinyanla təkbətək görüş keçirdi.

Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə 4 saata yaxın keçirilən 3 tərəfli görüşdə isə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar, postmüharibə dövrünün praktiki elementləri, xüsusilə də kommunikasiyaların açılması məsələsi müzakirə mövzusu oldu. Görüşdən sonra verilən bəyanatlardan bəlli odu ki, Ermənistan 10 noyabr Bəyanatının müddəalarını tam olaraq icra etməlidir.

Ardı 6-cı səh.

## Müasir sənaye zonalarının təşəbbüsçüsü

### İndi bu zonalarda istehsal edilən məhsullar 30 ölkəyə ixrac olunur

İqtisadçıların çoxdan qəbul etdikləri reallıqdır ki, dayanıqlı inkişaf daha çox istehsalyönümlü sənayenin miqyasından asılıdır. Bunun üçün isə sənaye məhsulları istehsalı ümumi istehsalda yüksək çəkiyə malik olmalıdır.

Bax: səh. 6

## Ölkəmizin hər bir vətəndaşının rifahı dövlətin diqqət mərkəzindədir

### Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla 732 min şəxsin sosial ödənişləri artırıldı

Prezident İlham Əliyev 2021-ci il oktyabrın 16-da imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamının icrası ilə bağlı bir sıra yeni qərarlar verib.



Ölkədə əhalinin rifahına xidmət edən sosial islahatların yeni mərhələsinə başlayan dövlət başçısı cari il dekabrın 20-də daha bir sıra fərman və sərəncamlar imzalayıb. Bu sənədlərə əsasən həyata keçiriləcək tədbirlər əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılmasının xüsusilə son illərdə geniş miqyas aldığının daha bir təsdiqidir.

Ardı 2-ci səh.

## Azərbaycan "peyvənd millətçiliyi"nə qarşı qlobal mübarizənin önündədir

### Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş qətnaməni 179 ölkə dəstəkləyib

**Bəşəriyyəti ölüm hökmü ilə iki ildir hədələyən koronavirus pandemiyasının qarşısının alınması Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətinin əsas hissəsinə çevrilməsi də bu "gözəgörünməz bəla"dan xilas yolu deyilmiş. Buna görə də dünya xalqları və özlərini güclü dövlət hesab edənlər ilk növbədə vaksinlərin bərabər şəkildə bölüşdürülməsini təmin etməlidirlər. Təəssüf ki, bu istiqamətdə bir sıra məsələlərdə davam edən ikili standartlar burada da özünü gizlətmədi. Azərbaycanın dövlət başçısı İlham Əliyev problemin qlobal şəkildə həllinə nail olmaq üçün beynəlxalq tribunalarda haqq səsini qaldırmaqla bir daha özünün və xalqının humanistliyini göstərdi.**

Bax: səh. 9

## "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 643; 2021, № 8, maddə 923) 1-ci hissəsində "50" rəqəmləri "80" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*




## Gorus-Qafan yolunda SOCAR-ın yanacaqdoldurma məntəqəsi açılıb

Dekabrın 20-də Gorus-Qafan yolunun Qubadlı rayonunun Eyvazlı kəndindən keçən hissəsində Dövlət Neft Şirkətinin (SOCAR) yanacaqdoldurma məntəqəsinin (YDM) açılışı olub.

AZƏRTAC xəbər verir ki, YDM-də "Kapital Bank" ASC xidmət göstərir və onun vasitəsilə müştərilər istədikləri valyutada ödəniş edib yanacaq ala bilərlər.

Bax: səh. 12

## "Media haqqında" yeni qanun KİV-in inkişafına təkan verəcək

Bax: səh. 10

# Baş nazir Əli Əsədov Rusiyanın Azərbaycandakı səfiri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 20-də Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Boçarnikov ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Rusiya münasibətləri ilə bağlı bir sıra məsələlər müzakirə olunub.

# Azərbaycanın xarici işlər naziri türkiyəli həmkarı ilə görüşüb

Dekabrın 19-da İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının İslamabadda keçirilən növbədənkənar iclası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşü keçirilib.



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki qardaş ölkə arasındakı strateji münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini vurğulayıblar.

Tərəflər Azərbaycan və Türkiyə liderlərinin təşəbbüsü ilə irəli sürülən 3+3 əməkdaşlıq formatının ilk görüşünün nəticələrini müzakirə ediblər. Əməkdaşlıq mexanizminin irəli aparılmasında maraq ifadə olunub.

Söhbət zamanı nazirlər Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq istiqamətləri, habelə hər iki ölkənin birgə iştirak etdiyi üçtərəfli əməkdaşlıq formatları ilə bağlı məsələləri və növbəti aylarda bu istiqamətdə atıla biləcək addımları müzakirə ediblər.

Tərəflər həmçinin bölgədəki cari vəziyyət, üçtərəfli bəyanatların icrası, postmünaqişə kontekstində bölgə ölkələri arasında münasibətlərin normallaşdırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ceyhun BAYRAMOV: "Azərbaycan Əfqanıstandakı humanitar vəziyyətin həlli istiqamətində İƏT-in səylərini dəstəkləməyə hazırdır"






Dekabrın 19-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının Əfqanıstandakı humanitar vəziyyətlə bağlı keçirilən növbədənkənar iclasında çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, çıxışında iclasın çağırılması təşəbbüsünə görə İƏT sədri Səudiyyə Ərəbistanı Krallığına və tədbirə evsahibliyi etdiyinə görə Pakistan tərəfinə təşəkkürünü ifadə edən nazir çıxışında bir sıra mühüm məqamları vurğulayıb.

Təşkilatın təsisçi dövlətlərindən biri olan Əfqanıstanda vəziyyətin gərginləşməsinin regional və qlobal səviyyədə ciddi problemlər yaratdığını və ümumi narahatlıq mənbəyi olduğunu diqqətə çatdıran C.Bayramov bildirib ki, Əfqanıstandakı böhranın dəhşətli humanitar nəticələri yüz minlərlə günahsız insanın həyatını təhlükə altına qoyduğu üçün bütün beynəlxalq ictimaiyyətin təcili tədbirlər görməsini tələb edir. İslam həmrəyliyinin nəcib prinsipi əsasında qurulan İƏT-in bu çətin zamanda əfqan bacı və qardaşlarımızın yanında olmaq məsuliyyəti var. Humanitar yardım sahəsində son illərdə toplanmış mühüm təcrübə və yaradılmış mexanizmlər və təsisatlar sayəsində İƏT Əfqanıstandakı humanitar vəziyyətin həllində aparıcı rol oynamaq üçün yaxşı mövqeyə malikdir. Təşkilatın məsul üzvü kimi Azərbaycan İƏT-in bu istiqamətdə səylərini dəstəkləməyə hazırdır.

Nazir vurğulayıb ki, davamlı həll yolları tapmaq üçün mövcud vəziyyətin əsas səbəblərini nəzərdən qaçırmaq olmaz. Bu kontekstdə ölkədə tam funksional inklüziv idarəetmə sisteminin yaradılması, xüsusilə gənclər arasında terrorizm, ekstremizm və narkotik vasitələrin qanunsuz dövriyyəsi risklərinin, yoxsulluğun aradan qaldırılması və dayanıqlı iqtisadi inkişafın dəstəklənməsi həyati əhəmiyyət kəsb etməkdə davam edir. Əks halda, sadəcə, humanitar yardım Əfqanıstan xalqının onilliklər boyu çəkdiyi əzablara çarə ola bilməz.

"Dinc və inklüziv proses vasitəsilə effektiv idarəetmənin qurulması böhrandan yeganə çıxış yoludur. Bununla əlaqədar, biz İƏT-in qəbul etdiyi bir sıra qətnamələrin etibarlılığını vurğulayırıq və Əfqanıstanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına dəstəyimizi bir daha təsdiqləyirik.

Əfqanıstanda təhlükəsizlik və sabitlik regiondakı ümumi təhlükəsizlik mühiti ilə sıx bağlıdır. Əfqanıstandakı vəziyyətin gərginləşməsi ilə bağlı üzləşdikləri ciddi problemlərin həllində qonşu İƏT-ə üzv dövlətlərə də bizim həmrəyliyimiz və dəstəyimiz göstərilməlidir", - deyə Azərbaycanın xarici işlər naziri bildirib.

# Azərbaycan Əfqanıstanda humanitar böhranın nəticələrinin aradan qaldırılmasına töhfə verməkdə davam edəcək

Dekabrın 19-da Pakistanın paytaxtı İslamabad şəhərində İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Əfqanıstanda humanitar vəziyyət mövzusunda 17-ci növbədənkənar iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Əfqanıstandakı vəziyyət, onun regional və qlobal təhlükəsizliyə təsiri ətrafında fikir mübadiləsi aparılıb. Tədbirdə iştirakçı ölkələr tərəfindən Əfqanıstandakı böhranın, ilk növbədə, ciddi humanitar fəsadlar törətdiyi və onların aradan qaldırılmasında beynəlxalq əməkdaşlığın vacibliyi vurğulanıb.

Sonda Əfqanıstanda humanitar vəziyyətin sabitləşməsi istiqamətində İslam Əməkdaşlıq Təşkilatı tərəfindən atılacaq praktiki addımları özündə əks etdirən yekun qətnamə qəbul edilib.

Qətnamədə İslam İnkişaf Bankının himayəsi altında Humanitar Etimad Fondunun yaradılması, habelə Əfqanıstan Ərzaq Təhlükəsizliyi Proqramının təsis edilməsi qərara alınıb.

İƏT-in Əfqanıstanda vəziyyətin sabitləşməsi istiqamətində səylərinin daha səmərəli əlaqələndirilməsi məqsədilə Təşkilatın Əfqanıstan üzrə xüsusi nümayəndəsi vəzifəsi təsis edilib, habelə İƏT-in Əfqanıstandakı missiyasının iqtisadi və insan resursları baxımından gücləndirilməsi qərara alınıb. İƏT Baş katibinin Humanitar, mədəni və ailə məsələləri üzrə müavini Tarıq Əli Baxet Təşkilatın Əfqanıstan üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin olunub.

İƏT-in 57 üzv dövləti adından qəbul edilən yekun qətnamədə Əfqanıstandan əhalinin təxliyəsi ilə bağlı və bu xüsusda mühüm rol oynayan ölkələrə dair ayrıca bənd öz əksini tapıb. Həmin dövlətlər arasında Azərbaycan Respublikasının Əfqanıstandan mülki əhalinin təxliyəsi prosesində oynadığı mühüm rol təqdir edilib.

Azərbaycan Respublikası İƏT-in məsuliyyətli üzvü kimi və islam həmrəyliyinə sarsılmaz sadiqliyindən irəli gələrək, Əfqanıstanda humanitar böhranın nəticələrinin beynəlxalq birliyin, o cümlədən İƏT-in üzv dövlətlərinin birgə addımları sayəsində aradan qaldırılmasının tərəfdarıdır və bu istiqamətdə atılan addımlara töhfə verməkdə davam edəcək.

# Azərbaycan və Rusiya arasında əmək və sosial müdafiə sahəsində gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Rusiyanın əmək və sosial müdafiə naziri Anton Kotyakov arasında videoformatda görüş olub.




S.Babayev Azərbaycan ilə Rusiya arasında münasibətlərin uğurla inkişaf etdiyini, iki ölkənin dövlət başçılarının siyasi iradəsi, səyləri nəticəsində əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, sosial sahədə əlaqələrin daim genişləndiyini, iki nazirlik arasında fəal əməkdaşlığın həyata keçirildiyini bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev, eyni zamanda, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Sosial Təminat Assosiasiyası, MDB dövlətlərinin Əmək, miqrasiya və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurası çərçivəsində uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu qeyd edib.

Nazir vətəndaş rifahının təminatının Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətini təşkil etdiyini bildirib. Ölkəmizdə əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlar, əmək, məşğulluq, sosial müdafiə sisteminin innovativ yanaşmalar əsasında təkmilləşdirilməsi üçün aparılan islahatlar, DOST konsepsiyası barədə məlumat verib.

A.Kotyakov ikitərəfli münasibətlərin inkişaf səviyyəsinin məmnunluq doğurduğunu, qarşıdakı dövrdə əməkdaşlıq əlaqələrinin daha da genişlənəcəyinə əminliyini bildirib.

Görüşdə iki nazirlik arasında ötən dövrdə həyata keçirilmiş əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Əmək, əməyin mühafizəsi, aktiv məşğulluq proqramları, qeyri-rəsmi məşğulluğun qarşısının alınması, sosial müdafiə, sosial xidmətlər, bu xidmətlərin göstərilməsi sisteminin idarə edilməsi, əlillik və reabilitasiya, innovativ yanaşmaların, müasir texnologiyaların tətbiqi istiqamətlərində əməkdaşlığın inkişaf etdirilməsinin, fəal təcrübə mübadilələrinin əhəmiyyəti vurğulanıb. Bu sahələrdə gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

# GUAM-a üzv dövlətlərin BMT, ATƏT, Avropa Şurası və onların parlament qurumları çərçivəsində əməkdaşlığı müzakirə olunub

Dekabrın 20-də GUAM Parlament Assambleyası komitələrinin videokonfrans formatında 5-ci birgə iclası keçirilib.




Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Birgə iclasda Milli Məclisin GUAM PA-dakı nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev, nümayəndə heyətinin üzvləri Əli Məsimli, Qüdrət Həsənquliyev, Nəsib Məhəməliyev və Cavid Osmanov iştirak ediblər.

İclasda GUAM məkanında lokal münaqişələrin həllinin hazırkı vəziyyəti, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası, Gürcüstan və Moldova Respublikasında dondurulmuş münaqişələr, GUAM-a üzv dövlətlərin BMT, ATƏT, Avropa Şurası və onların parlament qurumları çərçivəsində əməkdaşlığı, COVID-19 pandemiyasının sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər, onların qanunvericilik təminatı, üzv dövlətlər arasında ticarət-iqtisadi əlaqələrin inkişafı, GUAM Azad Ticarət Zonasının yaradılmasının başa çatdırılması, kibertəhlükəsizlik sahəsində əməkdaşlıq və digər mövzularda müzakirələr aparılıb.

Onlayn tədbirdə deputatlar müzakirə olunan məsələlərlə bağlı çıxışlar edib, gündəlikdəki mövzulara münasibətlərini bildiriblər.

# Ölkəmizin hər bir vətəndaşının rifahı dövlətin diqqət mərkəzindədir

## Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla 732 min şəxsin sosial ödənişləri artırıldı

*Əvvəli 1-ci səh.*

Yeni fərman və sərəncamlarla müavinət və təqaüd artımı əlilliyi olan şəxslər və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, sağlamlıq imkanları məhdud uşaqlar və onlara qulluq edənlər, yaşa görə müavinət alanlar, ailə başçısını itirməyə görə müavinət alanlar, müddətli hərbi xidmətdə olanların uşaqları, uşaqların qəyyumları əhatə edilir. Sözügedən sənədlər eləcə də beşdən çox uşağı olan qadınlara, bir yaşadək uşağı olan (ünvanlı sosial yardım alan) aztəminatlı ailələrə, övladlığa uşaq götürənlərə, işləməyən pensiyaçı elmlər və fəlsəfə doktorlarına, "Xalq" və "Əməkdar" fəxri adı olanlara, həmçinin doktorant və tələbələrə aiddir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirirlər ki, əlilliyə görə müavinətlər 2022-ci ilin əvvəlindən etibarən I dərəcə üzrə 150 manatdan 220 manata, II dərəcə üzrə 130 manatdan 180 manata, III dərəcə üzrə isə 110 manatdan 120 manata çatdırılacaq. Bu da son üç ildə aparılan islahatlar nəticəsində əlilliyə görə müavinətlərin I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artması deməkdir. Həmin müavinətlərdən əlavə, ümumi səbəbdən I dərəcə əlilliyi olanlar Prezidentin aylıq təqaüdü olaraq 130 manat ödənişlə də təmin olunurlar. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanlara isə dövlət başçısının aylıq təqaüdü olaraq I dərəcə üçün 400 , II dərəcə üçün 350, III dərəcə üçün 300 manat ödənilir. Həmin təqaüdlər bu ilin əvvəlində növbəti dəfə orta hesabla 50 faiz artırılıb.

Birinci dərəcə əlilliyi olan şəxslərə qulluğa görə Prezidentin aylıq təqaüdü də 60 faiz artırılaraq gələn ilin əvvəlindən 80 manata çatdırılır.

Müharibə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanlar pensiya almadıqda müavinət və təqaüd formasında ayda I dərəcə üzrə 700 manat, II dərəcə üzrə 530, III dərəcə üzrə 420 manat alacaqlar. Bu da 2019-cu illə müqayisədə dərəcələr üzrə müvafiq olaraq 2,5 dəfə, 2,2 dəfə və 2,2 dəfə çoxdur.

Həmin kateqoriyalara aid əlilliyi olan şəxslər əmək pensiyası aldıqda orta hesabla aylıq I dərəcə üzrə 915 manat, II dərəcə üzrə 845 manat, III dərəcə üzrə 610 manat alacaqlar. Bu məbləğlər isə 2019-cu illə müqayisədə dərəcələr üzrə müvafiq olaraq 72 faiz, 81 faiz və 97 faiz çoxdur. Ümumi səbəbdən əlilliyi olan şəxslər üzrə sosial ödənişlərdə son 3 ildə həmin artımlar dərəcələr üzrə müvafiq olaraq 50 faiz, 59 faiz və 112 faiz təşkil edir.

Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət də 150 manatdan 200 manata yüksəldilib. Onlara qulluğa görə 2019-cu ildə Prezidentin aylıq təqaüdü də təsis olunub ki, yeni fərmanla həmin təqaüd də 60 faiz artımla 50 manatdan 80 manata çatdırılıb. Beləliklə, sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial ödəniş 2019-cu ilin əvvəlində cəmi 82 manat idisə, gələn ilin əvvəlindən həmin məbləğdən 3,4 dəfə çox olmaqla onlar üçün müavinət (200 manat) və təqaüd (80 manat) formasında aylıq 280 manat sosial ödəniş ediləcək.

Prezidentin dekabrın 20-də imzaladığı yeni fərmanlarla bir sıra digər kateqoriyalara yönələn müavinətlər də əhəmiyyətli şəkildə artırılıb. Belə ki, gələn il yanvarın 1-dən yaşa görə müavinət 130 manatdan 180 manata çatdırılır. 2019-cu ilin əvvəlində bu müavinət 73 manat idi, ümumilikdə 2,5 dəfə artırılmaqla gələn ilin əvvəlindən 180 manat təşkil edəcək. Bununla da 2022-ci ildə pensiyaçılar üçün nəzərdə tutulan yaşayış minimumunu (176 manat) üstələyəcək.

Ailə başçısını itirməyə görə müavinət (hər ailə üzvü üçün) 80 manatdan 100 manata çatdırılır. Bununla da üç il əvvələ (68 manat) nisbətən həmin müavinət 47 faiz artırılıb.

Müddətli hərbi xidmətdə olan hərbçilərin uşaqlarına müavinət üç il əvvəl 68 manat idisə, 2019-cu ilin aprelindən 100 manata çatdırıldı. Yeni fərmanla isə 2022-ci ilin əvvəlindən 120 manat təşkil edəcək. Bu da son üç ildə həmin müavinətin 76,5 faiz artırılması deməkdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət 100 manatdan 120 manata çatdırılır. Bununla da həmin şəxslər üçün müavinətdə üç il əvvələ (61 manat) nisbətən təqribən 2 dəfə artım baş verir.

Dövlətimiz çoxuşaqlı anaları da unutmayıb. Belə ki, beşdən çox uşağı olan qadınlara (hər uşağa görə) aylıq müavinət isə 55 manatdan 70 manata artırılır. Ümumilikdə son üç ildə bu müavinət 2,1 dəfə artırılaraq 33 manatdan 70 manata yüksəlib.

Bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı dövlət sosial yardımı təyin edilmiş) ailələrə hər uşağa görə müavinət isə yeni fərmanla əvvəlki 55 manat əvəzinə 70 manat olub. Yəni həmin uşaqlar üçün müavinətdə üç il əvvələ (45 manat) nisbətən 55,6 faiz artım baş verir.

Övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud uşağa görə müavinət 2021-ci ilin əvvəlindən təsis olunub və yeni fərmanla bu müavinət də 25 faiz artırılaraq hər uşağa görə 160 manatdan 200 manata, sağlamlıq imkanları məhdud hər uşağa görə isə 480 manatdan 600 manata çatdırılıb.

Əgər övladı dünyaya gələn ailələr əvvəl dövlətdən 200 manat birdəfəlik müavinət alırdılarsa, indi bu məbləğ 300 manat olacaq. Həmin müavinət üç il əvvəlki məbləğlə (109 manat) müqayisədə 2,8 dəfə artırılıb. Dəfn üçün müavinətin məbləği isə 300 manatdan 350 manata çatdırılıb. Üç il əvvələ (146 manat) nisbətən bu müavinətdə 2,4 dəfə artım baş verib.

Məlum olduğu kimi, azı 25 il pedaqoji staja malik, işləməyən pensiyaçı olan elmlər doktorları və fəlsəfə doktorlarına 2021-ci il yanvarın 1-dən Prezidentin aylıq təqaüdü təsis olunub. Yeni fərmanla bu təqaüd elmlər doktorları üçün 50 faiz artırılaraq 200 manatdan 300 manata, fəlsəfə doktorları üçün 67 faiz artırılaraq 120 manatdan 200 manata çatdırılır.

Yeni sərəncamla fəxri adlara görə aylıq təqaüdlər də "Xalq" fəxri adına görə 33,3 faiz artımla 150 manatdan 180 manata, "Əməkdar" fəxri adına görə isə 20 faiz artımla 100 manatdan 120 manata yüksəldilib.

Dövlət başçısının digər sərəncamı doktorantların, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistratura səviyyəsində təhsil alan tələbələrin təqaüdlərinin 20 faiz artırılmasını nəzərdə tutur.

Beləliklə, dövlət başçısının yeni fərman və sərəncamları əlilliyi olan şəxslər və digər kateqoriyalardan ibarət ümumilikdə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbəni əhatə edərək müavinət və təqaüd formasında onlara yönələn sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir. Bu artımlar üçün illik əlavə 200 milyon manat ayrılıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Media fəaliyyətinin hüquqi tənzimlənməsi daha da təkmilləşdiriləcək

Dekabrın 20-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 34 məsələnin daxil edildiyini bildirib.






İlk olaraq "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşdan keçəcək iki qanun layihəsi - Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da imzalanmış AZB-P4 nömrəli Kredit Sazişinə Dəyişiklik Məktubu"nun təsdiq edilməsi haqqında qanun layihəsini və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və KfW arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsinə düzəlişin təsdiq edilməsi haqqında qanun layihələri müzakirə edilib. Hər iki layihə haqqında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib.

Qanun layihələrinin müzakirələrində komitə sədri Tahir Mirkişili, deputatlar Qüdrət Həsənquliyev, Razi Nurullayev, Fatma Yıldırım, Fəzail Ağamalı, Siyavuş Novruzov fikirlərini bildiriblər. Müzakirələrin sonunda hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul olunub.

Spiker Sahibə Qafarova növbəti 5 məsələnin üçüncü oxunuşda olan qanun layihələri olduğunu qeyd edib. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə qanun layihəsi barədə məlumat vermək üçün söz birinci vitse-spiker Əli Hüseynliyə verilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihənin yeni nəsil şəxsiyyət vəsiqəsinin verilməsi ilə bağlı olduğunu qeyd edib və əvvəlki oxunuşlarda təkliflərin daxil olmadığını bildirib.

Müzakirədə məsələ ilə bağlı Hicran Hüseynovanın və Səməd Seyidovun rəhbərlik etdikləri komitələrin müsbət rəyləri və Siyavuş Novruzovun sənədin cinayətkarlığın qarşısının alınmasında əhəmiyyəti ilə əlaqədar fikirləri dinlənildikdən sonra qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə də birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, qanuna dəyişiklik işçilərin pozulmuş hüquqlarının bərpasına yönəlib və əvvəlki oxunuşda layihə ilə bağlı hər hansı təklif olmayıb.

Milli Məclisin Sədri məsələnin baxıldığı digər komitənin - Əmək və sosial siyasət komitəsinin rəyini aldıqdan sonra sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Növbəti məsələ ilə bağlı parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev məlumat verib. O, üçüncü oxunuşda müzakirəyə çıxarılan "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşda geniş məlumat verildiyini, fikir və rəylərin nəzərə alındığını bildirib.

Qanun layihəsinin baxıldığı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli komitənin heç bir əlavəsinin olmadığını bildirəndən sonra sənəd üçüncü oxunuşda təsdiqlənib.

Növbəti məsələ olan "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verən parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva sənədin üçüncü oxunuşunda deputatlar tərəfindən əlavə və təkliflərin daxil olmadığını bildirib. Sənədin baxıldığı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin müsbət rəyindən sonra qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Plenar iclasın üçüncü oxunuşda müzakirəyə çıxarılan sonuncu məsələ - "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqda birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Qeyd edib ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində hazırlanan qanun layihəsinə deputatların düzəliş xarakterli təklifləri nəzərə alınıb. Komitə sədri indiki formada qanun layihəsinin qarşıya qoyulan məqsədləri tam ehtiva etdiyini vurğulayıb.

Məsələ ilə bağlı müzakirələrdə parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun və deputat Əminə Ağazadənin fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Bununla da plenar iclasda üçüncü oxunuşda olan qanun layihələrinin müzakirəsi başa çatıb.

Parlamentin Sədri Sahibə Qafarova iclasın 8-ci məsələsi olan və qanunvericiliyə əsasən bir oxunuşdan keçən "Pasportlar haqqında", "Dövlət qulluğu haqqında", "Diplomatik xidmət haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim edib.

Qanun layihəsi barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənəd Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olmadığı ölkələrdə Azərbaycan Respublikasının ticarət nümayəndəsinin ayrıca fəaliyyət göstərməsi və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə diplomatik pasportların verilməsi ilə bağlı uyğunlaşdırma xarakterli dəyişiklikləri nəzərdə tutur.

Sənədin baxıldığı İqtisadi siyasət, sənaye və sahibkarlıq, həmçinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin rəyləri öyrənildikdən sonra müzakirələrdə deputatlardan Fəzail Ağamalı, Məlahət İbrahimqızı qanun layihəsi ilə bağlı müsbət rəylərini bildiriblər. Sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin də bir oxunuşda qəbul ediləcəyini bildirən spiker Sahibə Qafarova sənədlə bağlı məlumat vermək üçün sözü İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyevə verib.

Elnur Allahverdiyev bildirib ki, sənəd "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanının icrasını təmin etmək məqsədilə hazırlanıb. Layihədə "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"na sənaye parkının, sənaye məhəlləsinin və aqroparkın rezidentlərinə qeydiyyat şəhadətnaməsinin verilməsi ilə bağlı uyğunlaşdırma xarakterli dəyişiklik təklif edilib.

Qanun layihəsi səsvermədən keçərək qəbul olunub.

Spiker Sahibə Qafarova qeyd edib ki, gündəliyin növbəti 9 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Növbəti iki məsələ isə cənab Prezidentin bir məktubu ilə parlamentə daxil olub.

İkinci oxunuşda müzakirəyə çıxarılan "Turizm haqqında" qanun layihəsi barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Qanun layihəsinin birinci oxunuşunda geniş müzakirələrin keçirildiyini qeyd edən komitə sədri sənədin turizmin dayanıqlı inkişafını, turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını təmin edəcək hüquqi bazanı yaratdığını bildirib və layihənin birinci oxunuşunda deputatların irəli sürdükləri təkliflərlə bağlı ümumi məlumatı iclas iştirakçılarının diqqətinə çatdırıb.

Məsələ ilə bağlı çıxış edən komitə sədrləri Əli Hüseynli, Qənirə Paşayeva, Tahir Rzayev, Ziyafət Əsgərov, Musa Quliyev, deputatlar Razi Nurullayev, Fazil Mustafa, Vüqar Bayramov, Etibar Əliyev, Erkin Qədirli, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Rüfət Quliyev qanun layihəsinə dair fikirlərini bölüşüblər. Deputatlar sənəddə verilən termin və anlayışlar, viza rejimi, turizm rekreasiya zonalarının yaradılması kimi məsələlərlə bağlı, həmçinin Azərbaycanda turizmin mövcud durumu və inkişaf perspektivlərinə dair rəy və təkliflərini səsləndiriblər.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə də ikinci oxunuşda müsbət münasibət bildirilib.

Fasilədən sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili növbəti iki məsələni təqdim edib. Bildirilib ki, "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi büdcə qaydasının təkmilləşdirilməsi, onun icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti, habelə ümumi dövlət borcunun ÜDM-ə nisbəti parametrləri əsasında müəyyən edilməsi məqsədilə hazırlanıb. Bu parametrlər Dövlət Neft Fondundan dövlət büdcəsinə ediləcək transfertin yuxarı hədlərini tənzimləmək və dövlət borcunun səviyyəsinin artmasının qarşısını almaq məqsədilə təklif olunur. Layihədə bir sıra yeni anlayışlar müəyyən edilib, bəziləri isə yeni redaksiyada verilib. Eyni zamanda, dövlət büdcəsinin layihəsi ilə birlikdə təqdim olunan sənədlərin dairəsi dəqiqləşdirilib, büdcə təşkilatlarının və dövlət büdcəsindən maliyyə yardımları alan təşkilatların bu vəsaitlərin istifadəsi barədə müvafiq orqanlara aylıq hesabat vermə vəzifəsi aradan qaldırılır. Sənəddə dövlət büdcəsinin icrası zamanı dövlət büdcəsinin gəlirlərinin və funksional, iqtisadi və inzibati təsnifat üzrə xərclərinin bölgüsündə dəyişiklik edildiyi təqdirdə bu barədə məlumatların Hesablama Palatasına təqdim edilmə dövriliyi müəyyən edilir.

Komitə sədri "Dövlət borcu haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi barədə də məlumat verərək qeyd edib ki, sənəd dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun statusunun dəqiqləşdirilməsi, onun xərclərinin yuxarı həddinə çərçivənin qoyulması məqsədilə hazırlanıb. Təklif olunan əlavələrə əsasən, dövlət borcunun əsas məbləğinin qaytarılması üzrə ödənişlər cari büdcə ili ərzində cəlb edilən dövlət borcalması hesabına təmin edildikdə, bu ödənişlərin həmin ilin dövlət büdcəsində dövlət borcuna xidmət edilməsi ilə bağlı nəzərdə tutulan xərclərdən artıq olan hissəsi dövlət büdcəsinin xərclərinə aid edilmir. Habelə Təminat Fondunun xərclərinin yuxarı həddi həmin fondun büdcə ilinin əvvəlinə olan qalığından və il ərzində mədaxil olunacaq vəsaitin cəmindən yuxarı ola bilməz.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Sonra iclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri müzakirəyə təqdim olunub. Bildirilib ki, sənədlərə əsasən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı 5 il müddətinə ƏDV-dən və gömrük rüsumlarından azad edilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev mahiyyətcə bir-birinə yaxın olan digər iki layihə barədə məlumat verib. Bildirilib ki, "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" 2020-ci il 29 dekabr tarixli 235-VIQ nömrəli qanunun tətbiqi barədə" Prezidentin müvafiq fərmanının icrası çərçivəsində hazırlanıb. Qanunun əsas anlayışlarını ehtiva edən 2-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, sığorta hadisəsi anlayışına dəqiqlik gətirilib. Sənəddə həmçinin sığorta ödənişini almaq hüququ olan şəxslərin çevrəsinin genişləndirilməsi, işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə əmək müqaviləsinin müddəti qurtardıqda tələb olunan ən azı 36 təqvim ayı ərzində əmək müqaviləsinin müddətinin 30 ayadək azaldılması, habelə sığorta ödənişinin 3 ay sonra deyil, sığorta hadisəsi baş verdikdə ödənilməsi məqsədilə müvafiq dəyişikliklər edilib.

Komitə sədri "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) qeyd edib ki, layihədə mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan şəxslərin peşə hazırlığı kurslarına ödənişsiz cəlb edilməsi, həmçinin peşə hazırlığına cəlb olunduqları dövrdə təqaüd almaları, haqqı ödənilən ictimai işlərə, habelə özünüməşğulluğa cəlb olunmaları kimi aktiv məşğulluq tədbirlərini təsbit edən müddəalar təklif edilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda ikinci oxunuşda "Media haqqında" qanun layihəsi müzakirə olunub. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında "Media haqqında" qanun layihəsinin hazırlıq mərhələsində, o cümlədən müxtəlif platformalarda - Milli Məclisdə və digər məkanlarda keçirilən görüşlərə, dinləmə və müzakirələrə ideya-siyasi və təşkilati dəstəyə, birbaşa iştiraka və yardıma görə Milli Məclisin Sədri Sahibə Qafarovaya işçi qrupu adından təşəkkür edib. Bildirib ki, istər Milli Məclis deputatlarının, istərsə də parlament Aparatının bütün resurslarının bu müzakirələrə səfərbər edilməsi razılıq hissi doğurur.

Sonra komitə sədri qanun layihəsi ilə bağlı görülən işlərə dair məlumatları diqqətə çatdıraraq sənədin ötən müddət ərzində müzakirələri zamanı səsləndirilən fikirlərə münasibət bildirib, sualları cavablandırıb. Diqqətə çatdırılıb ki, müzakirələrdə ifadə edilən fikirləri iki qrupa bölmək olar. Bunların bir hissəsi dövlət media siyasətinin müxtəlif aspektlərinə, onun tarixinə, praktiki tərəfinə yönəlib, müəyyən bir qismi isə dəqiqləşdirici xarakter daşıyır. Xüsusi olaraq qeyd edilib ki, layihədə internet televiziyaların fəaliyyətinə yasaq edilmədiyi aydın qeyd olunsa da, bununla belə işçi qrupu yeni 30.8-ci maddənin əlavə edilməsini məqbul hesab edir. Bildirilib ki, göstərilən rəqəmlər yalnız statistik hesabat deyil, ötən müddətdə parlamentin yeni media qanununun qəbulu istiqamətində sistemli, açıq və milli mənafelərə uyğun mövqeyini nümayiş etdirir.

Zahid Oruc deyib ki müzakirəyə çıxarılan qanun media sahəsində islahatların birinci mərhələsini təşkil edir. Təkmil normativ-hüquqi bazanın yaradılması media strategiyası və konsepsiyasının da qəbuluna kömək edəcək. O, media subyektlərinə maliyyə dəstəyinin göstərilməsi, bununla bağlı beynəlxalq təcrübədə olan nümunələr, mediada reklam qaydaları, sosial medianın fəaliyyəti, televiziyalarda ixtisaslı kadr seçimi, yaradıcılıq səviyyəsinin yüksəldilməsi, xarici dil bilən professional jurnalistlərin hazırlanması məsələlərinə toxunub.

Komitə sədri onu da bildirib ki, hazırda qüvvədə olan qanun ancaq əmək müqaviləsi ilə işləyən ştatlı və ştatdankənar müxbirlərə jurnalist statusunu şamil edir. Yeni layihə isə həm əmək müqaviləsi, həm də mülki hüquq müqaviləsi ilə işləyən jurnalistləri əhatə edir. Heç bir müqavilə bağlamadan, yazılarını özünün veb-saytında yayımlayan şəxs artıq onlayn-media subyekti kimi çıxış edir və onunla qurulan münasibətlər bu çərçivədə tənzimlənəcək. O, blogerlərin fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar diqqətə çatdırıb ki, qanun layihəsində bununla bağlı və ümumiyyətlə, sosial şəbəkələrə aid müddəalar yer almayıb. Layihə ancaq peşəkar jurnalistika səviyyəsində olan münasibətləri sağlamlaşdırmağa xidmət edir. Komitə sədri layihədə hadisələrin və faktların qərəzsiz və obyektiv şərh olunması tələbi ilə bağlı məsələyə aydınlıq gətirərək deyib ki, sənəddə göstərilən normalar mediada dərc olunan, yayımlanan informasiyalara olan tələbləri nəzərdə tutur. Jurnalistin təhsili ilə bağlı sualla əlaqədar qeyd olunub ki, layihədə ali təhsil tələbi qoyulmayıb. Bu meyar yalnız jurnalist vəsiqəsinin təqdim edilməsi zamanı nəzərə alınacaq. O da qeyd edilib ki, layihədə hər hansı bürokratik əngəl nəzərdə tutulmayıb, əksinə, peşəkar jurnalistlərə lazımi şərait yaratmaq, keyfiyyətli xəbər istehsalını təşviq etmək, xarici informasiya məkanına inteqrasiya olunmaq kimi müddəalar yer alıb.

Zahid Oruc çıxışında siyasi partiyaların və dövlət orqanlarının media subyekti yaratmaq hüququ ilə əlaqədar layihədə göstərilən normaları şərh edib, gizli audio və video yazılardan, fotoçəkilişlər barədə danışıb və onları yaymaq qaydalarını da şərh edib. Həmçinin qeyd edib ki, medianın bütün yaş kateqoriyalarına nüfuz etməsini nəzərə alaraq, ictimai mənəviyyatın qorunması üçün sənəddə müvafiq normalar da müəyyənləşdirilir.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək layihə ətrafında bir neçə dəfə çox geniş və səmərəli müzakirələrin aparıldığını söyləyib, səsləndirilən cavabların məqbul olduğunu deyib.

Sonra qanun layihəsi ilə bağlı müzakirələrdə çıxış edən parlamentin komitə sədri Musa Quliyev, deputatlardan Fazil Mustafa, Azay Quliyev, Sahib Alıyev, Vahid Əhmədov, Nigar Arpadarai, Etibar Əliyev, Aqil Abbas qanun layihəsi barədə öz fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti məsələləri birinci oxunuşda olan qanun layihələridir. 19-cu məsələdən 32-ci məsələyə qədər olan layihələr Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındırlar.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxış edərək bildirib ki, təqdim olunan qanun layihələri "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlara edilən dəyişikliklərin mahiyyətindən yaranan digər qanunlara edilən düzəlişlərdir.

Qeyd edilib ki, "Lotereyalar haqqında" qanunda dəyişiklik, eyni zamanda "Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Prezidentin 2021-ci il 16 yanvar tarixli sərəncamına uyğun olaraq hazırlanıb və bu sahədə qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı qoyulan tələblərdən irəli gəlir. Komitə sədri deyib ki, bu gün dünyada informasiya texnologiyalarının inkişafı ilə əlaqədar lotereyalar və idman-mərc oyunlarının əhali arasında sürətlə yayılması, daha çox istifadəçisinin olması, bu imkanların daha çox əlçatan olması dövlət qarşısında bu sahənin tənzimlənməsi üçün müvafiq çağırışlar yaradıb. Burada əsas məqsəd vətəndaşların hüquqlarının qorunması, bu prosesin daha şəffaf olması, bu sahədə fəaliyyət göstərən sahibkarların fəaliyyətinin tənzimlənməsi, Vergi Məcəlləsinin müvafiq müddəalarının yerinə yetirilməsi ilə bağlıdır.

Diqqətə çatdırılıb ki, qanun layihəsi bir neçə istiqaməti özündə ehtiva edir. Belə ki, qanuna yeni anlayışlar əlavə olunub. Sənəddə həmçinin lotereyaların təşkili və keçirilməsi üçün səlahiyyətli orqanın müəyyən edilməsi, həmin orqan üzrə tiraj komissiyalarının üzərinə qoyulan tələblər, bununla bağlı tənzimləmə formalarının qanunvericilikdə öz əksini tapması, lotereyalar üzrə uduş fondunun yuxarı həddinin ləğv olunması, habelə lotereya şərtlərinin təkmilləşdirilməsi, virtual lotereyaların təşkili üzrə hüquqi əsasların yaradılması ilə bağlı dəyişikliklər öz əksini tapıb.

Vergi Məcəlləsində edilən dəyişikliklərə toxunan komitə sədri bildirib ki, layihədə lotereyalardan və idman mərc oyunlarından pul şəklində əldə edilən 500 manatadək uduşların gəlir vergisindən azad edilməsi lotereya biletlərinin agent qaydasında satışını həyata keçirən hüquqi və fiziki şəxslərin gəlirlərinin vergidən azad edilməsi,idman mərc oyunlarının operatoru və satıcılarının, habelə lotereya təşkilatçısı və biletlərin satıcılarının sadələşdirilmiş vergi ödəyicisi kimi təsbit olunması, bu sahədə vergitutma obyektinin və vergi dərəcələrinin dəqiqləşdirilməsi məsələləri təsbit olunub.

Qeyd olunub ki, "Reklam haqqında" qanuna dəyişikliklə bağlı qanun layihəsi isə lotereyalar və idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi çərçivəsində hazırlanıb və lotereyaların və idman mərc oyunlarının reklamının sifarişçisinin, habelə reklamına yol verilməyən halların dairəsinin dəqiqləşdirilməsi məqsədi daşıyır. Təklif olunan dəyişikliklər vətəndaşların hüquqlarının qorunmasına, bu sahədə tənzimləmənin daha aydın olmasına xidmət edir.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, "Lotereyalar haqqında" qanunda edilən dəyişiklikdən irəli gələrək İnzibati Xətalar Məcəlləsinə, Mülki Məcəlləyə, Cinayət Məcəlləsinə və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanuna müvafiq dəyişikliklər edilir.

Diqqətə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliyə görə keçirilən lotereyalar və idman mərc oyunları istisna olmaqla, digər şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti çərçivəsində təşkil edilən və təsadüfdən asılı olan uduşların, mükafatların və digər gəlirin verilməsini nəzərdə tutan əməllər qumar oyunu hesab edilir və inzibati məsuliyyət yaradır. Təkliflərdə həmçinin qumar oyunlarının və bu oyunların təşkilatçısının reklamı da inzibati məsuliyyətə səbəb olur.

Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə dair qeyd olunub ki, sənəd lotereyalar və idman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi çərçivəsində hazırlanıb və dəqiqləşdirmə məqsədi daşıyır.

Qeyd olunub ki, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə əsasən, keçirilən lotereyalar və idman mərc oyunları istisna olmaqla, digər şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti çərçivəsində təşkil edilən və təsadüfdən asılı olan uduşların, mükafatların və digər gəlirin verilməsini nəzərdə tutan əməllər fiziki və ya hüquqi şəxslərə, yaxud dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə qumar oyunu hesab edilir və cinayət məsuliyyətinə səbəb olur.

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanuna təklif edilən dəyişikliklərin bir qismi dəqiqləşdirmə və təkmilləşdirmə məqsədi daşıyır. Digər dəyişikliklərə görə, lotereya təşkilatçıları barəsində nəzarət orqanı funksiyalarının İqtisadiyyat Nazirliyinə, idman mərc oyunların operatorlarına münasibətdə isə Gənclər və İdman Nazirliyinə həvalə edilməsi nəzərdə tutulur.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib ki, "Bədən tərbiyəsi və idman haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi komitədə müzakirə olunub və plenar iclasa tövsiyə edilib. Sənədə təklif olunan dəyişikliklərə əsasən, virtual mühit, real mühitdə idman mərc oyunları, virtual satıcı kimi yeni anlayışlar müəyyən olunub, idman mərc oyunları anlayışı isə genişləndirilib.

Diqqətə çatdırılıb ki, "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Atçılıq haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Dövlət satınalmaları haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə, Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinə də müvafiq dəyişikliklər edilir.

Yuxarıda adları çəkilən qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi Prezidentin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 23 sentyabr 2020-ci il fərmanına əsasən hazırlanıb. Dəyişikliklərə əsasən, doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün və s. vətəndaşlıq vəziyyəti ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə aidiyyəti dövlət informasiya ehtiyatlarına və sistemlərinə vaxtında və düzgün ötürülməsi, müvafiq şəhadətnamə və arayışların elektron qaydada verilməsi və digər məsələlər qanunla tənzimlənəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, dəyişikliklərin edilməsi zərurəti dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin inkişaf etdirilməsindən irəli gəlir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

Bitməkdə olan 2021-ci il dünya miqyasında dərin böhranlar, ciddi problemlərlə müşayiət olunsa da, Azərbaycan timsalında onlar özünü büruzə vermədi. Qlobal fəsadlardan qorunmağın uğurlu Azərbaycan modeli Zəfər ilindən sonrakı dövrdə də bütün sahələr üzrə nailiyyətlərin, dayanıqlı inkişafın ardıcıllığını, həmçinin möhkəm təhlükəsizliyi təmin etdi.

**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV**la müsahibəmizdə də elə əsas mövzu ölkəmizdə təhlükəsizliyin təmini vəziyyətidir. Ancaq həmsöhbətimiz hesab edir ki, təhlükəsizlik məsələləri yalnız müdafiə və hərbi xarakter daşımır, onu tarixi Zəfərdən sonra xüsusən daha geniş miqyasda qəbul etmək mütləqdir. Prezident İlham Əliyev uzun onilliklərin tarixi problemlərini və təhlükəsizliklə bağlı təhdidləri həll etməklə yanaşı, həm də dövlətimiz üçün uzunmüddətli strateji inkişaf hədəflərini müəyyənləşdirib və onlara doğru-düzgün yolu seçib. Azərbaycan artıq yeni regional təhlükəsizlik sisteminin və daha möhkəm sabitliyin memarı, Qafqazın əsas güc mərkəzidir.

General-polkovnik Ramil USUBOV əmindir ki, nəyi necə və nə zaman edəcəyini dəqiq bilən Prezident İlham Əliyevi tariximiz qüdrətli liderliyin mükəmməl örnəyi, əsl vətəndaşlığın kamil nümunəsi kimi daim yaşadacaq.



# Müzəffər Komandan, Qüdrətli, Qurucu Lider

*Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:*

## "Prezident İlham Əliyev xalqımız qarşısında onilliklər boyu ən vacib məqsəd kimi müəyyənləşən taleyüklü vəzifələri elə peşəkarlıqla, qətiyyətlə, yüksək vətənpərvərliklə həll edib ki, tarix onu Azərbaycan var olduqca yaşadacaq"

**- Ramil müəllim, hər bitməkdə olan il həm də keçilən yolun hesabatı, dəyərləndirmə məqamıdır. Bu dövrün ən mühüm əlaməti isə bütün sahələrdə böyük Zəfərin real nəticələrinin aydın görünməsi, xalqımızın bu tarixi qələbə ab-havasında yaşamasıdır. Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi kimi Sizin bu tarixi prosesə münasibətiniz necədir?**

- Fikrimcə, Vətən müharibəsində əldə olunan tarixi Qələbə bəlkə də yeganə hadisədir ki, ona münasibətdə vətəndaşlarımızın vəzifəsindən, siyasi mənsubiyyətindən, milli-dini baxışlarından asılı olmayaraq, fərqli mövqeyi yoxdur. Azərbaycan xalqının tarixi Zəfərin yüksək ruhunu yaşaması, bu qələbənin möhtəşəm təəssüratlarının davam etməsi tam təbiidir və bu ovqat həmişə mövcud olacaqdır.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ikiəsrlik münaqişənin həll olunması, haqqın, ədalətin, nəhayət, qalib gəlməsi əlahiddə tarixi hadisədir və o, ən mühüm dövlətçilik amili, xalqımızın qürur mənbəyi kimi Azərbaycan tarixində gələcəkdə də böyük iftixarla anılacaqdır. Bu baxımdan mən, - yəqin, elə bütün vətəndaşlarımız da, - 2021-ci ili məhz Zəfər dövrünün tərkib hissəsi, davamı kimi qəbul edirik.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli sərkərdəliyi altında Silahlı Qüvvələrimizin və xalqımızın müəllifi olduğu bu qələbə Azərbaycanın müstəqillik illərində artan gücünü, inkişafını bütün dünyaya göstərdi və uğurları davam edən mühüm hadisədir. Həm də ona yalnız tariximizin bir mərhələsinin layiqli yekunu kimi yanaşmamalıyıq, daha parlaq gələcəyi və yeni hədəfləri müəyyənləşdirən proses kimi qəbul etməliyik. Cənab Prezidentin "dəmir yumruğ"u təkcə tarixi ədaləti bərpa etmədi, indi artıq bütün bölgənin yeni inkişaf mərhələsini formalaşdırır. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın, Cənubi Qafqazın etibarlı, möhkəm təhlükəsizlik sistemi yaradılır və ölkəmizin regionun lideri kimi beynəlxalq əhəmiyyəti yüksəlir.

Azərbaycanda yaşayan bütün xalqların təmsilçilərinin iştirak etdiyi Vətən müharibəsi həmçinin Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyasının növbəti təntənəsi oldu. Bir daha sübut olundu ki, ölkəmizdə yaşayan bütün sağlam əqidəli vətəndaşlar, millətindən, dinindən, ictimai baxışlarından asılı olmayaraq, ölkə Prezidentinin ətrafında səfərbər olublar və cənab İlham Əliyevə alternativsiz yeganə inam, etimad, vahid rəmz kimi yanaşırlar. Məhz bu faktorlar dövlətçiliyin gücünü, davamlı tərəqqisini və etibarlı təhlükəsizliyini təmin edən əsas amillərdir.

Ötən dövrün, demək olar ki, hər gününü xalqımız zəfər ovqatında keçirir. Həm Vətən uğrunda şəhid olan igidlərimizi sonsuz ehtiramla, böyük rəhmətlə anırıq, həm də azad olunan ərazilərimizin sürətlə dirçəlməsinə şahid oluruq.

Qarabağın işğaldan qurtulması Ulu Öndərin vəsiyyəti idi və dövlətimizin başçısı Böyük Şəxsiyyətin bütün vəsiyyətləri kimi bunu da layiqincə, şərəflə və böyük məharətlə həyata keçirdi. Tarixi torpaqlarımızın azad edilməsi həm də Prezident kimi fəaliyyətinin əsas hədəflərindən, məqsədlərindən olmuşdu. Dövlət başçısının Qarabağın azadlığına 17 il ərzində necə prioritet vəzifə kimi yanaşdığını əvvəlcə daxili işlər naziri, sonra isə təhlükəsizlik şurasının katibi kimi mən hər iş günü aydın görmüşəm.

Bir məqamı da qeyd edim ki, Ali Baş Komandanın müəllifi olduğu bu Zəfər tariximizin ikinci Xilaskarlıq, Qurtuluş missiyasıdır. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini, müstəqilliyini dağılıb məhv olmaqdan qorudu, ölkəmizə və xalqımıza qurtuluş bəxş etdi. Eynilə Prezident İlham Əliyev də 2020-ci ilin 10 noyabrında Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edib, bu ərazilərə, ümumiyyətlə isə, vətənimizə və millətimizə başucalığı, xilas, qurtuluş bəxş etdi.

**- Sizcə, Zəfərin ötən bir il ərzində ən böyük nəticəsi, xüsusən də milli və regional təhlükəsizlik baxımından nə oldu?**

- Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Qələbə nəticədən daha çox başlanğıcdır. Özü də bu, Azərbaycanla yanaşı, Cənubi Qafqazı, eyni zamanda Avrasiya bölgəsini əhatə edir.

Cənab Prezidentin qeyd etdiyi kimi, 10 noyabr 2020-ci ildən sonra Qafqazda heç nə əvvəlki kimi olmayacaq və artıq deyil də. Ötən bir il ərzində Azərbaycanın və onun rəhbərinin liderliyi ilə region tarixinin yeni səhifəsi açılıb. Beynəlxalq ictimaiyyətdə buna "İlham Əliyevin reallıqları" deyirlər. Tam haqlıdırlar.

Fakt budur ki, indi Cənubi Qafqaz cənab İlham Əliyevin yaratdığı reallıqların müsbət təsiri, düzgün istiqaməti, qarşılıqlı faydalılığı, ən əsası isə möhkəm sülh və təhlükəsizlik şəraiti ilə yeni həyatına başlayır. Nəzərə alaq ki, Cənubi Qafqaz bölgəsi ötən əsrin 80-ci illərindən etibarən qanlı savaş mənbəyinə çevrilmişdi. Kənar qüvvələrin iştirakı ilə başlayan, böyük tələfatlarla, kütləvi insan itkisi, qaçqınlıq və köçkünlük problemləri ilə müşayiət olunan bu müharibələr silsiləsində məhz Azərbaycanın Vətən savaşı dönüş nöqtəsi oldu.

Bölgəmizdə maraqları olan məlum dövlətlərin və beynəlxalq təşkilatların yaratdıqları süni əngəllərlə həlli uzanan münaqişələrdən birinin belə yüksək peşəkarlıqla və qısa müddətdə nizamlanması, şübhəsiz ki, regionda yeni situasiya yaradır. Bu situasiya təhlükəsizlikdən iqtisadiyyatadək, demək olar ki, bütün sahələri əhatə edir.

Müzəffər Ali Baş Komandan tarixi ədaləti və beynəlxalq hüququn onilliklərlə pozulan əsas müddəalarını öz qüdrəti ilə, millətinin və Silahlı Qüvvələrinin gücü ilə bərpa etdi, bu prosesin gedişində görünən və görünməyən kənar müdaxilələri, təsirləri qətiyyətlə neytrallaşdırdı, bacarıqla dəf etdi. Möhtərəm Prezidentimiz sübut və nümayiş etdirdi ki, dövlətinin gücü, xalqının iradəsi və məhz düzgün milli siyasətlə çoxlarına mümkünsüz görünəni mümkün etmək olar. Bu, bölgəmiz üçün də ilk idi və mükəmməl başlanğıc oldu. Qarabağın azadlığı ilə bitən bu prosesin daha geniş miqyasda regional təsiri var, özü də bu təsir çox böyükdür.

Azərbaycan savaşın başlandığı 1990-cı illərdə itirdiyi iki istiqamət üzrə mühüm strateji mövqelərdə mütləq suverenliyini artıq təmin edib. Sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ilkin işlərə başlanılıb, onların yeni reallıqların şərtlərinə uyğun prinsipiallıqla aparılacağına əsla şübhə yoxdur. Prezident İlham Əliyevin qətiyyətli qərarı budur ki, tarixi ərazilərimizdə bir qarış torpaq belə nəzarətimizdən kənarda qala bilməz.

Digər mühüm amil isə uzun onilliklər dünyanın təhlükəli bölgələri sırasında olan Cənubi Qafqazda artıq bir ildir ki, möhkəm və etibarlı təhlükəsizlik sisteminin formalaşdırılması prosesinin başlanmasıdır. Bu da "dəmir yumruğ"un yaratdığı reallıqdır. Təhlükəsizlik sistemi bölgə dövlətləri üçün iqtisadi, sosial, ticarət, nəqliyyat-logistik, siyasi, milli maraqların qorunması və bu kimi digər həyati əhəmiyyət kəsb edən istiqamətləri əks etdirir. Azərbaycan Prezidentinin təşəbbüsü olaraq bölgənin əsas üç dövləti və Cənubi Qafqazın sərhəd qonşularının iştirakı ilə yeni əməkdaşlıq formatının yaradılması üçün aparılan işlər də məhz buna yönəlib.

Dövlət başçısının siyasi iradəsi budur ki, Azərbaycanın bərqərar etdiyi tarixi ədalət Cənubi Qafqazı qarşıdurma, münaqişə ocağından inkişaf və rifah mərkəzinə çevirsin, bölgədə tam yeni iqtisadi-ticarət münasibətləri formalaşsın, regional kommunikasiyalar tədricən qitələrarası logistik qovşaq funksiyası daşısın. Bu və digər tədbirlər nəticə etibarilə region ölkələrinin və xalqların rifahının yüksəlməsinə, ən əsası isə təhlükəsizliyin daha etibarlı və möhkəm təməllərə söykənməsinə böyük töhfə verəcək.

Cənab İlham Əliyev müəllifi olduğu tarixi zəfərlə Qafqazda bərqərar etdiyi təhlükəsizliyin əsaslarını indi regional əməkdaşlıq, tərəqqi və rifahla daha da möhkəmləndirir və onu bütün bölgənin nailiyyəti kimi təsbit edir. Möhtərəm Prezidentin bütün qərar və addımları milli maraqları ehtiva etməklə yanaşı, regional mənafeləri də əks etdirir.

Bugünkü dövlətimiz tarixin ən qüdrətli Azərbaycanıdır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasətin bu möhtəşəm nəticəsini reallaşdıran isə, əlbəttə ki, möhtərəm Prezidentdir, onun uğurlu fəaliyyətidir.

Cənubi Qafqazda gedən inkişaf prosesinə bölgənin daxilindən və kənardan müəyyən hallarda maneələr, təxribatlar törədilməyə cəhd edilir. Bunların bəzilərindən ictimaiyyətimiz məlumatlıdır. Ancaq bütün bu cəhdlər əbəsdir. Dövlət başçısının mahir diplomatik məharəti, qətiyyətli siyasəti nəticəsində hər bir təxribat, mənfi təsir təşəbbüsü dərhal zərərsizləşdirilir. İndi heç kəs, heç bir qüvvə Azərbaycanla hədə tonunda danışa bilmir.

Cənab Prezidentin azad edilmiş ərazilərdə verdiyi bəyanatlar, mesajlar Azərbaycan dövlətinin Qarabağ bölgəsi, Qafqaz regionu ilə bağlı strateji baxışlarını, niyyətlərini tam və geniş ifadə edir. Dövlət başçısının bəyanatları bütün dünyaya səsləniş, məğlub Ermənistana isə aydın, konkret çağırışdır. Hər kəs bir daha anlayır ki, Qarabağda tarixi ədaləti hərbi gücüylə təmin edən cənab Prezident İlham Əliyev indi bölgədə mədəniyyət, quruculuq, inkişaf gücünü tətbiq edir, möhkəm və etibarlı təhlükəsizlik mühiti yaradır.

**- Ramil müəllim, bu reallığa, yeni başlanğıca Ermənistanın qoşulması ləng gedir...**

- Ermənistan dövləti, cəmiyyəti savaşın acı nəticələrindən, sarsıdıcı məğlubiyyətdən sonra hələ də özünə gələ bilməyib. Onilliklər boyu yalançı, saxta "ideyalara" əsaslanıb, işğalçı siyasət yürütməyin aqibətini erməni xalqı, lobbisi, hakimiyyəti aydın gördü. Onların "qalib" durumda olduqları dövrlər belə tam tənəzzül illəri idi. Ən əsası isə son 25 il ərzində Cənubi Qafqazda Azərbaycanın liderliyi ilə formalaşan yeni iqtisadi-ticarət-logistika əməkdaşlığı formatından bu dövlət kənar qalmış, tam təcrid vəziyyətinə düşmüşdür.

Erməni xalqının əksəriyyəti düçar olduğu ağır vəziyyətin, yaşadığı acınacaqlı durumun səbəbinin məhz işğalçılıq siyasəti olduğunu anlayır və Sarkisyan-Koçaryan cütlüyünün keçmiş hərbi xuntasını günahkar kimi qəbul edir. Bu dövlətdə keçirilən son parlament seçkilərinin nəticələri də erməni xalqının mövqeyini göstərdi. "Müharibə partiyası"na etimad göstərməyən ermənilər seçkilərə 10 noyabr Bəyannaməsinin öhdəliklərini, yəni təslimçilik aktının müddəalarını yerinə yetirəcəyi vədi ilə qatılan iqtidar partiyasına mandat verdi, Azərbaycanla müharibəyə yox, Azərbaycanla əməkdaşlığa səs verdi. Bu seçim Ermənistan rəhbərliyinə nəticə çıxarmaq üçün şərait yaradır. Həm də bizə və beynəlxalq birliyə bu ölkənin daxili auditoriyasının münasibətini öyrənməyə imkan verir. Digər hay-küylər, avantürist, revanşist bəyanatlar erməni xalqının həlledici hissəsinin mövqeyini əks etdirmir və sadəcə, məğlubların ucuz demoqogiyasıdır.

**- Sizcə, bu istiqamətdə danışıqların perspektivi necə olacaq?**

- Bu barədə indi konkret nə isə söyləmək mümkün deyil. Ancaq danışıqların uğursuzluğuna artıq heç kəs inanmır. Sadəcə, zaman məsələsidir. Çünki maneə yaradacaq tərəf - Ermənistan öz xalqının maraqlarını və mövqeyini nəzərə almasa, onu nəyin gözlədiyini bilir.

Əlbəttə ki, biz N.Paşinyanın hakimiyyətə gələrkən sülh danışıqlarına hazır olmasını bəyan etməsinə, sonradan isə fikrindən vaz keçib "yeni ərazilər uğrunda yeni müharibə" cəfəng fikrini ortaya atıb, Şuşada yallı getməsinə, Qarabağın Ermənistana məxsusluğu barədə populist və yalnız acı gülüş doğuran hərəkətlərinə şahidik. Ancaq N.Paşinyanın timsalında Ermənistan dövləti və xalqı Müzəffər Ali Baş Komandanımızın "dəmir yumruğ"unu gördü, nəticəsini öz taleyində yaşadı.

Hələ ötən ilin sentyabrınadək Ermənistan özünü "güclü ordusu, yüksək döyüş bacarığı" olan ölkə sayırdı. Ancaq 44 gün içində bütün hərbi arsenalını və şəxsi heyətininin xeyli hissəsini itirdikdən sonra, indi nəinki müharibəyə, ciddi bir müqavimətə belə qadir olmadığı dövrdə bu dövlətin hansısa riskə getməsi az ehtimal olunandır.

Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin 10 noyabr 2020-ci il Bəyanatı, həmçinin bu ilin yanvarında Moskvada, noyabrda Soçidə, daha sonra bu günlərdə Brüsseldə qəbul edilən sənədlər, orada əks olunan müddəalar artıq tam həll olunmuş, bitmiş münaqişənin sonrakı mərhələsi üçün yeganə "yol xəritəsi"dir. Tərəflər öhdəliklərinə əməl etməlidirlər, necə ki, Azərbaycan bunu həyata keçirir. Moskvada hökumət təmsilçiləri arasında aparılan üçtərəfli danışıqlar da bu prosesi, əsasən, tənzimləyir. Elə son Soçi və Brüssel görüşləri də sübut etdi ki, Prezident İlham Əliyevin hərbi zəfəri diplomatik cəbhədə uğurla davam edir və maneələrə, təxribatlara baxmayaraq, Azərbaycanın yeni reallıqları ilə xarici ölkələr, beynəlxalq təşkilatlar birmənalı hesablaşırlar.

Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, Qarabağda əvvəllər yaşayan erməni sakinləri üçün də hər cür imkan yaradılacaq, onların sosial şəraiti, məşğulluğu təmin olunacaq, təhlükəsizliklərinə təminat veriləcək. Cənab İlham Əliyevin sözünün imzası qədər dəqiq və dürüst olduğunu erməni xalqı yaxşı bilir, ən azı öz gerçək tarixlərində buna dəfələrlə şahid olublar.

**- İşğaldan azad olunmuş ərazilərin sürətlə dirçəldilməsindən bəhs etdiniz. Bu proses necə gedir?**

- Azad olunan bölgələrin yenidən dirçəlişi, inkişaf salnaməsi məhz Prezident İlham Əliyev tərəfindən yazılır. Zəfər Komandanı indi Qurucu Lider kimi Qarabağı və Şərqi Zəngəzuru Qafqazın ən böyük tikinti meydanına, güclü inkişaf ünvanına, möhkəm təhlükəsizlik məkanına çevirir.

Bu tikinti-quruculuq prosesinin miqyası, dinamikası Azərbaycan dövlətinin gücünü, ən əsası isə Prezident İlham Əliyevin 18 illik fəaliyyət dövrünün nə qədər uğurlu olduğunu göstərir. Təsəvvürünüzə gətirin, Azərbaycan ağır müharibədən çıxıb. Bu savaşın hər günü dövlət büdcəmizə böyük məbləğdə vəsait hesabına başa gəlib. Ölkəmizin ötənilki hərbi xərcləri milyardlarla manat həcmində olub, bunu hər kəs bilir.

Postsavaş dövründə isə yenə də iki istiqamət üzrə bu işlər intensiv surətdə davam etdirilir. Həm Silahlı Qüvvələrimizin arsenalı daha müasir səviyyədə və çox böyük həcmdə yenilənir, azad olunmuş ərazilərdə, sərhəddə çoxsaylı müvafiq hərbi, müdafiə xarakterli infrastrukturlar yaradılır. Məlum olduğu kimi, indi müdafiə xərcləri əvvəlki illərlə müqayisədə daha da artırılıb. Digər istiqamət isə quruculuq, tikinti məsələləridir ki, onlar da uğurla aparılır.

Dediyim odur ki, müharibədən çıxmış bir ölkə savaşın fəsadlarını aradan qaldırmaq üçün yenə də milyardlarla vəsait xərcləyir. Dünya Azərbaycanın iqtisadi cəhətdən necə güclü dövlət olduğunu elə bu faktlarla görür və bütün bunlar həyata keçirilən siyasətin düzgünlüyünü, islahatların səmərəliliyini göstərir. Aparılan nəhəng quruculuq prosesi Prezident İlham Əliyevin sərkərdəlik qüdrətini, liderlik bacarığını, müdrik idarəçiliyini bir daha təsdiqləyir.

Prezident Qarabağa və Şərqi Zəngəzura bəzən bir ay ərzində bir neçə dəfə səfər edib. Qafqazda ilk "ağıllı kənd", "ağıllı şəhər" konsepti məhz işğaldan azad edilmiş ərazilərdə salınır. On aya beynəlxalq hava limanı tikilib, əlavə daha ikisinin də tikintisi sürətlə davam edir.

Xalqımız ötən illər ərzində işğal olunmuş torpaqlarımızın düşməndən azad ediləcəyinə ümidini itirmədi. Bu, onun öz Ümummilli Liderinin uzaqgörən, müdrik siyasətinə, dahi şəxsiyyətinə, onun layiqli davamçısı, qüdrətli rəhbərimiz cənab İlham Əliyevin qətiyyətinə, əzminə, polad iradəsinə, yüksək idarəçilik qabiliyyətinə və yorulmaz fəaliyyətinə inamdan qaynaqlanır. Bu ruh indi tariximizə, irsimizə, milli-mənəvi dəyərlərimizə layiq şəkildə dirçəldilir.

Qarabağ həm də ötən əsrin 70-80-ci illərində onu yenidən quran, inkişaf etdirən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ehtiramla ucaldılır. Hörmətli Mehriban xanım Əliyevanın böyük fədakarlıqları ilə Ağdamdan Kəlbəcərə, Füzulidən Şuşaya, Tuğdan Azıxa qədər bütün məkanlarda onlarca tarixi, mədəniyyət və mənəviyyat abidələrimiz bərpa olunur, yenidən həyata qaytarılır. Bu baxımdan Prezident İlham Əliyevlə yanaşı, hörmətli Mehriban xanım Əliyevanı da haqlı olaraq Qarabağın və Şərqi Zəngəzurun baş memarları adlandırmaq olar.

Qarabağ və Şərqi Zəngəzur artıq azaddır. Onlar üçün ciddi təhlükə yoxdur. Ancaq bu bölgə elə bir həssaslığa malikdir ki, burada tikilən, qurulan dövlət, sosial, mədəniyyət, iaşə və digər infrastrukturlar həm də təhlükəsizlik sisteminin vacib təməlləridir. Hər bir tikili, hər bir quruculuq işi Azərbaycanın etibarlı təhlükəsizlik tələblərinin normalarına tam cavab verir.

**- Ramil müəllim, yeri gəlmişkən, sizin Türkiyəyə rəsmi səfəriniz oldu. Bu səfər kontekstində iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığın nəticələrini necə dəyərləndirərdiniz? Həmçinin Moskvada iştirak etdiyiniz MDB üzvü olan ölkələrin təhlükəsizlik şuralarının katiblərinin IX görüşü hansı məqamlarla diqqəti cəlb etdi?**

- Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının baş katibi Seyfullah Hacımüftüoğlunun dəvəti ilə baş tutan səfərin məqsədi Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı maraq doğuran aktual məsələlərin müzakirəsi idi. Azərbaycan Prezidentinin tapşırığı ilə mən dövlətlərarası və regional təhlükəsizlik məsələlərinin ən aktual gündəm mövzularını həmkarımla müzakirə etdim.

Səfər müddətində Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimiz arasındakı əməkdaşlıq münasibətlərində yeni səhifənin açıldığı, sənədin müddəalarından irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində vəziyyət və perspektivlər barədə geniş müzakirələr aparıldı. Bütün görüşlərdə dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, hüquqi və təhlükəsizlik sahələrində əlaqələrin ən yüksək səviyyədə olduğu, regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyi vurğulandı. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qardaşlıq, dostluq münasibətlərinin hər iki dövlət arasında əməkdaşlığa böyük töhfələr verdiyi ortaq qənaətimiz idi.

Moskvada MDB üzvü olan ölkələrin təhlükəsizlik şuralarının katiblərinin IX görüşünün əsas müzakirə mövzuları isə bölgə üçün yaranan yeni təhdidlər, miqrasiya sahəsində əməkdaşlıq, humanitar münasibətlər, informasiya-kommunikasiya texnologiyalarından cinayətkar məqsədlərlə istifadə edilməsinə qarşı mübarizə və digər məsələlər idi. MDB ölkələri üzrə həmkarlarımla keçirdiyim görüşlərdə, apardığım danışıqlarda milli, regional və beynəlxalq təhlükəsizlik məsələlərinə Azərbaycan Respublikasının münasibətini, baxışını çatdırdım. Həmçinin qlobal və bölgə üçün yaranan təhdidlərə qarşı dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən mübarizə tədbirləri barədə danışdım.

Əlbəttə, bütün müzakirələrin əsas mövzusu Azərbaycanın Vətən savaşında qazandığı tarixi zəfərdən sonra ölkəmizdə və Qafqazda yeni reallıqlar fonunda formalaşan müasir təhlükəsizlik sistemi barədə idi. Azərbaycan dövlətinin, şəxsən möhtərəm Prezidentimizin bu məsələlərlə bağlı həyata keçirdiyi taktiki tədbirlər, müəyyənləşdirdiyi strateji məqsədlər haqda məlumatları həmkarlarımın nəzərinə çatdırdım. Respublikamızın uzun onilliklərdir ki, beynəlxalq terrorizmə qarşı mübarizəyə verdiyi böyük töhfələrdən və çoxsaylı xarici ölkələrdə sülhyaratma missiyasında öz heyəti ilə fəal iştirak etməsindən onların xəbəri var. Bu faktların timsalında Azərbaycan Respublikasının 10 noyabrdan sonra tarixi ədaləti bərpa etməklə yanaşı, həm də beynəlxalq terrorizmin elementi kimi çıxış edən etnik separatizm və ərazi bütövlüyünə təhlükə meyillərini də zərərsizləşdirdiyini, eyni zamanda Qafqazda möhkəm və etibarlı sülhün bərqərarına böyük səylə çalışdığımızı xüsusi vurğuladım.

Qafqaz bölgəsində maraqları olan, regionda hansısa layihə icra etməyə çalışan dövlətləri, ayrı-ayrı şirkətləri, beynəlxalq təsisatları Azərbaycanla, onun lideri ilə, yeni reallıqlarla hesablaşmağa təşviq edən bir amil də var: Azərbaycan qüdrətli, sabit, təhlükəsiz ölkə olmaqla yanaşı, həm də güclü həmrəyliyə, möhkəm dövlət-xalq birliyinə malik respublika kimi qəbul olunur.

Azərbaycan məhz cənab İlham Əliyevin liderliyində Heydər Əliyev yolu ilə addımlayaraq böyük Qələbəyə çatdı. Xalqımız tarixi Zəfərdən sonra birmənalı şəkildə bu liderliyə, bu kursa alternativ görmür və öz rəhbərinin ətrafında konkret hədəflər naminə indi daha sıx səfərbər olub.

Vətən savaşını Silahlı Qüvvələrimizin Zəfəri ilə yekunlaşdıran Müzəffər Ali Baş Komandana hər bir qədirbilən vətəndaşımız əbədi minnətdardır. Cənab Prezident yalnız Ulu Öndərin vəsiyyətini yox, bütün xalqımızın müqəddəs arzusunu həyata keçirdi. Hər bir azərbaycanlı ən böyük dayağına, xeyirxahına, xilaskarına əbədi minnətdardır və sadiqdir. Başqa cür ola da bilməz!

Prezident İlham Əliyev Azərbaycanın ən böyük Zəfərinin və ən qüdrətli dövrünün müəllifidir. Günümüzün reallığı, həqiqəti də budur - qətiyyətli İlham Əliyev, qüdrətli Azərbaycan, azad Qarabağ və möhkəm "dəmir yumruq!"

Xalqımız qarşısında əsrlərboyu ən vacib məqsəd kimi müəyyənləşən taleyüklü vəzifələri, zati-alilərinin özünün dediyi kimi, nəyi necə, nə zaman edəcəyini dəqiq bilən Müzəffər Komandanımız elə peşəkarlıqla, qətiyyətlə, yüksək vətənpərvərliklə həll edib ki, tarix onu Azərbaycan var olduqca yaşadacaq, qüdrətli liderliyin mükəmməl örnəyi, əsl vətəndaşlığın kamil nümunəsi kimi tərənnüm edəcək.

Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycan tarixinin ən şanlı səhifələrini təşkil edən 60 illik müdrik, mənalı, şərəfli ömrünün sadə həqiqəti də, məncə, məhz budur...

***Müsahibəni apardı:***
***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Neft kapitalını insan kapitalına çevirən lider



### Bakı Ali Neft Məktəbinin yaradılmasının 10 ili tamam olur

**Düz 10 il əvvəl Azərbaycan təhsil məkanında yeni, tam fərqli və müasir tələblərə cavab verən bir ali məktəbin təməli qoyuldu. Bu ali təhsil ocağı inkişaf etdi, böyüdü, ölkənin iqtisadiyyatı və sənayesinə peşəkar, ingilisdilli, beynəlxalq səviyyəli mütəxəssislər bəxş etdi. Artıq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Fərmanı ilə yaradılmış Bakı Ali Neft Məktəbinin (BANM) 10 illik yubileyidir. Dövlət ali təhsil müəssisəsi statusunda SOCAR-ın strukturunda yaradılan Bakı Ali Neft Məktəbi bu 10 ildə böyük nailiyyətlərə imza atıb. Ötən 10 il ərzində BANM ölkənin ən nüfuzlu ali təhsil müəssisəsinə çevrilib, böyük etibar qazanaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin etimadını doğruldub, vəzifəsinin öhdəsindən layiqincə gəlməyi bacarıb.**

Bakı Ali Neft Məktəbi 10 il əvvəl zamanın tələbi ilə yaradılmışdı. Azərbaycanda müasir tədris proqramları və təlim texnologiyaları əsasında ingilisdilli, yüksəkixtisaslı mühəndis kadrlar yetişdirən müəssisəyə ciddi ehtiyac var idi. Bu müəssisə fəaliyyətini genişləndirərək qlobal şirkətə çevrilən SOCAR-ın, həmçinin ölkənin digər sənaye müəssisələrinin peşəkar ingilisdilli mühəndis kadr ehtiyaclarını ödəməli idi. Sevindirici haldır ki, Bakı Ali Neft Məktəbi 10 il ərzində yaranma məqsədlərinə yüksək səviyyədə nail ola bilib. Bu gün ali məktəbin məzunları SOCAR-ın və ölkənin müxtəlif sənaye müəssisələrində, eyni zamanda transmilli şirkətlərdə çalışaraq iqtisadiyyatın, sənayenin inkişafına töhfələr verir, dünyanın nüfuzlu ali məktəbləri və nəhəng şirkətlərində Azərbaycanı layiqincə təmsil edirlər.

Bakı Ali Neft Məktəbi müasir tələblərə cavab verən təhsil infrastrukturu, tədris prosesinə yüksəkixtisaslı professor-müəllim heyətinin cəlb olunması, zəngin kitabxana-informasiya fondu, çoxfunksiyalı laboratoriyaları ilə fərqlənir. Bakı Ali Neft Məktəbinin kampusu Qafqaz regionunun zəngin maddi-texniki bazaya malik ən böyük kampuslarından biridir. Ali Məktəbimizin kampusunda SOCAR, ABB, "Avandsis Group", "Emerson ProcessManagement", "Huawei" kimi nüfuzlu şirkətlərin dəstəyi ilə yaradılan laboratoriyalar, müasir standartlara cavab verən tələbə şəhərciyi, yeməkxana kompleksi, iki idman zalı və hovuz fəaliyyət göstərir. Bu kampusun açılışı 2017-ci il may ayının 1-də möhtərəm Prezident İlham Əliyev tərəfindən həyata keçirilib. Dövlət başçısı yeni kampusun açılışındakı çıxışında demişdir: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bakı Ali Neft Məktəbinin şəhərciyinin açılışını qeyd edirik. Bu şəhərcik ən yüksək standartlara cavab verir. Bakı Ali Neft Məktəbi artıq 6 ildir ki, fəaliyyət göstərir. Bu fəaliyyət çox uğurludur. Bu illər ərzində ali məktəb Azərbaycanın təhsil məkanında artıq öz layiqli yerini tuta bilibdir. Bu gün ali məktəb yeni şəhərciyə, yeni binaya köçür. Burada oxumaq, biliklərə yiyələnmək üçün bütün şərait yaradılıb, ən müasir texnologiyalar tətbiq olunur. Bütün binalar çox gözəl, zövqlə tikilib, burada ən müasir laboratoriyalar fəaliyyət göstərir və bu gün mənə təqdimat da edildi. Burada təhsilin səviyyəsi ən yüksək standartlara cavab verəcək".

Böyük qürur və fəxarətlə bildiririk ki, Bakı Ali Neft Məktəbi ən müasir texnologiyalar və peşəkar pedaqoji heyətlə təmin olunmuş innovativ təhsil müəssisəsi kimi inkişaf edib, yüksək nüfuz qazanıb. İlk gündən Azərbaycan ali təhsil müəssisələrinin reytinq cədvəlində öz liderliyini saxlayan, orta bal üzrə respublika birincisi olan, ilk qəbul aparılan ildən Dövlət İmtahan Mərkəzinin (DİM) qəbul imtahanının nəticələrinə görə tərtib etdiyi reytinq cədvəlində 51 ali təhsil müəssisəsi arasında lider kimi tarixə düşən BANM 10 il ərzində ixtisaslarının sayını artırıb. 2012/2013-cü tədris ilində iki ixtisas - Neft-qaz mühəndisliyi və Kimya mühəndisliyi üzrə tələbə qəbulu həyata keçirən Bakı Ali Neft Məktəbi hazırda ixtisaslarla yanaşı, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi və Biznesin idarə edilməsi ixtisasları üzrə bakalavr, Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi və Biznesin idarə edilməsi (MBA) ixtisaslarında magistr pilləsi üzrə qəbul həyata keçirir. Ali məktəbimizdə doktorantura (PhD) pilləsi, həmçinin Neft-qaz mühəndisliyi ixtisası üzrə təkrar ali təhsil almaq istəyənlər üçün də tədris aparılır. 2021/2022-ci tədris ili üçün ali məktəbimiz ilk dəfə II ixtisas qrupu üzrə də tələbə qəbulu keçirdi və böyük qürur hissi ilə vurğulayıram ki, bu ixtisas üzrə qəbul olunanların 11 nəfəri Prezident təqaüdünə layiq görüldü. Bu, Bakı Ali Neft Məktəbinin qazandığı nüfuzun, əldə etdiyi etibarın daha bir sübutudur.

Bakı Ali Neft Məktəbi beynəlxalq səviyyəli tədris proqramı, yeni yaradıcı mühit və təhsilin yüksək keyfiyyəti, yerli və xarici şirkətlərlə əməkdaşlıq, peşəkar mütəxəssislər tərəfindən təlim və müzakirələrin təşkili və bu kimi digər nailiyyətləri ilə ölkə gənclərinin rəğbətini qazanıb. Bu rəğbətin nəticəsidir ki, ölkənin ən savadlı, intellektli, bacarıqlı gəncləri bu ali məktəbi seçirlər. Ali məktəbimizdə təhsil alan Prezident təqaüdçülərinin sayı ilbəil artır. Əgər 10 il öncə BANM-ə ilk qəbul həyata keçirilərkən Prezident təqaüdünə layiq görülən tələbələrimizin sayı 11 nəfər idisə, 2021/2022-ci tədris ilində Prezident təqaüdçülərimizin sayı 33 nəfərə yüksəlib. Onu da qeyd edim ki, ölkə üzrə Prezident təqaüdünə layiq görülən tələbələrin ümumi sayı 102 nəfər olub. Ölkə üzrə 102 Prezident təqaüdçüsündən üçdəbirinin bir ali təhsil müəssisəsinin tələbəsi olması Azərbaycanın təhsil tarixində ilkdir. Bununla BANM rekorda imza atıb. Bu il də qəbul imtahanlarında ölkə üzrə ən yüksək bal toplamış tələbə BANM-i seçib. İlk dəfə qəbul apardığımız II ixtisas qrupu üzrə ən yüksək bal toplamış abituriyentin seçimi də Bakı Ali Neft Məktəbi olub. Hazırda ali məktəbimizin Prezident təqaüdçülərinin sayı 205 nəfərə çatıb. Bütün bunlar cəmi 10 illik tarixə malik ali təhsil müəssisəsi üçün böyük uğurdur.

Bakı Ali Neft Məktəbinə ortalama qəbul balı 650 və ondan yuxarıdır ki, bu da Azərbaycanda ən yüksək göstəricidir. Ali məktəbimiz 700 bal toplamış tələbələrin sayına görə də fərqlənir. İndiyədək 700 bal toplamış 27 tələbənin seçimi Bakı Ali Neft Məktəbi olub.

BANM-in sənaye sahələri ilə sıx əlaqələri mövcuddur. Bakı Ali Neft Məktəbi həm milli, həm də beynəlxalq miqyasda işçi qüvvəsinin inkişafında əhəmiyyətli təcrübəyə malikdir. Ali məktəbimizdə tədris prosesi istehsalatla sıx əlaqədə həyata keçirilir.Tədris proqramlarının, nəzəri predmetlərin daha dərindən mənimsənilməsi məqsədilə tələbələr SOCAR-ın müvafiq profilli istehsalat müəssisələrində, eləcə də bp, "Equinor", "Total, Schlumberger", ABB, "Halliburton", "Atenau" Ltd, "Schneider Electric", "Microsoft", "Baker Hughes", "Emerson Process Management", "Avandsis Group", "Maire Tecnimont", "Nəzarət Ölçü Cihazları və Avtomatika" MMC, SOCAR-ın Türkiyədəki "Petkim" Neft-Kimya Kompleksi və STAR Neft Emalı Zavodu kimi qurumlarda yay və istehsalat təcrübəsi keçir, hesabatlar hazırlayır və müdafiə edirlər. Bu amil tələbələrin sənayenin qabaqcıl mütəxəssisləri ilə effektiv münasibət qurmasına, beynəlxalq standartlara uyğun kadrlar kimi yetişməsinə, işlə təminatına və uğurlu karyeranın əsasını qoymağa böyük imkanlar yaradır.

Bakı Ali Neft Məktəbi cənab Prezidentin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" devizinin bariz nümunəsidir və bu devizə uyğun olaraq tələbələrə yüksək keyfiyyətli təhsil verilməklə yanaşı, onların işlə təminatına da xüsusi əhəmiyyət verilir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2017-ci ildə bu ali məktəbdə ilk məzun buraxılışı keçirilən vaxtdan bu günədək bütün məzunlar işlə təmin olunublar. BANM bu xüsusiyyətinə görə də ölkə ali məktəbləri arasında fərqlənir. Ali məktəbimiz artıq 5-ci məzun buraxılışı keçirib. Bu gün ali məktəbimizin məzunları SOCAR və onun "Azneft" İB, "Azərikimya" İB, Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ), "SOCAR Ümid" və "SOCAR Polymer" şirkətləri, eləcə də "SOCAR Türkiyə"nin "Petkim" Neft-Kimya Kompleksi və STARNeft Emalı Zavodunda çalışırlar. BANM-in məzunları təkcə SOCAR-da deyil, BP, "Schlumberger", "Halliburton", "Maire Tecnimont" və s. kimi iri transmilli şirkətlərdə də işə cəlb olunublar. Ötən 10 il ərzində Bakı Ali Neft Məktəbinin beynəlxalq standartlara cavab verən kadr hazırlığı, peşəkarlıq səviyyəsinin yüksək olmasının nəticəsidir ki, bir çox tələbəmiz məzun olmadan iş təklifi alır. Bu isə ali məktəbin "Biz iş axtarmırıq, iş bizi axtarır" şüarını təsdiq edir. Hazırda əmək fəaliyyətinə başlamayan məzunlarımız isə Azərbaycanın, eləcə də dünyanın nüfuzlu universitetlərində magistratura və doktorantura pilləsində təhsillərini davam etdirirlər.

Bakı Ali Neft Məktəbi Azərbaycanın tam ingilisdilli yeganə texniki ali məktəbidir. Bakı Ali Neft Məktəbi ilk vaxtlardan beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verib. Ali məktəbimiz ilk illərdən Böyük Britaniyanın "Heriot-Vatt" Universiteti ilə əməkdaşlığa başlayıb. 2012-ci il may ayının 26-da "Heriot-Vatt" Universiteti ilə birgə mütəxəssis hazırlığının təşkilinin əsas prinsiplərini özündə əks etdirən müqavilə, 2013-cü il yanvar ayının 31-də 2013-2017-ci illər ərzində iki ixtisas üzrə ikili diplom layihəsi çərçivəsində mütəxəssis hazırlığı üçün əməkdaşlıq haqqında razılaşma imzalanıb və uğurlu əməkdaşlığın əsası qoyulub. BANM beynəlxalq əməkdaşlığını artırmaqda davam edir, dünyanın bir çox nüfuzlu universitetləri ilə əməkdaşlıq edir, həmin universitetlərlə tələbə və müəllim mübadilə proqramlarını həyata keçirir. Birləşmiş Krallıq, Bolqarıstan, İsveçrə, Türkiyə, Estoniya, Polşa, Koreya, ABŞ, Norveç, Slovakiya, Fransa, Rusiya, Yunanıstan, İtaliya, Almaniya və bir çox başqa ölkələrin 50-dən artıq universitetləri ilə mütəxəssis hazırlığında əməkdaşlıq haqqında müqavilələr imzalanıb. BANM Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN), Avrasiya Universitetləri Birliyi (EURAS) və Dünya Neft Universitetləri Şəbəkəsinin (WEUN) üzvüdür. Son illər ərzində Ali Məktəb "Erasmus+" layihəsi çərçivəsində tələbələrini Yunanıstan, Bolqarıstan, İspaniya, Almaniya kimi ölkələrə təhsil almağa göndərib, həmçinin Rumıniyadan tələbələr qəbul edib.

2016-cı ildən BANM, bp və onun tərəfdaşlarının birgə əməkdaşlığı, həmçinin Böyük Britaniyanın "TwentyEighty Strategy Exercution" (STRATEX) şirkəti ilə birgə həyata keçirilən, ABŞ-ın Corc Vaşinqton Magistr sertifikatı ilə təmin edən təlim proqramı - Layihələrin İdarəedilməsi Məktəbi BANM və STRATEX şirkətinin birgə əməkdaşlığı ilə uğurla davam edir. 2021-ci ildə BANM Böyük Britaniyanın "TwentyEighty Strategy Execution" (STRATEX) şirkəti və Dyuk Universiteti ilə birgə Layihələrin İdarəedilməsi Məktəbinin yeni mərhələsinə başlanılıb.

BANM Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri içərisində ISO 9001 (Keyfiyyət idarəetmə sistemi), ISO 14001 (Ekologiya idarəetmə sistemləri), OHSAS 18001 (Əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemləri) və ISO 10002 (Müştəri məmnuniyyəti - şikayətlərin idarə edilməsi üzrə rəhbər göstərişlər) sertifikatlarını almış yeganə ali təhsil müəssisəsidir.

Bakı Ali Neft Məktəbi ötən müddət ərzində həm də ən müasir tələblərə cavab verən infrastruktur yarada, idarəetmə və pedaqoji heyəti formalaşdıra bilib, professor-müəllim heyətinin tədrisdə, tələbələrin isə təhsildə motivasiyalarını yüksəltmək üçün silsilə həvəsləndirici və səfərbəredici tədbirlər həyata keçirib.

Bakı Ali Neft Məktəbi yüksəkixtisaslı ingilisdilli kadrlar yetişdirməklə yanaşı, layiqli vətəndaş hazırlamaq missiyasını da şərəflə, qürurla yerinə yetirir. Ali məktəbimiz hədəf və məqsədlərinə uyğun olaraq elm və təhsilin istehsalatla inteqrasiyasının təmin edilməsi, tələbələrin yaradıcılıq imkanlarının genişləndirilməsi, sosiallaşması, intellektual səviyyəsinin yüksəldilməsi, xüsusi istedadlıların müəyyən edilməsi, bilik və bacarıqlarının effektli reallaşdırılmasına təkan verməklə yanaşı, tələbə gənclərdə ölkəmizin qloballaşan dünyaya inteqrasiyası kontekstində milli-mənəvi dəyərlərin qorunması, dövlətçilik ideologiyasının təbliği, vətənpərvərlik hisslərinin gücləndirilməsi istiqamətində də fəal iş aparır. Ölkəmizin intellektual əsgərləri olaraq onlar Azərbaycanı dünyanın müxtəlif ölkələrində, beynəlxalq yarışlarda layiqincə təmsil edirlər. BANM tələbələri NASA-nın 2022-ci ildə keçirəcəyi "Human Exploration Rover Challenge" müsabiqəsində dünyanın müxtəlif orta və ali məktəblərindən 91 komanda arasında Azərbaycanı tarixində ilk dəfə olaraq təmsil etmək imkanı qazanıblar. BANM-in İnformasiya təhlükəsizliyi ixtisasında təhsil alan Hüseyn Qəmbərov "WorldSkills Asia" tərəfindən təşkil edilmiş beynəlxalq yarışda Azərbaycanı kibertəhlükəsizlik sahəsi üzrə təmsil edərək böyük uğura imza atıb. O, Azərbaycanın ilk dəfə qatıldığı bu nüfuzlu yarışda 26 ölkədən 122 nümayəndə arasında ümumi reytinqdə 707 bal ilə 4-cü yeri qazanaraq Azərbaycanın adını Cənubi Koreya və Rusiyadan sonra 3-cü yerə yüksəldib "Məlumat sızmasının qarşısının alınması" kateqoriyası üzrə ən yüksək nəticə göstərib. Bütün bunlar həm ali məktəbimiz, həm də ölkəmiz adına böyük qürurdur.

10 yaşını tamamlayan BANM ən yüksək nüfuzlu ali təhsil müəssisəsinə çevrilə bilib və Azərbaycanda peşəkar mühəndis kadrlarının hazırlanmasında liderdir. Ali məktəbimiz əmək bazarında hər zaman tələb olunan ixtisaslarda tədris aparmaqla, yüksək peşəkarlığa malik kadr hazırlamaqla işəgötürənlərin ehtiyaclarını uğurla qarşılayır. İrəlidəki hədəflərimiz, məqsədlərimiz də böyükdür. Hədəflərimizdən biri də dünya reytinqinə daxil olmaq və ilk sıralarda yer almaqdır. Bu yolda irəliləyərkən bundan sonra da beynəlxalq səviyyəli, yüksək peşəkarlığa malik kadr hazırlamaq istiqamətində fəaliyyətimizi böyük səylə davam etdirəcək, ölkəmizə, xalqımıza faydalı intellektual əsgərlər yetişdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Elmar QASIMOV,**
**Bakı Ali Neft Məktəbinin rektoru,**
**Yeni Azərbaycan Partiyasının**
**İdarə Heyətinin üzvü**






PREZİDENT TƏQAÜDÇÜLƏRİNİN ALİ MƏKTƏBLƏR ÜZRƏ BÖLGÜSÜ (2021-Cİ İL)

| | |
|---|---|
| 1. Bakı Ali Neft Məktəbi | 33 |
| 2. Azərbaycan Tibb Universiteti | 25 |
| 3. Bakı Dövlət Universiteti | 15 |
| 4. ADA Universiteti | 12 |
| 5. Azərbaycan Dövlət İqtisad Universiteti | 8 |
| 6. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 4 |
| 7. Azərbaycan-Fransız Universiteti - UFAZ | 2 |
| 8. Xüsusi təyinatlı ali məktəblər | 2 |
| 9. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | 1 |






## Nə qürurluymuş qalib olmaq

**Sonuncu qərinənin əvvəlindəki və sonundakı iki Azərbaycan bir-birindən elə fərqlənir ki, onları müqayisə etmək həm mümkün deyil, həm də yersiz görünür. Lakin bu müqayisə bizə imkan verir ki, Prezident İlham Əliyevin dövlət başçısı, Ali Baş Komandan və sərkərdə kimi 30 il əvvəlki rəhbərlərdən nə ilə fərqləndiyini və hansı üstünlüklərə malik olduğunu, yeni tarix yazmaq gücünü bir daha dərk edək.**

Yeni ili qarşılamağımıza sayılı günlər qalır. Bir qədər öncə isə möhtəşəm qələbəmizin birinci ildönümünü fəxarətlə qeyd etdik. Amma tarixi 30 il geri vərəqləsək, aramsız faciələrin məngənəsində boğulan acı keçmişimizlə üzləşəcəyik. Biz onda kim idik və indi hansı yüksək dəyərlərin sahibiyik?! Bir igidin ömründən də artıq olan bu zaman kəsiyinin əvvəlində və sonunda baş verənləri müqayisə etmək, faktlara və hadisələrə zamanın ucalığından nəzər salmaq vacibdir. Bu gün qədərindən artıq qütbləşən və siyasiləşən dünyada bir dövlət kimi yerimizi və mövqeyimizi təyin etməli, hansı məğlubiyyətlərin uçurumlarından hansı ucalıqlara kimin sayəsində yüksəlməyimizin fərqinə varmalıyıq.

Keçmişin acınacaqlı dərslərindən ibrət almaq, gələcəyə istiqamətlənmək və bu zaman yanılmamaq, böyük güclərin əlində oyuncağa çevrilməmək üçün 1990-cı illərlə 2020-ci illərin arasındakı təzadları və fərqlərin mahiyyətini anlamaq gərəkdir. Bu iki dövr arasında müəyyən müqayisələr aparanda iki Azərbaycan görürük. Birincisi, qan içində boğularaq hər gün torpaqlarını itirən ümidsiz gənc müstəqil ölkə, ikincisi isə, düşməni 44 günə məğlub edib diz çökdürən oturuşmuş dövlət. Qətiyyətli Prezident, əzəmətli ordunun qüdrətli sərkərdəsi kimi bizi bu səviyyəyə İlham Əliyev çatdırmışdır!

44 günlük müharibədəki qələbəmizin ən vacib şərtlərindən biri iqtidarla xalq birliyi oldu. O birlik ki, 90-cı illərdə olmamışdı. Əvəzində həmin illərdə torpaqlar getdikcə, rayon arxasınca rayon işğal olunduqca bütün xalq bədbinliyə, ümidsizliyə qapılır, heç kim nə baş verdiyini anlamır və hamı bir-birini ittiham edirdi.

Vətən müharibəsində isə Ali Baş Komandan Azərbaycan xalqını "dəmir yumruq" kimi birləşdirə bilmişdi. Bütün Azərbaycanı həm də qəribə əhvali-ruhiyyə bürümüşdü: ya ölüm, ya qələbə! Hamının dilində bir şüar, hamının ürəyində bir arzu var idi - Qarabağ Azərbaycandır! Hamı bu arzuya görə səngərə atılmaq, ya şəhid, ya qalib olmaq istəyirdi.

Təsadüfi deyil ki, 44 günlük müharibədə heç kim döyüşdən qaçmadı, yayınmadı, gizlənmədi, fərarilik etmədi. Amma Ermənistan ordusunda fərarilərin rəsmi sayı 10 mindən yuxarı oldu. Ermənilər bu gün də bizim əsgərlərimizin sinəsindən, başından qan axa-axa düşmən üstünə atılmasından qorxu və vahimə ilə danışırlar.

Azərbaycan müharibəyə illərboyu hazırlaşmışdı, yeni ordu qurmuşdu və onu ən müasir silahlarla silahlandırmışdı. O üzdən döyüşə atılan hər əsgərimiz bir cəngavər idi. Hətta şəhid ata-anaları göz yaşlarını düşmənə göstərmirdilər, dərdlərini içlərində ağlayırdılar və "Vətən sağ olsun" deyirdilər. Qaçıb gizlənən, ağlayaraq aman istəyənlər isə erməni ordusu, onların liderləri idi. Bu paralellər keçmişimizlə bu günümüzün reallıqları arasındakı fərqlərin nədən ibarət olduğunu anlamağa imkan verir.

Müstəqilliyimizin ilk illərində qaçqın dalğaları Azərbaycanı üzük qaşı kimi mühasirəyə almışdı. Sanki buna vərdiş etmişdik, alışmışdıq, çünki bunun qarşısını alan yox idi. Yaxşı yadımızdadır, Masis rayonunun Rəncbər kəndində azərbaycanlılar silah və un istəyirdilər. Deyirdilər ki, un və silah göndərin, İrəvan qulağımızın dibindədur, oranı dağıtmasaq, kişi deyilik. Bakı isə susurdu. Bu susqunluğun nəticəsində minlərlə soydaşımız Ermənistandan qovuldu. Sonra Ermənistan qoşunları azərbaycanlıları Qarabağdan didərgin saldılar, ardınca ətraf rayonları işğal etdilər. Getsin o günlər, gəlməsin.

Amma 44 günlük müharibədə ermənilərin cəbhə xəttindən uzaq yaşayış məntəqələrimizi hətta raket atəşinə tutmasına baxmayaraq, bircə nəfər də evini, yurdunu tərk etmədi. Erməni vandalları elə fikirləşirdilər ki, 90-cı illərdəki kimi dinc əhalini atəşə tutmaqla bu dəfə də istəklərinə nail olacaqlar. Amma onlar zamanı səhv salmışdılar. Bu dəfə hamı bir nəfər kimi əsgər idi.

Bax beləcə, misilsiz qələbə qazandıq, dünyaya ədalət uğrunda döyüşə bilən xalq olduğumuzu sübut etdik. Eyni zamanda qalib olmağın qürurunu yaşadıq, çoxdan həsrətində olduğumuz qürurunu...

**Bahadur İMANQULİYEV,**
**"Azərbaycan"**



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## Qətiyyətin İlham Əliyev nümunəsi

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verdiyi geniş müsahibədə görüş zamanı aparılan danışıqlara və gələcək perspektivlərə toxundu.

### Ermənistan ev tapşırığını yerinə yetirməlidir

Öncə İlham Əliyev Ermənistanın dəmir yolu xətti çəkilişi məsələsinə aydınlıq gətirərək dedi ki, bu məsələyə xüsusi diqqət yetirilib: "Görüşdə Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. Bizə gəldikdə, artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır. Biz, əlbəttə, ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək".

Görüşdə müzakirə edilən əsas məsələlərdən biri də minaların təmizlənməsi prosesi olub. İlham Əliyev bir daha bu məsələni qaldıraraq bildirib ki, müharibə bitdikdən sonra 200 nəfərə yaxın insan minalar səbəbindən həlak olub və ya ağır yaralanıb. Şarl Mişel isə Azərbaycana bu vəziyyətin öhdəsindən gəlməkdə yardımçı olmaq arzusunu ifadə edib.

Ancaq bəllidir ki, minaların təmizlənməsi çox həssas, vacib və strateji fəaliyyətdir. Həqiqətən də, Böyük qayıdışa başlamaq üçün əhalinin azad olunmuş ərazilərə geri dönməsi, məskunlaşması arzu olunursa, həmin ərazilərin təhlükəsizliyi təmin edilməlidir. Lakin Ermənistanın yalançı mina xəritələri və hələ də özündə saxladığı bəzi məlumatlar bu prosesi ləngidir.

### Avropa İttifaqının ayıracağı kreditlərin bölgüsü ədalətli deyil

Prezident İlham Əliyev Şarl Mişellə görüşdə təklif edib ki, Avropa Komissiyası özünün fondları vasitəsilə Azərbaycanda minalardan təmizləmə prosesinin maliyyələşdirilməsini nəzərdən keçirsin. Yəni ayrılacaq vəsait Azərbaycana deyil, minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə verilsin. Bundan sonra isə həmin şirkətlər Azərbaycana gələrək əməliyyatlara başlasınlar. Çünki Azərbaycan üçün fiziki olaraq bunu qısa müddətdə etmək mümkün deyil.

İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycanın ehtiyacları minaların təmizlənməsi ilə məhdudlaşmır. Çünki işğal dövründə hər şey dağıdılıb. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır.

Amma maraqlısı odur ki, Avropa İttifaqının bu yaxınlarda elan etdiyi dəstək paketində Ermənistana 2,6 milyard dollar, Azərbaycana isə, sadəcə, 140 milyon avro vəsait ayrılacaq. Yəni burada çox böyük fərq var, bu ədalətsizlikdir.

Prezident haqlı olaraq qeyd edib ki, bu, bir çox müşahidəçiləri təəccübləndirən fakt və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz oldu. Ayrılan vəsaitə diqqət etsək görərik ki, fərq təqribən 20 dəfə çoxdur.

Bunun ədalətli və hər iki ölkənin real ehtiyaclarına müvafiq bölgü olmadığını söyləyən dövlət başçısı deyib ki, hətta azad olunmuş ərazilərdə Ermənistan tərəfindən törədilmiş dəhşətli dağıntıları kənara qoysaq belə, hər iki ölkənin əhalisinin sayına nəzər salsaq, fərqin 5 dəfədən çox olduğunu görərik: "Azərbaycanın əhalisi 10 milyon, Ermənistanda isə 2 milyon. Bundan əlavə, işğal illəri ərzində Livanın sahəsinə bərabər ərazilər tamamilə dağıdılıb... Eyni zamanda, bizim hesablamalara görə, orada 1 milyona yaxın mina basdırılıb. Minaları təmizləmə prosesi olduqca baha başa gəlir və çox vaxt aparır. Ermənistanda heç bir dağıntı yoxdur. Bu ölkə işğal edilməmişdi, o, özü işğalçı idi. Fiziki cəhətdən belə Ermənistanın iqtisadiyyatı bu nəhəng həcmli paketi mənimsəyə bilməz".

Göründüyü kimi, məsələ çox təəccüblüdür. Qeyd edək ki, hətta Aİ bu paket elan edildikdən sonra Şarl Mişel Azərbaycana səfər etmişdi. Prezident İlham Əliyev müsahibəsində də qeyd edib ki, bu səfər zamanı mövzu müzakirə edilib və Azərbaycanın istəyi açıq şəkildə elan edilib: "Biz istəyirik ki, yanaşma vahid standartlara əsaslansın. Biz ədalət istəyirik və əlbəttə, Azərbaycana eyni şərtlərlə, eyni həcmdə vəsaitin verilməsini istəyirik".

### XXI əsrin ən böyük infrastruktur layihələrindən biri

İlham Əliyev Azərbaycanın enerji siyasətindən də söz açaraq həm yeni perspektivləri qiymətləndirib, həm də gələcək hədəflərdən danışıb. Azərbaycanın qaz strategiyasının çox aydın və açıq olduğunu deyən dövlət başçısı uzun illər ərzində ərsəyə gələn "Cənub qaz dəhlizi"nin Avropa üçün əhəmiyyətini vurğulayıb.

"Cənub qaz dəhlizi" XXI əsrin ən böyük infrastruktur layihələrindən biri hesab olunur. Uzunluğu 3500 kilometr olan kəmər Bakıdan Adriatik dənizinin dibi ilə yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatır. Bu, texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı layihədir. Azərbaycan "Cənub qaz dəhlizi"nin 4 seqmentinin hamısında əsas maliyyə yükünü öz üzərinə götürüb. Ötən ilin dekabrında layihənin tam başa çatmasından əvvəl Azərbaycan artıq istehlakçılarla müqavilələr imzalayıb.

Gələcək planlara gəldikdə isə, Azərbaycan Prezidenti deyib ki, hasilatı və ixracı artırmaq imkanı var. Lakin bu, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacaq: "Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi. Biz "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasını mütəmadi olaraq Bakıda Avropa İttifaqının nümayəndələri və Azərbaycanın sədrliyi ilə bir araya gətiririk. Növbəti sessiya gələn ilin fevralında keçiriləcək. Bu toplantıda gələcək addımlar planlaşdırılacaq. Bu, şirkətlərin, bankların və ölkələrin böyük bir qrupudur. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq."

Yanvarın 1-dən başlayaraq Azərbaycan İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz edib. Gələn il bu, 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq. Lakin bu gün Azərbaycanın imkanları bununla bitmir. Hazırda ölkəmizin nəhəng yataqları, tam yeni, müasir infrastrukturu var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Buraya həm Balkanları, həm də Mərkəzi Avropanı əlavə etmək olar. Bu isə Azərbaycan üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq.

### Ermənistan da regional nəqliyyat şəbəkəsinin üzvü ola bilər

Sonda isə İlham Əilyev bir daha Ermənistana açıq mesaj ünvanlayıb. Dövlət başçısı bəyan edib ki, Azərbaycanın dost və tərəfdaşlıq etdiyi ölkələr bizə etibar edir və ölkəmiz bütün qonşularla yaxşı münasibətdədir. Ermənistan nə qədər sülh sazişini imzalamaqdan boyun qaçırsa da, Azərbaycan ümid edir ki, münasibətlər normallaşacaq. Belə olan halda isə qazanan Ermənistan olacaq: "Baş nazir Paşinyan və Prezident Mişellə müzakirə etdiyimiz kimi. Onda Ermənistanın da regional nəqliyyat şəbəkəsinin üzvü olmağa imkanı olacaq, çünki indi o, çıxılmaz vəziyyətdədir. Onun Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, olacaq. Onun İranla dəmir yolu əlaqəsi yoxdur, Azərbaycan ərazisindən olacaq. Azərbaycan Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikasına gedəcək. Burada uduzan tərəf yoxdur. Hesab edirəm, Ermənistanda bu qızıl fürsəti, həqiqətən, dərk etməlidirlər ki, onlar daha da fəal hərəkət etsinlər və gələcək planlarda bizə qatılmaq üçün tərəddüd etməsinlər".

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

---

**● MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR**

## SCADA... artıq kənddə!

Bu, Azərbaycan elektroenergetika sisteminin ən müasir səviyyədə qurulmasının daha bir göstəricisidir.

Regionlarda istehlakçıların elektrik enerjisi ilə təchizatının getdikcə daha da yaxşılaşdırılması məqsədilə genişmiqyaslı tikinti, yenidənqurma və təmir işləri həyata keçirilir. Bu işlər Prezident İlham Əliyevin tapşırıq və göstərişləri əsasında görülür və dövlət başçısının daim nəzarətindədir. Prezidentin bölgələrdə istifadəyə verilən enerji qurğularının açılışında şəxsən iştirak etməsi bu istiqamətdə gerçəkləşdirilən layihələrin nə qədər önəmli olduğunu göstərir.

Şəbəkələrin ən müasir səviyyədə idarə edilməsi üçün bölgələrdəki elektrik enerjisi obyektlərində SCADA sisteminin yaradılması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin energetika sahəsinin yenidən qurulması və təzələnməsi nəticəsində mümkün olmuşdur. 2021-ci il noyabrın 1-də Şamaxıda "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin açılması buna aydın misaldır. SCADA əsaslı şəkildə yenidən qurulan "Meysəri" Yarımstansiyasında yaradılıb. Bununla da ilk dəfə olaraq Regional SCADA sistemi Mərkəzi SCADA sisteminə qoşulub.

Regional SCADA idarəetmə sisteminin əhəmiyyəti nədən ibarətdir? Bu sistem həm mərkəzdən, həm də sərbəst idarəetmə imkanlarına malikdir və regionların dispetçer xidmətinin operativliyini təmin etmək baxımından mühüm əhəmiyyət daşıyır. Sistem imkan verir ki, Şimal-Qərb Regional İdarəetmə Mərkəzinə daxil olan 7 şəbəkə üzrə onlayn informasiyalar və operativ məlumatlar həm bu idarəetmə mərkəzinə, həm də Bakıdakı Mərkəzi Dispetçer Xidmətinə ötürülsün. Gələcəkdə şimal-qərb regionundakı bütün yarımstansiyaların optik kabellə SCADA vasitəsilə buraya qoşulması təmin ediləcək.

"Meysəri"nin müsbət və fərqli cəhətlərindən biri odur ki, burada ilkin olaraq gərginliyin avtomatik tənzimlənməsi həyata keçirilir. Görülən işlər nəticəsində enerjinin etibarlılığı, stabilliyi və dayanıqlılığı tam təmin olunur. Perspektivdə bu yarımstansiya vasitəsilə Şamaxı və İsmayıllı rayonlarının elektrik şəbəkələrinin əlaqələndirilməsi nəzərdə tutulub.

Açılışında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri bu yarımstansiya Şamaxı rayonunun 11, Ağsu rayonunun 5 yaşayış məntəqəsinin, sənaye, tibb, təhsil, sosial, turizm, kənd təsərrüfatı təyinatlı və digər obyektlərin fasiləsiz və dayanıqlı elektrik təchizatını təmin edib. Yarımstansiyanın istismara verilməsi ilə 10 mindən çox əhalinin elektrik enerjisi təminatı daha da yaxşılaşdırılıb.

İşğaldan azad edilmiş ərazilərimizdə son bir ildə tikilib istifadəyə verilən stansiya və yarımstansiyalar da ölkənin energetika sisteminin gücünü xeyli artırıb. Həm də bunlar ən müasir enerji qurğularıdır. Məsələn, bu il oktyabrın 4-də Cəbrayıl rayonunda istifadəyə verilən 110/35/10 kilovoltluq "Cəbrayıl" Yarımstansiyası ən yeni avadanlıqlarla komplektləşdirilib, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji"nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

Qeyd edək ki, "Cəbrayıl" Yarımstansiyası ilk növbədə rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Buradan eləcə də Cəbrayılın ümumi şəhərsalma konsepsiyasına əsasən, rayonun mərkəzinə və bütün kənd-qəsəbələrinə işıq veriləcək.

Oktyabr ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Zəngilan" Yarımstansiyasının açılışında da iştirak ediblər. Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" Yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin mərkəzi SCADA sisteminə ötürülməsinə imkan verir.

Qeyd edək ki, işğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt təşkil edib. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "ağıllı şəhər", "ağıllı kənd" də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir. Məhz bu səbəbdən də Zəngilanın və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır.

110/35/10 kV-luq "Qubadlı" Yarımstansiyasının tikintisi ilə yanaşı, rayonun Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün tələb olunan infrastruktur da yaradılıb. Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib.

Xatırladaq ki, indiyə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda tikilən yeni yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin olunub. İşğaldan azad edilən rayonlardakı yarımstansiyalarda Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilib.Bir sözlə, müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiyalar yaradılıb.

Ölkədə, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda yeni, ən müasir enerji obyektlərinin tikintisi davam edir. Hazırda Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi tikilir. Bu, elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Belə bir layihə Cənubi Qafqazda ilk dəfədir tətbiq olunur.



Qeyd edək ki, dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamından sonra paylayıcı şəbəkələrin "yaşıl enerji zonası" tələbləri üzərində qurulmasına start verilib və "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan rəqəmsal yarımstansiya layihəsi işlənib hazırlanıb.

Daha bir rəqəmsal yarımstansiya Zəngilanda inşa edilir. Rayonda 35/10 kV-luq 240 kilometrlik və 0,4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.

Bu cür yarımstansiyalar digər üstünlükləri ilə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə də imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Ən əsası "yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alırlar.

İlham Əliyev Azərbaycanı gur işıqlı bir ölkəyə çevirdi. Yaxın keçmişdə xaricdən işıq idxal edən Azərbaycan indi həm özünün elektrik enerjisinə tələbatını ödəyir, həm də onu qonşu ölkələrə ixrac edir.

İlham Əliyev düşmənin 30 il xarabalığa çevirdiyi Qarabağa azadlıq bəxş edərək oraya da yeni həyat və işıq gətirdi.

İlham Əliyevin tikdirdiyi ən müasir enerji qurğularının sorağı indi Azərbaycanın hər tərəfindəki ucqar kəndlərdən gəlir və ölkəmizi getdikcə daha çox nura qərq edir.

***Flora SADIQLI, "Azərbaycan"***

---

## Müasir sənaye zonalarının təşəbbüsçüsü

**İndi bu zonalarda istehsal edilən məhsullar 30 ölkəyə ixrac olunur**

*İqtisadçıların çoxdan qəbul etdikləri reallıqdır ki, dayanıqlı inkişaf daha çox istehsalyönümlü sənayenin miqyasından asılıdır. Bunun üçün isə sənaye məhsulları istehsalı ümumi istehsalda yüksək çəkiyə malik olmalıdır.*

Azərbaycanda bu sahədə üstün mövqe neft sənayesinə məxsusdur. Lakin enerji daşıyıcılarının qiyməti dünya üzrə sabit olmadığı üçün bu dəyişkənlik maliyyə bazarına bəzən müsbət, bəzən də mənfi təsir göstərir.

Bu səbəbdən ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ön plana çəkilmiş və onun inkişafı üçün iqtisadi islahatlara start verilmişdir. Xüsusən ötən 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə görülən işlər nəticəsində ümumi istehsalda qeyri-neft sektorunun payı xeyli artmışdır.

Məlumdur ki, Azərbaycanda sənayeləşmə prosesini sürətləndirmək məqsədilə 2015-2020-ci illəri əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Bu sənədlə sənayenin inkişaf perspektivləri müəyyən edilmiş, əsasən sənaye potensialının gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Sənayeləşmədə ölkədə yaradılan texnoparkların əhəmiyyəti böyükdür. Texnoparklar yüksəkkeyfiyyətli məhsul hazırlamaq qabiliyyətinə malikdir və buna elmin son nailiyyətlərindən və müasir texnologiyalardan istifadə etməklə nail olunur. Hazırda Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür. Bununla yerli və xarici sahibkarlar üçün müxtəlif istiqamətlər üzrə yeni sənaye müəssisələrinin yaradılmasına kömək göstərilir.

Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli Fərmanı ilə ilk dəfə Sumqayıtda Kimya Sənaye Parkı yaradılmışdır. Məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul buraxmaq, onu dünya bazarına çıxarmaq, qeyri-neft sektorunun davamlı inkişafına nail olmaq, həmçinin əhalinin məşğulluğunu təmin etmək idi. Parkın sənaye zonasında kimya sənayesi, tikinti sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin - parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılmışdır və proses davam edir. Hazırda bu müəssisələrdə istehsal edilən məhsullar ölkənin daxili tələbatını ödəməklə yanaşı, dünya bazarına da ixrac olunur. Bu da onu göstərir ki, yüksək texnika və texnologiyalardan istifadə olunduğu üçün texnoparklarda rəqabətqabiliyyətli məhsul istehsal edilir.

İkinci böyük sənaye nəhəngi olan Balaxanı Sənaye Parkı da Prezident İlham Əliyevin 28 dekabr 2011-ci il tarixli Sərəncamı ilə yaradılıb. Qeyd edək ki, həmin parkda fəaliyyət göstərən sahibkarların marağı nəzərə alınaraq dövlət başçısının 1 mart 2018-ci il tarixli sərəncamına əsasən onun ərazisi 1,3 hektar artırılaraq 8,3 hektara çatdırılıb. Balaxanı Sənaye Parkının ərazisində məişət tullantılarının emalı (təkrar emalı) və xidmət müəssisələri yaradılıb. Bu səbəbdən parkın idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir. "Yaşıl iqtisadiyyat"ın inkişafında xüsusi əhəmiyyətə malik bu parkın təşkilində başlıca hədəf təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin yaradılması idi ki, ona da nail olunub.

Prezidentin 3 iyun 2015-ci il tarixli sərəncamına əsasən, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Bakıda daha bir - Qaradağ Sənaye Parkı yaradılmışdır. Eyni zamanda ölkənin hərtərəfli inkişafına nail olmaq üçün bölgələrdə də sənaye müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Dövlət başçısının 26 fevral 2015-ci il tarixli sərəncamı ilə yaradılan Mingəçevir Sənaye Parkı məhz bu məqsədə xidmət edir. Üstəlik, sənayeləşmənin ağırlıq yükünün regionlara köçürülməsi həm ölkənin ümumi inkişafı baxımından əhəmiyyətlidir, həm də bölgələrdə yaşayan əhalinin məşğulluğunu təmin edir.

Xatırladaq ki, Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimi Prezidentin iştirakı ilə 2016-cı il 21 sentyabr tarixində keçirilmişdir. Parkda rezident kimi qeydiyyata alınmış "Mingəçevir Tekstil" MMC-nin illik istehsalı üzrə dəyəri 85 milyon dollar, illik istehsal gücü 20 min ton iplik olan 2 fabriki ("Ring" və "Open End" üsulu ilə) də 2018-ci ilin 27 fevral tarixində dövlət başçısının iştirakı ilə istifadəyə verilmişdir. Buradakı avadanlıqlar Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən alınaraq quraşdırılmışdır. Texnoparkda fəaliyyət göstərən fabriklərdə şəhər əhalisi üçün 750 yeni iş yeri açılmışdır.

Yeri gəlmişkən, sənaye zonaları ölkənin qeyri-neft sektorunun, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafında və əhalinin məşğulluq səviyyəsinin təmin edilməsində mühüm rol oynayır. İndiyədək sənaye zonalarında 89 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan çoxu artıq fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,2 milyard manatdan çox investisiya yatırılıb və 9500-dək iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manat investisiyanın yatırılması və 2 minə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 5 milyard manatlıq məhsul istehsal edilib ki, onun da 1,4 milyard manatlığı (təqribən 28 faizi) ixrac olunub.

Göründüyü kimi, sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika var. Əgər 2020-ci ilin 9 ayında sənaye zonalarında 977 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2021-ci ilin eyni dövründə bundan 56,7 faiz çox (1,5 milyard manatlıq) məhsul buraxılıb. İxracın dəyəri isə 2020-ci ilin analoji dövrü ilə müqayisədə təxminən 2 dəfə artaraq 545 milyon manata çatıb. Digər fakt: 2021-ci ilin 9 ayında 1,5 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,2, qeyri-neft sənaye məhsullarının ixracında 25,9 faiz olub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 30-dan çox ölkəsinə ixrac edilib.

Bütün bunlar həm də sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması hesabına mümkün olmuşdur. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə hazırda Ağdamda və Cəbrayıl rayonunun Soltanlı kəndində də texnoparklar yaradılır. Həmin texnoparkların fəaliyyəti ilk növbədə işğaldan azad olunan ərazilərin potensialından istifadə etməyə hesablanıb. Bununla yanaşı, doğma yerlərə dönəcək soydaşlarımızın məşğulluğunun təmin ediləcəyinin hədəf seçilməsini də unutmaq olmaz. Bu isə o deməkdir ki, həmin texnoparklar bölgənin iqtisadi inkişafnı təmin etməklə yanaşı, həm də sosial məsələlərin həllinə müsbət təsirini göstərəcək.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 noyabr tarixli 2995 nömrəli Sərəncamı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndin ikinci abzasında “300” rəqəmləri “360” rəqəmləri ilə, üçüncü abzasında “180” rəqəmləri “216” rəqəmləri ilə əvəz edilsin;

1.2. 1.2-ci bəndin ikinci abzasında “170” rəqəmləri “204” rəqəmləri ilə, dördüncü abzasında “145” rəqəmləri “174” rəqəmləri ilə, beşinci abzasında “120” rəqəmləri “144” rəqəmləri ilə, altıncı abzasında “80” rəqəmləri “96” rəqəmləri ilə, səkkizinci abzasında “130” rəqəmləri “156” rəqəmləri ilə, doqquzuncu abzasında “110” rəqəmləri “132” rəqəmləri ilə, onuncu abzasında “75” rəqəmləri “90” rəqəmləri ilə əvəz edilsin;

1.3. 1.3-cü bəndin ikinci abzasında “75” rəqəmləri “90” rəqəmləri ilə, üçüncü abzasında “60” rəqəmləri “72” rəqəmləri ilə, dördüncü abzasında “50” rəqəmləri “60” rəqəmləri ilə əvəz edilsin;

1.4. 1.4-cü bəndin ikinci abzasında “75” rəqəmləri “90” rəqəmləri ilə, üçüncü abzasında “60” rəqəmləri “72” rəqəmləri ilə, dördüncü abzasında “50” rəqəmləri “60” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü bənddə hər dörd halda “məktəbəqədər təhsil müəssisələri” sözləri “uşaq evləri” sözləri ilə əvəz edilsin.

2. 2.9-cu bənddə hər dörd halda “məktəbəqədər təhsil müəssisələrinin” sözləri “uşaq evlərinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454; 2019, № 4, maddə 640; 2020, № 11, maddə 1361) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənd üzrə:

1.1.1. 1.1.1-ci yarımbənddə “130” rəqəmləri “180” rəqəmləri ilə əvəz edilsin;

1.1.2. 1.1.2-ci yarımbəndin ikinci abzasında “150” rəqəmləri “220” rəqəmləri ilə, üçüncü abzasında “130” rəqəmləri “180” rəqəmləri ilə, dördüncü abzasında “110” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.1.3. 1.1.3-cü yarımbəndin ikinci abzasında “150” rəqəmləri “220” rəqəmləri ilə, üçüncü abzasında “130” rəqəmləri “180” rəqəmləri ilə, dördüncü abzasında “110” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.1.4. 1.1.4-cü yarımbəndin ikinci abzasında “150” rəqəmləri “220” rəqəmləri ilə, üçüncü abzasında “130” rəqəmləri “180” rəqəmləri ilə, dördüncü abzasında “110” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.1.5. 1.1.5-ci yarımbənddə “150” rəqəmləri “200” rəqəmləri ilə əvəz edilsin;

1.1.6. 1.1.6-cı yarımbənddə “80” rəqəmləri “100” rəqəmləri ilə əvəz edilsin;

1.1.7. 1.1.8-ci yarımbənddə “100” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.1.8. 1.1.9-cu yarımbənddə “100” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin;

1.1.9. 1.1.10-cu yarımbənddə “55” rəqəmləri “70” rəqəmləri ilə əvəz edilsin;

1.1.10. 1.1.12-ci yarımbəndin 1-ci abzasında “160” rəqəmləri “200” rəqəmləri ilə, 2-ci abzasında “480” rəqəmləri “600” rəqəmləri ilə əvəz edilsin;

1.2. 1.2-ci bənd üzrə:

1.2.1. 1.2.2-ci yarımbənddə “200” rəqəmləri “300” rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 1.2.3-cü yarımbənddə “300” rəqəmləri “350” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609, № 11, maddə 1013; 2007, № 4, maddə 361; 2013, № 8, maddə 975, № 11, maddə 1454; 2018, № 2, maddə 311; 2020, № 5, maddə 570) 1-ci hissəsinin birinci abzasında “150” rəqəmləri “180” rəqəmləri ilə, “100” rəqəmləri “120” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1539; 2018, № 4, maddə 668; 2019, № 4, maddə 638) 1-ci hissəsində “55 (əlli beş)” sözləri “70 (yetmiş)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1229 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1229 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1491) 1-ci hissəsində “200” rəqəmləri “300” rəqəmləri ilə, “120” rəqəmləri “200” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çex Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il sentyabrın 30-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çex Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çex Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 aprel tarixli 1309 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297; 2009, № 6, maddə 419; 2011, № 3, maddə 182; 2017, № 5, maddə 802; 2021, № 4, maddə 314) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 1.2-ci bəndin birinci cümləsinə “vergi orqanlarında” sözlərindən əvvəl “dövlət” sözü əlavə edilsin;

1.2. 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.5. Müsahibə bu Əsasnamənin 2-ci hissəsinə əsasən yaradılan Müsabiqə Komissiyası (bundan sonra - Komissiya) tərəfindən aparılır.”;

1.3. 1.6-cı bənddə “Müsabiqəyə” sözü “Müsabiqədə” sözü ilə, “vətəndaşları buraxılırlar” sözləri “vətəndaşlarının (bundan sonra - şəxslər) iştirak etmək hüququ vardır” sözləri ilə əvəz edilsin;

1.4. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.7. Aşağıda göstərilən namizədlər müsabiqənin test imtahanı mərhələsindən azad edilirlər:

1.7.1. maliyyə, büdcə və iqtisadi sahələrdə dövlət siyasətini və tənzimləməsini həyata keçirən dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçuları;

1.7.2. prokurorluq orqanlarında və hüquq-mühafizə orqanlarında xüsusi və ya hərbi rütbə nəzərdə tutulan vəzifələrdə xidmət edən şəxslər;

1.7.3. əvvəllər dövlət vergi orqanlarında xidmət etmiş (xidməti intizamı bir dəfə kobud şəkildə pozması və ya xidməti vəzifələrini müntəzəm surətdə yerinə yetirməməsi səbəbindən vergi orqanlarında xidmətinə xitam verilmiş şəxslər istisna olmaqla) şəxslər;

1.7.4. ali təhsil tələb olunmayan vəzifələrə qəbul olunmaq üçün müraciət edən şəxslər;

1.7.5. iqtisadiyyat və ya hüquq sahəsində elmlər doktoru elmi dərəcəsi olan şəxslər;

1.7.6. baş rəis heyəti üçün nəzərdə tutulan vəzifələrə qəbul olunmaq üçün müraciət edən şəxslər;

1.7.7. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil almış şəxslər.”

2. 2-ci hissə üzrə:

2.1. 2.1-ci bəndin birinci cümləsində “Müsabiqə Komissiyası (bundan sonra - Komissiya)” sözləri “Komissiya” sözü ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Komissiya aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

2.2-1.1. qanunçuluq - müsabiqənin təşkili və keçirilməsi ilə bağlı normativ-hüquqi aktların tələblərinə riayət edilməsi, habelə namizədlərlə bağlı məcburi tələblərin yalnız normativ-hüquqi aktlarla müəyyənləşdirilməsi;

2.2-1.2. obyektivlik - namizədin dövlət vergi orqanlarında xidmətə uyğunluğunun bu Əsasnaməyə əsasən yalnız müsabiqə və ya müsahibə əsasında qiymətləndirilməsi;

2.2-1.3. qərəzsizlik - Komissiya üzvlərinin özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsir etməsinin, habelə malik olduğu hüquqlardan öz maraqları üçün istifadənin yolverilməzliyi;

2.2-1.4. müstəqillik - Komissiyanın və Komissiya üzvünün müsahibələr keçirilməsi və müsahibə üzrə qərar qəbul edilməsi ilə bağlı müstəqilliyi və onların fəaliyyətinə müdaxilənin yolverilməzliyi;

2.2-1.5. bərabərlik - irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlərin müsabiqənin keçirilməsi ilə əlaqədar hüquqlarının bərabərliyinə təminat verilməsi;

2.2-1.6. şəffaflıq və aşkarlıq - müsabiqənin nəticələrinin açıq elan edilməsi və müsahibə keçirilən zaman videoçəkilişdən istifadə olunması;

2.2-1.7. peşəkarlıq - namizədin potensial imkanlarından istifadə etməyin mümkünlüyünün aşkara çıxarılması və dövlət vergi orqanlarında xidmətə yararlılığını müəyyən etmək üçün hərtərəfli qiymətləndirilməsi.”;

2.3. 2.3-cü bənd üzrə:

2.3.1. birinci cümlədə “Komissiyanın qərarları” sözləri “Komissiya” sözü ilə əvəz edilsin;

2.3.2. ikinci cümlədə “komissiya” sözü “Komissiya” sözü ilə əvəz edilsin;

2.3.3. aşağıdakı məzmunda üçüncü - beşinci cümlələr əlavə edilsin:

“Bu Əsasnamənin 3.14-cü bəndində qeyd edilən hal istisna olmaqla, Komissiyanın iclaslarında hər üzvün bir səsi olmaqla qərarlar açıq səsvermə yolu və sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrlik edənin səsi həlledicidir. Komissiya üzvünün xüsusi rəyi olduqda rəy qərara əlavə edilir.”

3. 3-cü hissə üzrə:

3.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Xidmət dövlət vergi orqanlarında vakant vəzifələrə işə qəbulla əlaqədar sənədlərin təqdim edilməsi üçün son müddət göstərilməklə, kütləvi informasiya vasitələrində və özünün rəsmi internet saytında müsabiqə elanı verir. Müsabiqə elanı müsabiqənin başlamasına azı bir ay qalmış verilir və bu barədə Mərkəzə məlumat göndərilir.”;

3.2. aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

“3.1-1. Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün keçirilən müsabiqədə iştirak etmək istəyən şəxslər elektron qaydada Xidmətə müraciət edir.”;

3.3. 3.2-ci bəndə “vergi orqanlarına” sözlərindən əvvəl “dövlət” sözü əlavə edilsin;

3.4. 3.3-cü bənddə “Vergi” sözü “Dövlət vergi” sözləri ilə əvəz edilsin;

3.5. 3.3.5-ci yarımbəndə “surəti” sözündən sonra “(bu Əsasnamənin 1.7.4-cü yarımbəndində göstərilən şəxslər istisna olmaqla)” sözləri əlavə edilsin;

3.6. 3.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.5. Müsabiqəyə buraxılmış namizəd müsabiqənin test imtahanı mərhələsində iştirak etmək üçün Mərkəzin internet portalında şəxsi kabinet yaradaraq qeydiyyatdan keçir, Xidmət tərəfindən namizədin elektron poçt ünvanına göndərilmiş bildirişdə göstərilmiş müvafiq linkə daxil olmaqla Mərkəzin internet portalında öz ərizəsini təsdiq edir və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən dövlət qulluğuna qəbulla bağlı test imtahanında iştirak üçün müəyyən edilmiş tariflərə uyğun məbləği Mərkəzin hesabına ödəyir.”;

3.7. aşağıdakı məzmunda 3.5-1-ci bənd əlavə edilsin:

“3.5-1. Ərizəsini təsdiq etmiş və imtahanda iştirak üçün müəyyən olunan məbləği ödəmiş namizədə test imtahanının keçirilməsinə azı 2 gün qalmış “İmtahana buraxılış vərəqəsi” onun şəxsi kabinetinə göndərilir.”;

3.8. 3.11-ci bəndin üçüncü və dördüncü cümlələri çıxarılsın;

3.9. 3.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.12. Müsahibə keçirilən gün müsahibədə iştirak edəcək namizədlərin siyahısı və şəxsi işi müsahibədən əvvəl Komissiyaya təqdim edilir.”;

3.10. aşağıdakı məzmunda 3.12-1 - 3.12-4-cü bəndlər əlavə edilsin:

“3.12-1. Komissiyanın üzvlərindən birinin müsahibədə iştirak edən namizədlərdən hər hansı biri ilə yaxın qohumluq, şəxsi yaxınlıq münasibəti olduqda, həmin üzv özü-özünə etiraz edir. Belə əsaslar olduqda müsahibə başlanmazdan əvvəl namizəd Komissiyanın hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər.

3.12-2. Bu Əsasnamənin 3.12-1-ci bəndinə uyğun olaraq əsaslandırılmış etiraz edildikdə barəsində etiraz edilmiş və ya özü-özünə etiraz etmiş şəxslər həmin namizədlə müsahibədə Komissiyanın üzvü kimi iştirak edə bilməzlər.

3.12-3. Müsahibə zamanı videoçəkiliş aparılır. Videoçəkiliş müsahibənin keçirilməsinə, eləcə də Komissiyanın normal fəaliyyətinə maneə törətməməlidir.

3.12-4. Müsahibə namizədin vakant vəzifəyə uyğunluğunu müəyyən etmək üçün Komissiyanın ona suallar, tapşırıqlar verməsi və namizədin həmin sualları cavablandırması, tapşırıqları yerinə yetirməsi, habelə namizədin dinlənilməsi və Komissiya üzvlərinin müşahidə aparması yolu ilə həyata keçirilir.”;

3.11. 3.13-cü bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Namizədə verilən suallar və tapşırıqlar aydın olmadıqda, namizədin həmin sualları və tapşırıqları aydınlaşdırmaq hüququ vardır.”;

3.12. aşağıdakı məzmunda 3.13-1 - 3.13-6-cı bəndlər əlavə edilsin:

“3.13-1. Komissiyanın üzvləri aşağıdakı tələblərə riayət etməlidirlər:

3.13-1.1. müsahibə aparılacaq yerə təyin edilmiş vaxtda gəlmək;

3.13-1.2. bu Əsasnamə ilə, vakant vəzifəyə dair vəzifə təlimatları və namizədin şəxsi işi ilə tanış olmaq;

3.13-1.3. bu Əsasnamənin 3.12-1-ci bəndində nəzərdə tutulmuş hallarda özü-özünə etiraz etmək;

3.13-1.4. müsahibənin keçirilməsi ilə bağlı normativ-hüquqi aktların tələblərinə riayət etmək;

3.13-1.5. namizədin və digər Komissiya üzvlərinin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmaq, müsahibə zamanı nəzakətli, diqqətli və səbirli olmaq;

3.13-1.6. müsahibə zamanı müsahibə otağını üzrlü səbəb olmadan tərk etməmək;

3.13-1.7. sualları və tapşırıqları verərkən müəyyən edilmiş vaxt bölgüsünə əməl etmək;

3.13-1.8. müsahibənin gedişi zamanı namizədə vakant vəzifəyə uyğun olub-olmaması barədə fikir bildirməmək;

3.13-1.9. müsahibənin aparılmasına mane olan digər hərəkətlərə yol verməmək.

3.13-2. Namizəd aşağıdakı tələblərə riayət etməlidir:

3.13-2.1. müsahibənin aparılacağı yerə təyin edilmiş vaxtda gəlmək;

3.13-2.2. Komissiyanın üzvlərinə hörmətlə yanaşmaq, onların suallarını, tapşırıqlarını sonadək dinləmək;

3.13-2.3. suallara mahiyyəti üzrə cavab verməyə və tapşırıqları mümkün qədər qısa vaxtda yerinə yetirməyə çalışmaq;

3.13-2.4. üzrlü səbəb olmadan müsahibənin keçirildiyi otağı tərk etməmək;

3.13-2.5. rabitə və digər texniki vasitələri müsahibənin keçirildiyi otağa gətirməmək.

3.13-3. Namizəd müsahibənin aparılacağı yerə müəyyən edilmiş vaxtda gəlmədikdə Komissiyanın üzvləri tərəfindən onun müsahibədə iştirak etməməsi barədə akt tərtib edilir.

3.13-4. Müsahibədə üzrlü səbəblər olmadan iştirak etməyən namizədlə həmin vakant vəzifə üzrə yeni müsahibənin keçirilməsinə yol verilmir.

3.13-5. Müsahibədə üzrlü səbəblərdən iştirak etməyən namizədlə həmin vakant vəzifə üzrə yeni müsahibənin keçirilməsinə Komissiyanın qərarı əsasında yol verilir.

3.13-6. Müsahibə başa çatdıqdan sonra müsahibə ilə bağlı Komissiyanın üzvləri arasında namizədin iştirakı olmadan fikir mübadiləsi aparılır.”;

3.13. 3.14-cü bənddə “orta balı” sözlərindən sonra “3” və” sözləri əlavə edilsin.

4. 4-cü hissə üzrə:

4.1. 4.5-ci bəndə “vergi orqanlarına” sözlərindən əvvəl “dövlət” sözü əlavə edilsin;

4.2. 4.6-cı bəndin birinci cümləsinə “vergi orqanlarında” sözlərindən əvvəl “dövlət” sözü əlavə olunsun və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Kadr ehtiyatının formalaşdırılması və idarə edilməsi qaydası Xidmət tərəfindən müəyyən olunur.”;

4.3. aşağıdakı məzmunda 4.7-ci bənd əlavə edilsin:

“4.7. Namizədlərin müsahibə sənədləri (o cümlədən müsahibə qeydləri və videoçəkilişlər) 5 il müddətində mühafizə olunur.”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2021-ci il*

## Rusiya Federasiyası Həştərxan şəhəri Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbinin müəllimlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında təhsil sahəsində əlaqələrin inkişafında xidmətlərinə görə Rusiya Federasiyası Həştərxan şəhəri Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbinin aşağıdakı müəllimləri "Tərəqqi" medalı ilə təltif edilsin:

Auslender Raisa Markovna
Boqdyuk Larisa Anatolyevna
Maxmutova Yelena Borisovna
Melyuçenkova Anna Vyaçeslavovna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il oktyabrın 8-də İzmir şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan və Türkiyə Respublikası tərəflərinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2 maddə 124) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.15-ci və 8.24-cü bəndlərdə "məktəbəqədər təhsil müəssisələri" sözləri "uşaq evləri" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 8.15-1-ci bənd əlavə edilsin:

"8.15-1. tabeliyindəki məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasını təmin edir;".

3. 8.35-1-ci bəndə "peşə" sözündən əvvəl "tabeliyindəki məktəbəqədər təhsil müəssisələrini və" sözləri əlavə olunsun, həmin bənddə "və fəaliyyətini" sözləri "onların fəaliyyətini" sözləri ilə, "onun" sözü "onların" sözü ilə əvəz edilsin.

4. 8.37-ci bənddə "məktəbəqədər təhsil müəssisələri" sözləri "uşaq evləri" sözləri ilə, "rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi məsələsini həll edir" sözləri "rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2584) ilə təsdiq edilmiş "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1.2-ci yarımbəndə "2.1.2 - 2.1.4-cü" sözlərindən sonra ", 4.0.2-ci və 4.0.4-cü" sözləri əlavə edilsin və həmin yarımbənddə "2.1.2-ci və 2.1.3-cü" sözləri "2.1.2-ci, 2.1.3-cü və 4.0.4-cü" sözləri ilə əvəz olunsun;

1.2. 5.5.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.3. hüquqi şəxs ləğv olunduqda, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə, həmin şəxs məhkəmə tərəfindən ölmüş elan edildikdə, itkin düşmüş və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, yaxud vəfat etdikdə;";

1.3. 5.5.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.5.7-ci yarımbənd əlavə olunsun:

"5.5.7. "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun dayandırılmasına səbəb olan hallar 12 (on iki) ay ərzində təkrar aşkar edildikdə.".

2. Bu Fərman dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 19 iyun tarixli 509 nömrəli, "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi barədə" 2007-ci il 13 dekabr tarixli 673 nömrəli, "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 25 dekabr tarixli 206 nömrəli, "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 15 iyul tarixli 305 nömrəli və "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 noyabr tarixli 349 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 509 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 407; 2007, № 11, maddə 1118; 2009, № 6, maddə 419; 2012, № 4, maddə 290, № 5, maddə 427; 2017, № 5, maddə 802) ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.5-ci bəndində "müvafiq ixtisas üzrə" sözləri "hüquq sahəsində elmlər doktoru" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1223; 2009, № 10, maddə 773) ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.7.3-cü yarımbəndinə "sahəsində" sözündən sonra "elmlər doktoru" sözləri əlavə edilsin.

3. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 994; 2010, № 7, maddə 625; 2011, № 4, maddə 294; 2012, № 5, maddə 425; 2013, № 3, maddə 253, № 5, maddə 515, № 6, maddə 645, № 12, maddə 1518; 2014, № 5, maddə 471; 2017, № 5, maddə 759, № 7, maddə 1328; 2020, № 5, maddə 561) 2.1-ci bəndində "üçüncü" sözü "dördüncü" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 624; 2013, № 5, maddə 514) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında "müsabiqənin" sözü "müsabiqə" sözü ilə əvəz edilsin;

4.2. 8.3-cü bəndinə "sahəsində" sözündən sonra "elmlər doktoru" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 965) ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın 1.8.4-cü yarımbəndinə "sahəsində" sözündən sonra "elmlər doktoru" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Estoniya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il oktyabrın 5-də Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Estoniya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Estoniya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə **qərara alıram:**

1. Yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" 2010-cu il 27 dekabr tarixli 1251 nömrəli və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2014-cü il 24 iyul tarixli 664 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1251 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1090) 1-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 891) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin aşağıdakı regional idarələri yaradılsın:

1.1. Sumqayıt şəhər, Abşeron, Xızı rayon təhsil şöbələrinin əsasında Abşeron - Xızı Regional Təhsil İdarəsi;

1.2. Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayon təhsil şöbələrinin əsasında Dağlıq Şirvan Regional Təhsil İdarəsi;

1.3. Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayon təhsil şöbələrinin əsasında Gəncə - Daşkəsən Regional Təhsil İdarəsi;

1.4. Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayon təhsil şöbələrinin əsasında Qarabağ Regional Təhsil İdarəsi;

1.5. Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayon təhsil şöbələrinin əsasında Qazax - Tovuz Regional Təhsil İdarəsi;

1.6. Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayon təhsil şöbələrinin əsasında Quba - Xaçmaz Regional Təhsil İdarəsi;

1.7. Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayon təhsil şöbələrinin əsasında Lənkəran - Astara Regional Təhsil İdarəsi;

1.8. Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayon təhsil şöbələrinin əsasında Mərkəzi Aran Regional Təhsil İdarəsi;

1.9. Beyləqan, İmişli, Saatlı və Sabirabad rayon təhsil şöbələrinin əsasında Mil - Muğan Regional Təhsil İdarəsi;

1.10. Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayon təhsil şöbələrinin əsasında Şəki - Zaqatala Regional Təhsil İdarəsi;

1.11. Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayon təhsil şöbələrinin əsasında Şərqi Zəngəzur Regional Təhsil İdarəsi;

1.12. Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayon təhsil şöbələrinin əsasında Şirvan - Salyan Regional Təhsil İdarəsi.";

2.2. 6-cı hissə ləğv edilsin;

2.3. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturu"nun 2.1-ci və 2.2-ci bəndləri müvafiq olaraq 2.2-ci və 2.3-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) Aparatının, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və regional təhsil idarələrinin işçilərinin say həddini bir ay müddətində təsdiq etsin;

3.2. Nazirliyin müvafiq təhsil şöbələrinin balansındakı və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə (uşaq evləri istisna olmaqla) aid dövlət əmlakının Nazirliyin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və müvafiq regional təhsil idarələrinin balansına verilməsini bir ay müddətində təmin etsin;

3.3. Nazirliyin regional təhsil idarələrinin yaradılması ilə əlaqədar onların maddi-texniki təminatı məsələlərinin həlli üçün iki ay müddətində tədbirlər görsün;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700, № 10, maddə 2018; 2020, № 5, maddə 699, № 11, maddə 1362) 2.4-cü və 2.5-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

"2.4. həmin Qanunun 15.3-cü və 23.3-cü maddələrində (uşaq evlərinə münasibətdə) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, habelə həmin Qanunun 4.0.5-ci, 4.0.8-ci, 4.0.12-ci (işçilərin attestasiyasını həyata keçirmək üzrə), 4.0.13-cü, 4.0.14-cü (uşaqların qidalanmasını təmin etmək üzrə) və 4.0.16-cı maddələrində nəzərdə tutulmuş vəzifələri tabeliyində olan uşaq evlərinə münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.5. həmin Qanunun 15.3-cü və 23.3-cü maddələrində (uşaq evləri istisna olmaqla) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, habelə həmin Qanunun 4.0.5-ci, 4.0.8-ci, 4.0.12-ci (işçilərin attestasiyasını həyata keçirmək üzrə), 4.0.13-cü, 4.0.14-cü (uşaqların qidalanmasını təmin etmək üzrə), 4.0.15-ci (müəssisələrin yaradılması və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək üzrə), 4.0.16-cı maddələrində (uşaq evləri istisna olmaqla) nəzərdə tutulmuş vəzifələri tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə münasibətdə, eləcə də 4.0.2-ci (məktəbəqədər təhsil proqramları (kurikulumlar) təsdiq etmək üzrə), 4.0.3-cü, 4.0.7-ci, 4.0.10-cu, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin akkreditasiyasını həyata keçirmək üzrə), 4.0.18-ci və 9.1-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;"

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 noyabr tarixli 1473 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.12.3-cü və 3.12.4-cü yarımbəndlərdən "məktəbəqədər təhsil müəssisələrinin (körpələr evi, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, sanator tipli məktəbəqədər təhsil müəssisəsi, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün xüsusi məktəbəqədər təhsil müəssisələri) və" sözləri çıxarılsın.

2. 3.12.4-1-ci yarımbənddə "məktəbəqədər təhsil müəssisələrinin" sözləri "uşaq evlərinin" sözləri ilə əvəz edilsin.

3. 3.12.4-2-ci yarımbənddə "məktəbəqədər təhsil müəssisələrində" sözləri "uşaq evlərində" sözləri ilə əvəz edilsin.

4. 4.12.3-1-ci yarımbənd ləğv edilsin.

5. 4.18.2-ci yarımbənddən "4.12.3-1-ci," sözləri çıxarılsın.

6. "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə Əlavə"nin 1-ci hissəsindən ", Təhsil Nazirliyinin" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

Ağdam rayonundakı Heydər Əliyev Mərkəzində Ağdam Rayon İcra Hakimiyyətinin, "Azərbaycan" qəzetinin, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş Kitab bayramı və Respublika konfransı keçirilib. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, o cümlədən Ağdam Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları, ziyalılar və şagirdlər iştirak ediblər.







# Ağ günə qovuşan Ağdamda Kitab bayramı







Əvvəlcə Ulu Öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsi ziyarət olundu, önünə gül-çiçək dəstələri düzüldü.

Sonra tədbir iştirakçıları Azərbaycan Milli Elmlər Akademiyasının "Akademkitab" Birliyinin direktoru, filologiya üzrə elmlər doktoru Əlağa Cəfərov tərəfindən Ağdam rayonuna hədiyyə edilmiş kitabların bir qismindən ibarət sərgi ilə tanış oldular. Son zamanlar Azərbaycan nəşriyyatlarında nəfis şəkildə çapdan çıxmış bu kitablar ölkəmizdə çap məhsullarının mövzu baxımından rəngarəngliyindən xəbər verir.

Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş Respublika konfransı Dövlət himninin səsləndirilməsi ilə başladı. Xalqımızın Ulu Öndərinin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının əziz xatirələri bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov açaraq vurğuladı ki, Azərbaycan tarixinin mühüm ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi hadisələrlə zəngin olan dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər həmişə Azərbaycanı və xalqımızı zamanın ən çətin, mürəkkəb və ziddiyyətli sınaqlarından çıxara bilib. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalq təsərrüfatı, iqtisadiyyat, elm, təhsil, mədəniyyət və digər sahələrdə böyük nailiyyətlər qazanılıb.

V.Həsənov qeyd etdi ki, hazırda Azərbaycan özünün hər bir sahədə dinamik inkişaf dövrünü yaşayır. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən, onun müqəddəs vəsiyyətini həyata keçirən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun cəmi 44 gün ərzində torpaqlarımızı 30 illik erməni işğalından azad etməsi müasir tariximizə qızıl hərflərlə yazıldı.

Ağdam şəhərinin və rayonun işğal altında olan hissəsinin 2020-ci il noyabrın 20-də işğaldan azad edildiyini xatırladan Vaqif Həsənov dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfərlərinə diqqət çəkdi. Qeyd etdi ki, Müzəffər Ali Baş Komandanın 27 ildən sonra işğaldan azad olunan Ağdamda üçrəngli dövlət bayrağımızı qürurla dalğalandırması, Ağdam məscidini ziyarət etməsi, şəhərin baş planını təsdiqləməsi, bərpa-quruculuq işlərinə start verməsi, yeni binaların təməlini qoyması təkcə ağdamlıları deyil, bütün xalqımızı ürəkdən sevindirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Ağdamın qısa müddətdə dirçəldiləcəyini söyləyən Vaqif Həsənov Kitab bayramını da həmin tədbirlərin tərkib hissəsi kimi dəyərləndirdi. Bildirdi ki, vaxtilə Ulu Öndər kitaba, mütaliəyə, kitab nəşrinə və kitab təbliğinə xüsusi diqqət yetirirdi. Ona görə də bu tədbirin özülündə kitabın dayanması dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramın bir ifadəsidir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov Ulu Öndər Heydər Əliyevin müxtəlif dövrlərdə ölkəyə rəhbərliyindən, onun müdrik və uzaqgörən dövlət xadimi olmasından geniş söhbət açdı, müasir Azərbaycanın məhz Ümummilli Liderin şah əsəri olduğunu vurğuladı. Bildirdi ki, Heydər Əliyev özünün idarəçilik istedadı, tükənməz enerjisi, misilsiz işgüzarlığı ilə dünyanın ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdir.

Bəxtiyar Sadıqov vurğuladı ki, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı və qurucusu kimi daxil olmuş Heydər Əliyevin milli müstəqillik, azərbaycançılıq ideyalarını bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Zəfər müharibəsində düşməni darmadağın edərək, şəhidlərimizin qisasını aldı, torpaqlarımızı özümüzə qaytardı. Dövlət başçısının regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq Ağdam rayonunun quruculuqla bağlı inkişaf planlarını təsdiq etməsi, bir çox sosial layihələrin həyata keçirilməsinə təkan verməsi yeni dövrün əsasını qoymuşdur.

Milli Məclisin deputatı keçirilən tədbirin mahiyyətindən danışaraq kitabı və mütaliəni cəmiyyətin tərəqqi yolunu nurlandıran işıq kimi qiymətləndirdi. Ulu Öndərin xatirəsinə həsr olunmuş Kitab bayramının əhəmiyyətini qeyd edən natiq kitabın bilik mənbəyi olduğunu, bütün sahələrdəki inkişafın buna bağlandığını söylədi. Heydər Əliyevin hər zaman kitab nəşrinə, kitabxana işinə yüksək dəyər verdiyini, bu sahəyə xüsusi diqqət ayırdığını bildirdi. Bəxtiyar Sadıqov Ağdamda ilk dəfə keçirilən Kitab bayramının gənclər arasında kitabın təbliğinə böyük töhfə verəcəyinə əmin olduğunu diqqətə çatdırdı.

Tədbirdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin dekan əvəzi, dosent Ələmdar Cabbarlı "Ulu Öndər Heydər Əliyev və Qarabağ ədəbi mühiti" mövzusunda məruzə etdi. O, Qarabağın ədəbi-mədəni həyatının mənzərəsini canlandıraraq dedi ki, çoxəsrlik tarixə, zəngin mədəniyyətə malik olan bu bölgə bir çox sənətkarların yetişməsində əvəzsiz rol oynayıb. Ədəbiyyat və mədəniyyət tariximizdə özünəməxsus yer tutan Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Mirzə Ələsgər Növrəs, Aşıq Pəri, Bəhmən Mirzə Qacar haqqında məlumat verən natiq Ulu Öndərin hər zaman Qarabağın mədəni yüksəlişinə qayğı göstərdiyini dedi. O, eləcə də Prezident İlham Əliyevin bu kursu uğurla davam etdirdiyini, azad Qarabağımızda ədəbiyyat və mədəniyyətimizin inkişafına xüsusi töhfə verdiyini söylədi.

BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti Rasim Süleymanov "Ulu Öndər Heydər Əliyev haqqında xarici nəşrlər" mövzusunda məruzə edərək dahi şəxsiyyətin həyat və fəaliyyəti ilə bağlı ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Çin və başqa ölkələrdə çapdan çıxmış fundamental nəşrlər haqqında söz açdı. Dedi ki, dahi Heydər Əliyevin fikrincə, hər bir milləti dünya xalqları içərisində fərqləndirən başlıca xüsusiyyət onun mədəniyyətidir. Yüksək mədəniyyətə malik olan xalq daim inkişaf edir və irəli gedir. Azərbaycan xalqının qədim mədəniyyətinin, elmi təfəkkürünün kökləri onun tarixinin dərinliklərinə gedib çıxır. Əsrlərboyu Azərbaycan xalqı Şərq ədəbiyyatı və incəsənətinin, müxtəlif dövrlərin fəlsəfə və elminin ən yüksək nailiyyətlərini özündə təcəssüm etdirən zəngin, çoxcəhətli və orijinal mədəniyyət yaratmışdır. Bu baxımdan xarici ölkələrdə Heydər Əliyevə həsr olunmuş kitablar müstəsna əhəmiyyətə malikdir.

Bakı Dövlət Universitetinin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, Qarabağ müharibəsi veteranı Knyaz Aslan "Ulu Öndər Heydər Əliyev şəxsiyyəti: milli-mənəvi dəyərlərimizin təəssübkeşi və təminatçısı" mövzusunda məruzə etdi. O vurğuladı ki, mədəni irsimizin qorunub saxlanmasında, inkişafında, geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri var. Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən daim əsas vəzifələrdən biri kimi irəli sürülmüşdü. Ulu Öndər deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Tədbirdə Ağdam Rayon Ağsaqqallar Şurasının sədri Əvəz Mikayılov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ağdam Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Yaqut Qəhrəmanova çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz üçün gördüyü işlərdən, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən nəhəng quruculuq işlərindən danışdılar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan "peyvənd millətçiliyi"nə qarşı qlobal mübarizənin önündədir

## Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş qətnaməni 179 ölkə dəstəkləyib

Bəşəriyyəti ölüm hökmü ilə iki ildir hədələyən koronavirus pandemiyasının qarşısının alınması Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətinin əsas hissəsinə çevrilməsi də bu "gözəgörünməz bəla"dan xilas yolu deyilmiş. Buna görə də dünya xalqları və özlərini güclü dövlət hesab edənlər ilk növbədə vaksinlərin bərabər şəkildə bölüşdürülməsini təmin etməlidirlər. Təəssüf ki, bu istiqamətdə bir sıra məsələlərdə davam edən ikili standartlar burada da özünü gizlətmədi. Azərbaycanın dövlət başçısı İlham Əliyev problemin qlobal şəkildə həllinə nail olmaq üçün beynəlxalq tribunalarda haqq səsini qaldırmaqla bir daha özünün və xalqının humanistliyini göstərdi.

Dekabrın 16-da BMT-nin Baş Assambleyasında Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi ilə bağlı qətnamənin qəbulu təsadüfi deyil.

179 ölkənin dəstəyi ilə qəbul edilən qətnamənin əleyhinə heç bir səs qeydə alınmayıb. Bunun səbəbləri var, onların bəzilərinə diqqət yetirək. Birincisi, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir.

Pandemiya qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə dövlətimiz qlobal liderlik rolunu üzərinə götürdü. Həmçinin pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

Artıq bütün dünya, eləcə də beynəlxalq təşkilatlar şahiddirlər ki, Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti "peyvənd millətçiliyi", varlı və kasıb ölkələr arasında vaksinlərə əlçatanlıqla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizəni daim gündəlikdə saxlayıb. Bununla belə, həm də Azərbaycan indiyə kimi 80-ə yaxın ölkəyə birbaşa və ÜST xətti ilə maliyyə və humanitar yardımlar edib. Hətta bəzi iqtisadi cəhətdən zəif ölkələrə təmənnasız olaraq COVID-19 əleyhinə vaksinlər göndərib.

Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə irəli sürdüyü təşəbbüslərin səmərəsini verməsi bir daha göstərir ki, dövlət başçısının mübarizəsi qlobal xarakter daşıyır və insanlıq naminə atılan addımlardır.

Azərbaycanın pandemiyaya qarşı ölkə daxilində ardıcıl mübarizə tədbirləri ÜST və digər beynəlxalq qurumlar tərəfindən birmənalı şəkildə təqdir edilir. Bu, həm də o deməkdir ki, Azərbaycan beynəlxalq miqyasda da özünü məsuliyyətli dövlət kimi aparması ilə böyük rəğbət qazanıb, qlobal həmrəyliyin möhkəmlənməsinə fəal dəstək nümayiş etdirir. Bununla yanaşı, Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq könüllü şəkildə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları ayırıb. Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST rəhbərliyi tərəfindən dəfələrlə xüsusi qeyd edilib, digər ölkələrə nümunə göstərilibdir.

Bu il may ayının 24-də ÜST-ün əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyası keçirildi. Prezident İlham Əliyevin sessiyada videoformatda çıxışı maraqlı olduğu qədər də vacib və diqqətçəkən idi. Çünki həmin çıxış Azərbaycanın beynəlxalq ictimaiyyətin məsuliyyətli və bəşəri dəyərlərinin fəal müdafiəçisi kimi statusunu gücləndirdiyinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində mühüm rol oynadı.

Prezident İlham Əliyev həmin sessiyada ÜST-ün pandemiyaya qarşı qlobal mübarizəsini yüksək qiymətləndirərək 2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsinin vacibliyini təqdir etmişdir.

Ölkəmizin rəhbəri dövlətimiz tərəfindən bu ilin əvvəlindən həyata keçirilən koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində Azərbaycanda yoluxma hallarının sayının minimuma endirilməsini də diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, görülən qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə istər iqtisadiyyat, istərsə də əhali pandemiyanın dağıdıcı təsirinə ən az məruz qalmışdır.

Dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi, vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər iki ildir ki, davamlı şəkilkdə həyata keçirilib. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilib. Ölkədə COVID-19-a yoluxan xəstələrin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının sayı 10 mindən artıqdır. Bununla yanaşı, COVID-19-un mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir.

Davam edən "peyvənd millətçiliyi", peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlikdən bir daha narahatlığını bildirən, donor təşkilatlarını xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağıran dövlət başçısı İlham Əliyev bununla əlaqədar ölkəmizin birmənalı mövqeyini də açıqlamışdır. Çünki pandemiyaya ölkələr milli deyil, beynəlxalq səviyyədə, birlikdə mübarizə apararaq qalib gələ bilərlər.

Bu ilin mart ayında Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamənin yekdilliklə qəbul olunması məhz dövlət başçısı İlham Əliyevin birbaşa təşəbbüsünün nəticəsidir.

Beləliklə, Azərbaycanın bu istiqamətdə daha bir təşəbbüsü BMT səviyyəsində dəstək tapdı.

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İrəvan kreditlər hesabına ayaqda qalmağa çalışır

## Xarici şirkətlər səhmlərini ən ucuz qiymətə sataraq Ermənistandan qaçırlar

Ermənistanda getdikcə ağırlaşan sosial-iqtisadi vəziyyət hakimiyyət üçün əlavə problemlərə yol açır. Hətta fikirlər səslənir ki, bu gedişlə Nikol Paşinyan yaxın vaxtlarda iqtidardan devrilə bilər. Hakimiyyətin müxtəlif qanadları arasında gərginlik yüksək həddə çatıb. Radikal revanşistlər isə bundan istifadə edərək hakimiyyət uğrunda mübarizədə qüvvələr nisbətinin dəyişməsinə imkan yaranacağına ümid bəsləyirlər.

"4rd.am" saytının verdiyi xəbərə görə, Ermənistan iqtisadiyyatı tamamilə çöküb, hətta iflas həddinə çatıb. İrəvan hazırda heç bir şey istehsal etmədən xarici maliyyə qaynaqlarından əldə olunan kreditlər hesabına ayaqda qalmağa çalışır. Dövlət borcu 10 milyard dollara yaxınlaşıb. Bu ilin yanvarından indiyə qədər 2 milyard dollara yaxın kredit götürüldüyü bildirilir. Qeyd olunur ki, iqtisadiyyatın çökməkdə olduğu şəraitdə Ermənistanın belə ağır borc yükünün altından qalxa biləcəyi ciddi şübhələr doğurur.

Ermənistanda gözlənilən defolt isə ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklərin meydana çıxmasına rəvac verəcək. Defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir. Ermənistan isə onsuz da borc öhdəliklərini çətinliklə yerinə yetirir. Əslində, borc öhdəlikləri növbəti dəfə alınan başqa borclar hesabına yerinə yetirildiyindən ölkənin xaricdən olan iqtisadi asılılığı sürətlə artır. Məsələ bundadır ki, Ermənistanın iqtisadi vəziyyəti uzun illərdir ağırdır və müharibədə aldığı məğlubiyyətdən sonra düzəlməsi də sual altındadır. Əsas səbəb də odur ki, Ermənistanda dövlət adına heç nə qalmayıb, sanballı dövlət müəssisələrinin əksəriyyəti xarici şirkətlərə satılıb. Amma hazırda onlar da işlək vəziyyətdə deyil. Digər tərəfdən, baş nazir Paşinyanın komandası da sələfiləri kimi, sadəcə, oğurlamağı və mənimsəməyi daha yaxşı bacaran cinayətkar ünsürlərdən ibarətdir. Bu fonda xaricdən alınan borcların da əksər hissəsi mənimsəmənin qurbanı olur.

Bunların fonunda Ermənistan mətbuatı bir çox xarici şirkətin bu ölkənin iqtisadiyyatında iştirak paylarını ən ucuz qiymətə sataraq, getməyə çalışdığı barədə məlumat yayıb. Həmin məlumata görə, Rusiyanın "Rostelekom" şirkəti Ermənistandakı törəmə şirkətini cəmisi 25 milyon dollara satışa çıxarıb. Ancaq hələlik bu məbləği belə ödəməyə həvəs göstərən alıcı olmadığından "Rostelekom" Ermənistanı tərk etməkdə çətinlik çəkir.

Ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda miqrasiya probleminin daha da dərinləşməsi müşahidə olunur. Hadisələrin real inkişaf axarı göstərir ki, bu gedişlə miqrasiya Ermənistanda əsl demoqrafik fəlakət yaradacaq. Hakimiyyətin bu məsələnin həlli istiqamətində atdığı addımlar isə faktiki olaraq iflasa uğrayıb. Təbii ki, müxalifət düşərgəsi ölkədən xaricə axını əsasən siyasi faktorlar ilə izah etməyə çalışırlar. Onların iddialarına görə, ermənilər ölkəni daha çox Paşinyan hakimiyyətinin repressiv siyasi kursu ucbatından tərk edirlər. Lakin bu fakt Ermənistanın tərk edilməsində birbaşa rol oynasa da, yeganə səbəb rolunu oynamır. Sabiq prezident Serj Sarkisyan Ermənistanın hər beş vətəndaşından birinin ölkəni tərk etdiyini vurğulayıb. Onun dediyinə görə, bu vəziyyət Paşinyan hakimiyyətinin xarici və daxili siyasətinin acı nəticəsidir: "Hazırda insanlar gözyaşları ilə öz ölkələrini tərk etmək məcburiyyətində qalırlar. Ölkədə demoqrafik böhran yaşanır. Hər üç vətəndaşdan biri səfalət içində yaşayır. Bu vəziyyət son iki ildə daha da ağırlaşıb. Ümumdünya Bankının dəyərləndirməsinə görə, Ermənistan əhalisinin 47,6 faizi kasıblıq həddində yaşayır. 44 günlük savaşdan sonra əhali gələcəyə ümidini itirib. İnsanlar çıxış yolunu ölkəni kütləvi şəkildə tərk etməkdə görürlər. Müharibədən sonra evlənmə azalıb, boşanma halları çoxalıb. Minlərlə uşaq doğulmayıb. Ermənistanda əsl demoqrafik fəlakət yaşanır".

Göründüyü kimi belə vəziyyət daha çox sayda insanların Ermənistanı tərk etməsinə rəvac verir. Ümumiyyətlə, qarşıdakı dövr ərzində ölkəni həlli çətin olan böyük demoqrafik problemlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# DSX-yə məxsus hərbi helikopterin qəzaya uğramasının səbəbləri açıqlanıb

## Helikopterin qəzaya uğraması ilə əlaqədar istintaq olunan cinayət işi üzrə əldə edilmiş ilkin nəticələrə dair Baş Prokurorluqda brifinq keçirilib

Dövlət Sərhəd Xidmətinə (DSX) məxsus helikopterin noyabrın 30-da təlim uçuşları zamanı qəzaya uğraması ilə bağlı istintaq olunan cinayət işi üzrə əldə olunmuş ilkin nəticələrə dair dekabrın 20-də Baş Prokurorluqda brifinq keçirilib.




AZƏRTAC xəbər verir ki, brifinqdə Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov, İstintaq idarəsinin rəis müavini, helikopter qəzası ilə bağlı yaradılan istintaq qrupunun rəhbəri Sənan Paşayev, Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi Tural Aslanov və mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, ekspertlər, mətbuat nümayəndələri iştirak ediblər.

Məlumat verilib ki, helikopterin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 14 nəfərin həlak olması, 2 nəfərin isə yaralanması faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq davam etdirilir.

Aparılmış intensiv çoxsaylı istintaq hərəkətləri, ekspertiza və digər tədqiqatlarla müəyyənləşdirilib ki, uçuş-atış təlimlərinin həyata keçirilməsi ilə əlaqədar təsdiqlənmiş plana əsasən aparıcı müəyyən edilən DSX-nin Mİ-17-1V tipli, 20136 bort nömrəli helikopteri noyabrın 30-da saat 10:16-da Səngəçal qəsəbəsində yerləşən N saylı hərbi hissədəki aerodromdan havaya qalxıb, onun ardınca təlimdə iştirak edən digər - eyni tipli, 20137 bort nömrəli helikopter havaya qalxaraq uçuşa başlayıb. Helikopterlər bir-birindən təxminən 70 metr aralı olmaqla uçuşu həyata keçirib. Aparıcı 20136 bort nömrəli helikopter 17 dəqiqə 24 saniyə uçduqdan sonra saat 10:33-də Xızı rayonu ərazisindəki Müdafiə Nazirliyinin Qaraheybət təlim mərkəzində helikopter meydançasına eniş edərkən qəzaya uğrayıb.

Aparıcı 20136 bort nömrəli helikopter enişə keçərkən həmin helikopterdə olan təlimatçı tərəfindən təlimə cəlb edilmiş digər eyni tipli helikopterin ekipaj heyətinə atış təliminin həyata keçiriləcəyi ərazidə heyvanların olub-olmamasının aydınlaşdırılması tapşırığı verilib. Həmin helikopter verilən tapşırıq üzrə istiqamətini dəyişmədən hərəkətini davam etdirərkən aparıcı helikopterin qəzaya uğramasını müşahidə etdikdən sonra saat 10:36-da eyni koordinat üzrə uğurlu eniş edib.

Bildirilib ki, qəzaya uğramış desant-nəqliyyat tipli helikopter 2012-ci ildə Rusiyanın Kazan şəhərindəki zavodda istehsal olunub və müqavilə əsasında həmin ilin sonunda DSX tərəfindən alınaraq istismara verilib. İstehsal zamanı helikopterin təchiz edildiyi uçuş parametrlərinin avtomatik qeydiyyat sistemi - qara qutu ilə müqayisədə yaddaş tutumunun həcmi və daha çox parametrlər üzrə qeydiyyat apara bilmə xüsusiyyətlərinə görə yeni müvafiq sistem 2013-cü ildə verilmiş sifariş əsasında Çex Respublikasından alınaraq istehsalçı şirkətin mütəxəssisləri tərəfindən 2015-ci ildə helikopterə quraşdırılıb. 2020-ci ilin sentyabrında müvafiq təlimata uyğun olaraq, helikopter texniki baxış və təmir üçün bağlanmış müqaviləyə əsasən, Rusiyanın Saratov vilayətindəki zavoda göndərilib. Cari ilin aprelində müvafiq texniki qulluq həyata keçirildikdən sonra helikopter ölkəyə gətirilərək istismarı davam etdirilməklə qəza baş verən günə qədər 116 saat uçuş həyata keçirib. Texniki baxış və təmirdən əvvəlki, habelə ondan sonrakı dövrdə istismar olunarkən helikopterdə hər hansı nasazlıq aşkarlanmayıb.

Məlumat verilib ki, qəza baş verən gün helikopterin uçuşu və təlimlərə cəlb edilməsi ilə əlaqədar istintaq zamanı hər hansı qanun pozuntusu müəyyən olunmayıb. Belə ki, helikopter qüvvədə olan normativ sənədlərə uyğun olaraq əvvəlcədən təsdiqlənmiş plana əsasən uçuş heyətinin tərkibi müəyyənləşdirilməklə təlimlərə cəlb edilib. Bu prosesdə də hər hansı normativ tələblərin pozulması halı aşkar olunmayıb.

Helikopterin qəzaya uğramasının səbəblərinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edən, tədqiqat üçün tam yararlı vəziyyətdə olan uçuş parametrlərinin avtomatik qeydiyyat sistemi - qara qutu hüquqi yardım haqqında sorğu əsasında Baş Prokurorluğun və Çex Respublikasının Prokurorluğunun əməkdaşlarının iştirakı ilə müvafiq istehsalçı şirkətin mütəxəssisləri tərəfindən açılıb. Uçuşa hazırlıq prosesindən qəza baş verən ana qədər bütün parametrlər üzrə məlumatlar, o cümlədən idarəetmə ilə əlaqədar qeydə alınmış səs yazıları Azərbaycan tərəfinə təqdim olunub. Helikopterin idarə edilməsi zamanı çoxsaylı parametrlər üzrə qeydə alınmış məlumatlar əsasında Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, "ASG Helicopter Services" şirkətinin peşəkar mütəxəssisləri tərəfindən verilmiş rəy, eləcə də rəydə göstərilən halları təsdiqləyən sübutlarla istintaqın hazırkı mərhələsində müəyyən edilir ki, qəzaya pilotların eniş zamanı küləyin istiqamətini və sürətini nəzərə almayaraq helikopterin istismar qaydalarına zidd olaraq idarəetmədə yol verdikləri kobud səhvlər səbəb olub.

Belə ki, ekipaj heyəti tərəfindən helikopter havaya qalxdıqdan 16 dəqiqə 59 saniyə sonra marşrut üzrə meydançaya eniş etmək qərarı qəbul edilib. Həmin vaxt helikopterin sürəti 141 kilometr-saat, radiohündürlük (yer səthindən helikopterə olan məsafə) 101 metr olub. Uçuşun 17 dəqiqə 10-cu saniyəsində küləyin istiqamətinin düzgün nəzərə alınmadan eniş prosesinə başlanılması nəticəsində helikopterin uçuş parametrlərində əhəmiyyətli dərəcədə dəyişikliklər baş verib və uçuş sürəti 0 kilometr-saat, radiohündürlük 89 metr qeydə alınıb. Bundan ötən qısa müddətdə pilotlar helikopteri qəza vəziyyətindən çıxarmaq üçün cəhd etsələr də, buna nail ola bilməyiblər.

İstintaqla müəyyən edilib ki, helikopterin qəzaya uğraması pilotların səhvi nəticəsində idarəetmədən çıxdıqdan sonra qısa zaman kəsiyində, yəni, uçuşun 17 dəqiqə 17-ci saniyəsindən 24-cü saniyəsinədək olan müddət ərzində baş verib. Helikopterin uçuş parametrlərinin avtomatik qeydiyyat sistemində olan məlumatların təhlilinə əsasən qəzanın səbəbi pilotların hündürlüyü nəzərə almadan "Şaq-Qaz" dəstəyini (aparıcı pərin ümumi addım dəstəyi) vaxtından əvvəl tam endirməsi, tanqaj bucağının (helikopterin burun hissəsinin yuxarı istiqamətdə üfüqi xəttə nəzərən dərəcəsidir) normadan çox artırılması, küləyin istiqamətinin və gücünün düzgün hesablanmaması olub ki, bu da nəticə etibarilə mühərrikin dövrlər sayının, sürətin, hündürlüyün anidən azalması ilə idarəedilməz halda olan helikopterin quyruq hissəsinin pərinin (helikopterin tarazlığını saxlamaq funksiyasını yerinə yetirir) yerə dəyərək qırılmasına səbəb olub. Daha sonra helikopterin sağ qanadında döyüş sursatının saxlanılması üçün nəzərdə tutulan hissəsi yerə dəyərək sınıb, bundan sonra sol tərəfi üstə yerə dəyərək sürüşüb, hərəkətdə olan aparıcı pərin təsirindən helikopter yerdən aralanaraq yenidən sol tərəfi üstə zərbə ilə yerə dəyib və sürtünmənin təsirindən yanacaq çənlərindən qaynaqlanan partlayış və yanğın baş verib.

Qeyd edilib ki, aparılmış ilkin məhkəmə-tibbi müayinəsinə əsasən, qəza nəticəsində həlak olmuş şəxslərin ölüm səbəbi müxtəlif dərəcəli bədən xəsarətləri alması nəticəsində yaranmış travmatik şok olub.

Qəzaya uğramış helikopterin zərbə ilə yerə dəyməsi səbəbindən helikopterin sol qapısı və alın şüşəsi yerindən çıxıb, zərbələrin təsirindən helikopterdə olan şəxslərdən 4 nəfər çölə atılıb. Onlardan 2-si aldıqları xəsarətlərin ağırlığından hadisə yerində ölüb, digər 2-si isə sağlamlığa az ağır zərərvurmaya aid müxtəlif xəsarətlər alıb.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir. İstintaqın gedişi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Kütləvi informasiya vasitələrinə, habelə sosial şəbəkə istifadəçilərinə helikopter qəzası ilə bağlı rəsmi mənbələrlə dəqiqləşdirilməmiş məlumatların yayılmasının yolverilməzliyi və bunun qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olacağı barədə xəbərdarlıq edilir.

# Baş Prokurorluq qəzaya uğrayan helikopterin düşmə anının parametrlərinin əks olunduğu fotoşəkilləri paylaşıb






Azərbaycan Respublikasının Baş Prokurorluğu Dövlət Sərhəd Xidmətinə məxsus helikopterin düşmə anının bort məlumatlarının qeydiyyatçısından - qara qutudan götürülmüş uçuş parametrlərinin əks olunduğu fotoşəkilləri təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatların təhlili helikopterin vertikal uçuş surətinin uçuş təlimatlarına zidd olaraq normadan artıq olduğunu və nəticədə helikopterin idarəçiliyinin itirilməsinə və qəzaya səbəb olduğunu göstərir.

# Ötən həftə 108 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, dekabrın 13-dən dekabrın 18-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 2, tank əleyhinə 18 mina və 166 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 108,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# "Media haqqında" yeni qanun KİV-in inkişafına təkan verəcək

Son illər informasiya texnologiyaları sahəsində ardıcıl baş verən yeniliklər, insanların informasiya alma tələbatını ödəyən mənbələrin sayının artması media sahəsində müəyyən tənzimləmələrə - fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarının yenidən müəyyən edilməsi zərurətini ortaya çıxarır.







İndiyədək "Kütləvi informasiya vasitələri haqqında" qanun media sahəsində müəyyən məsələlərin idarəedilməsi üçün hüquqi baza rolunu oynasa da, görünən odur ki, dəfələrlə dəyişdirilməsinə baxmayaraq, bu qanun müasir dövrün çağırışlarına uyğunlaşa və tənzimləyici sənəd rolunda tam çıxış edə bilmir. Dünya təcrübəsinin nəzərə alınması ilə yenidən hazırlanan "Media haqqında" qanun layihəsinin bu sahədəki bütün boşluqları dolduracağına ümid edilir.

## Qanunun icrasına nəzarəti iki qurum həyata keçirəcək

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyir ki, dövlətin media siyasətində dönüşə səbəb olan yeni yanaşmaları onu idarəçiliyin təməl dayaqlardan biri kimi qəbul etməyə və bu məqsədlə həm hüquqi bazanı yeniləməyə, həm də media strategiyasının qəbulu üçün hazırlıqları davamlılığına, aydın təsəvvürləri formalaşdımağa xidmət edir: "Ölkə rəhbəri azad mətbuat istəyir. Operativ, obyektiv və peşəkar mətbuat təkcə millətimiz üçün deyil, Prezident İlham Əliyev üçün də həyati əhəmiyyət daşıyır. İndiki rəqəmsal media əsrində heç kəs şübhə etmir ki, zəif mətbuat dövlət və millət üçün təhlükəlidir. Vətən müharibəsi göstərdi ki, mətbuat və informasiya siyasəti hərbi meydanda aparılan əməliyyatlar qədər əhəmiyyətlidir. Dövlət başçısı son 3 ildə mətbuatla təmasları ən yüksək səviyyəyə çatdırıb, kütləvi informasiya vasitələrinə 4-cü deyil, bir sıra hallarda 2-ci hakimiyyət qolutək yanaşdığını nümayiş etdirib".

"Media haqqında" qanun layihəsinin 800-dən artıq mətbuat təmsilçisinin iştirakı ilə çoxsaylı diskussiyalardan keçdiyini deyən Z.Oruc əlavə edir ki, bir sıra ölkələrdə televiziya və radio yayımına dair vahid qanunvericilik aktı var. Odur ki, Azərbaycanda da yeni layihə qəbul ediləndən sonra istər "Kütləvi informasiya vasitələri haqqında", istərsə də "Televiziya və radio yayımı haqqında" qanunlar qüvvədən düşəcək və hazırkı layihə bu sahədə hüquqi münasibətləri tənzimləyən ana qanuna çevriləcək: "Prinsipial məsələlərdən biri media subyektlərinin dairəsidir. Buraya ilk növbədə, audiovizual media subyektləri, çap və online media, o cümlədən informasiya agentlikləri daxildir. Audiovizual subyektlər deyərkən yerüstü teleradio yayımı, platforma yayımçısı və digər subyektlər nəzərdə tutulur. Qanunun icrasına nəzarəti media sahəsində səlahiyyətli orqanlar kimi həm Milli Televiziya və Radio Şurası, həm də Medianın İnkişafı Agentliyi həyata keçirəcək.

Z.Oruc qeyd edir ki, mühüm məsələlərdən biri media subyekti sayılmaq üçün nəzərdə tutulan tələblərlə bağlıdır: "Əlbəttə, deyə bilərik ki, burada vahid beynəlxalq standart yoxdur. Hər bir ölkə özünün informasiya məkanını qorumaq üçün müxtəlif tələblər irəli sürür. Layihəyə görə, media subyektinə çevrilmək hüququnun yaranması üçün təsisçi fiziki şəxs olduqda onun Azərbaycanda daimi yaşayan vətəndaş olmasıdır. Hüquqi şəxs olduqda nizamnamə kapitalında 75 faizlik üstün iştirak payı ölkəmizdə daimi yaşayan vətəndaşlara və ya qeydiyyatdan keçən hüquqi şəxslərə mənsub olmalıdır. Oxşar müddəalar Avropa Birliyinə daxil olan ölkələrdə də mövcuddur. Növbəti məsələ lisenziyalaşma ilə bağlıdır. Lisenziya çap və digər növ media qurumlarına deyil, yalnız audiovizual subyektlərə aid olduğundan layihədə hansı növ icazə sənədlərinin alına biləcəyi dəqiq göstərilib".

## "Çox istərdik ki, jurnalistlərə imtiyazların verilməsi təklifi anlayışla qarşılansın"

Z.Oruc əlavə edib ki, redaksiya materiallarının saxlanılması, audiovizual proqramların auditoriya həcminin ölçülməsi, çapolunma tezliyinə və ərazi dairəsinə görə qəzetlərin dövriliyi, fəaliyyətlərinin və məhsullarının hansı hallarda məhkəmə qərarı ilə dayandırılmasına dair müddəalar qanun layihəsində əksini tapıb. Prinsipial məqamlardan biri media subyektlərinin reyestrinin vahid qurumda həyata keçirilməsidir: "Ölkəmizdə müxtəlif sahələrdə reyestrləşdirmə aparılır. Bu, bir tərəfdən etibarlı Data Bazanın formalaşmasına xidmət edir, digər tərəfdən münasibətlərə hüquqi xarakter verir və müxtəlif sosial, iqtisadi, yaxud digər imtiyazların əldə olunması üçün etibarlı platformanın yaradılmasına kömək edir. Burada keçmiş Mətbuat və İnformasiya Nazirliyinin səlahiyyətlərinin bərpasından əsla söhbət getmir. Reyestrdə olmayan media təmsilçilərinin jurnalist sayılmayacağı haqqında heç bir müddəa yoxdur, olması da gözlənilmir. Jurnalist vəsiqəsinin alınmasına dair meyarlar beynəlxalq təcrübədə özünü göstərən prinsiplərə tam uyğundur. Ən başlıcası, jurnalistin azad fəaliyyəti üçün qanuni fəaliyyətlərinə görə təqib edilməməsi və təzyiq göstərilməməsi, qanunsuz müdaxilənin yolverilməzliyi layihənin əsas müddəaları sırasındadır. Lakin biz Milli Məclis təmsilçisi kimi çox istərdik ki, dövlət orqanları jurnalistlərə müxtəlif imtiyazlar təklif edən parlament üzvlərinin mövqeyini anlayışla qarşılasın və onlara ictimai nəqliyyatdan pulsuz istifadə, yaxın gələcəkdə sosial ipoteka və vergi güzəştlərinin verilməsi təkliflərini qəbul etsinlər. Söhbət büdcə yükü heç 1 milyona çatmayan məbləğdən gedir".

## Reyestrə daxil olan jurnalistlər imtiyazlardan yararlana biləcəklər

"525-ci qəzet"in baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Rəşad Məcid deyir ki, son illər medianın əhatə dairəsi həddindən artıq genişlənib. Onun sözlərinə görə, hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri" haqqında qanun yeni texnologiyaların sürətindən xeyli geri qalır, zamanın tələbinə cavab vermir. İnternetin inkişafı, onlayn medianın yaranması, audiovizual medianın ortaya çıxması və bu istiqamətdə sürətlə gedən proseslər "Media haqqında" yeni qanunun qəbul edilməsini şərtləndirdi: "Sözün düzü, son illər media sahəsində yaranmış xaotik vəziyyətdən hansı yolla çıxmağın mümkünlüyü məsələsi peşəkar jurnalistləri çox düşündürür. Bu baxımdan hesab edirəm ki, Medianın İnkişafı Agentliyinin rəhbərliyi, bu qanun layihəsini hazırlayan insanlar, doğrudan da, böyük əziyyət çəkiblər. Qanun layihəsi geniş şəkildə müzakirə olunub. Mən özüm də bir neçə müzakirədə iştirak etmişəm. Təkliflərə tam açıq olan layihə üzərində ayrı-ayrı qabaqcıl dünya ölkələrinin təcrübəsini nəzərə almaqla gərgin iş aparılıb".

Qanun layihəsində bir sıra məsələlərə aydınlığın gətirilməsi qənaətində olan baş redaktor bildirir ki, bu gün jurnalist adına iddialı çox insanlar var. Bir çox sosial şəbəkə istifadəçiləri, blogerlər, audiovizual media ilə məşğul olanlar bu ada iddia edirlər. Ona görə də "Jurnalist kimdir?" sualını konkret cavablandırmaq zərurəti yaranıb. Yeni qanun layihəsində bunun təfsiri verilib. Layihədə aydın şəkildə göstərilir ki, jurnalist informasiya istehsalı ilə məşğul olan və bununla gəlir əldə edən şəxsdir. Layihəyə görə, vahid jurnalist vəsiqəsi əldə etmək istəyən hər bir şəxs media reyestrindən keçməlidir: "Düzdür, media reyestrinə daxil olmadan da jurnalist fəaliyyəti göstərmək mümkün olacaq, amma media reyestrinə daxil olan şəxs həm indi, həm də gələcəkdə dövlətin media ilə bağlı verdiyi imtiyazlardan bəhrələnmək imkanı qazanacaq. Mediaya hansısa dövlət dəstəyi, jurnalistlərlə bağlı nəzərdə tutulan hansısa imtiyazlar olacaq ki, reyestrə daxil olan jurnalistlər bunlardan yararlana biləcəklər. İndi müzakirələr gedir ki, jurnalistlərin ictimai nəqliyyatdan, mədəniyyət müəssisələrinin xidmətindən ödənişsiz istifadəsi təmin olunsun. Bu baxımdan jurnalistlərin müəyyən bir əhatə dairəsi müəyyənləşdirilməlidir".

Türkiyə təcrübəsinə toxunan R.Məcid həmin ölkədə jurnalistlərin "sarı kart"dan istifadə etdiyini, Azərbaycanda da bunun tətbiq olunmasını istədiyini bildirib. Onun sözlərinə görə, bu karta sahib jurnalistlər müxtəlif imtiyazlardan bəhrələnirlər. Amma bu, o demək deyil ki, kiminsə jurnalist kimi fəaliyyətinə sərhədlər, çərçivələr qoyulacaq. Vahid jurnalist vəsiqəsinə sahib olmayanlar öz fəaliyyəti ilə yenə də məşğul ola biləcəklər. Sadəcə, dövlət bu yolla mətbuatla bağlı öz siyasətini və jurnalist kateqoriyasına daxil olan insanların əhatə dairəsini müəyyənləşdirəcək. Bu dairənin müəyyən sosial və digər imtiyazları da olacaq. Bu isə sözsüz ki, jurnalist adına iddiası olanları da bu qanun əsasında fəaliyyət göstərməyə sövq edəcək.

R.Məcid yeni qanun layihəsində sosial şəbəkələrlə bağlı tənzimlənmələrin yer almadığını vurğulayaraq əlavə edir ki, layihədə media subyektlərinə ənənəvi media - çap mediası, yeni veb saytlar və audiovizual media şamil olunur: "Tez-tez müzakirə edilən məsələlərdən biri də odur ki, müxtəlif "youtube" kanallarının, TV adına iddialı kanalların fəaliyyəti necə tənzimlənəcək? Nəzərdə tutulur ki, gələcəkdə audiovizual media üçün bir şura yaradılsın və televiziya kimi fəaliyyət göstərəcəkləri halda bu kanallar üçün xüsusi şərtlər müəyyənləşdirilsin. O şərtlərə əməl edib fəaliyyət göstərən kanalların fəaliyyətini isə Milli Televiziya və Radio Şurası tənzimləyəcək".

"Media haqqında" yeni qanun layihəsini indiki mərhələ üçün ən optimal variant hesab edən baş redaktor bu qanun qəbul olunduqdan sonra da lazım gələrsə ona dəyişikliklərin edilə biləcəyini mümkün sayır. R.Məcidin fikrincə, dünyada baş verən sürətli texnoloji inkişaf medianın formalarına təsir göstərdiyi üçün üç-beş ildən sonra yeni qanuna da müəyyən dəyişikliklər edilə bilər.

## Müstəqil çalışan jurnalistlərin hüquqları tanınacaq

Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyir ki, onlayn media sahəsində böyük inkişaf olsa da, indiyə qədər Azərbaycanda onun tənzimlənməsi, hüquqi statusunun tanınması, strukturlaşması qanunla tənzimlənməyib. "Media haqqında" yeni qanun layihəsi onlayn medianın fəaliyyətinin hüquqi tənzimlənməsi baxımından mühüm sənəddir. Çoxsaylı yeniliklərlə zəngin olan qanun layihəsi məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi sənəddir.

Layihədəki çoxsaylı müsbət məqamların Azərbaycan praktikasında ilk dəfə tətbiq ediləcəyini nəzərə çatdıran M.Ələsgərli bəzi şəxslərin layihə barəsindəki iradlarının yanlış olduğunu da söyləyir. Onun fikrincə, layihə barədə düzgün fikir yürütmək üçün onu sonadək oxumaq, oradakı yeniliklərin mahiyyətini dərk etmək lazımdır. Yeniliklərin mahiyyətini dərk edənlər sonda onlarla razılaşmalı olacaqlar: "Məsələnin ikinci tərəfi odur ki, bəziləri məhz gündəmdə qalmaq üçün tənqid yolunu seçiblər. Diqqət etsəniz görərsiniz ki, həmin tənqid edənlər qanunu heç sona qədər oxumayıblar. Qanunu sona qədər oxumadan onun barəsində tənqidi fikirlər səsləndirmək olar?! Layihə təkliflər üçün açıqdır, kiminsə hansısa təklifi varsa, onu təqdim edib tətbiqinə nail ola bilər. Bu şəraitlər daxilində təkliflərlə deyil, tənqidlərlə çıxış etmək artıq o şəxslərin başqa düşüncələrdə olmasına dəlalət edir".

M.Ələsgərli nəzərə çatdırır ki, internet mediasının sürətli inkişafından sonra Azərbaycanda "freelancer", yəni sərbəst çalışan jurnalistlərin sayı bir qədər artsa da, onların hüquqlarının tanınmasında çətinliklər vardı. Bu problem pandemiyanın sərt karantin rejiminin tətbiq olunduğu dövrdə özünü daha kəskin büruzə verdi: "Jurnalistlərə hərəkət azadlığı verilsə də, müstəqil jurnalistlər bundan yararlana bilmirdilər. Həmin vaxt Mətbuat Şurası Nazirlər Kabinetinə müraciət edərək həmin jurnalistlər üçün də şərait yaratmasını xahiş etdi. Layihədə "freelancer" jurnalistlərin hüquqlarının tanınması çox müsbət məqamdır. Bu layihə müəyyən çətinliklərlə üzləşən "freelance" jurnalistlərin problemini aradan qaldırır. Azərbaycanın yeni tətbiq edəcəyi bu praktika Avropa üçün də nümunədir".

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# *Dövlət Komissiyası:* "Avropa İttifaqının vasitəçiliyi ilə daha 10 erməni hərbi qulluqçu qarşı tərəfə təhvil verilib"

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın üçtərəfli görüşünün, habelə Azərbaycan Respublikası Prezidenti ilə Avropa İttifaqı Şurasının prezidenti arasında keçirilmiş ikitərəfli görüşün nəticəsi olaraq, humanizm prinsiplərinə sadiqliyinin təzahürü kimi Azərbaycan Respublikası dekabrın 19-da 10 nəfər erməni əsilli hərbi qulluqçunu Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistan tərəfinə təhvil verib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, təhvil verilmiş şəxslər 2021-ci il noyabrın 16-da Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılıblar. Humanizm prinsiplərinə daim sadiqliyini nümayiş etdirən Azərbaycanın dekabrın 4-də qarşı tərəfə təhvil verdiyi 10 nəfər erməni əsilli hərbi qulluqçudan Ermənistan tərəfi sonradan dördünü həbs edib, altısına qarşı isə ittiham irəli sürüb.

Elm xadimləri

# Ziyalı ömrünün dəyəri



Bəlkə doğulduğu torpağın - Azərbaycana dəyərli ziyalılar, dünya şöhrətli alimlər bəxş etmiş gözəl Ordubadın təmiz havasından, saf suyundandır ki, ömür payını zəhmətlə, elmlə, şərəflə, işıqla yaşamaq yolunu seçdi Rafik Məmmədov. O, çoxlarından fərqli olaraq sadəyə, asana qane olmadı. Səmimiyyətini qoruya-qoruya elmin alimi olmaq üçün nahamar yollarda əziyyətlərə qatlaşdı, ən aşağı pillələrdən addım-addım zirvəyə doğru irəlilədi. Qatlaşdıqca, tablaşdıqca ziyası artdı, sevgisi çoxaldı - Vətənə, millətə, dostlara, qohum-qardaşa, tələbələrinə, ailəsinə... Bu zaman sevənləri də artdı - görkəmli alim, dəyərli ziyalı, sədaqətli dost, müəllim kimi... Həm də qayğıkeş ata, mehriban ailə başçısı kimi sevdilər Rafik müəllimi...

Mayasında zəhmət dayanan hər iş, hər mövqe dəyərlidir. Ancaq elə sahələr də var ki, orada gördüyün işin qiyməti ölçüyə gəlməz qədər böyükdür, əldə etdiyin hər uğurdan həm də dövlət, millət, xalq faydalanır, bir vasitə ilə hər evə çatır xeyrindən. Uca Yaradanın ana təbiətin əli ilə bizə əvəzsiz sərvət olaraq bəxş etdiyi "qara qızıl"ımızı, mavi yanacağımızı istismar etmək, dövlətimizin və hər birimizin mülkiyyətinə çevirmək peşəsində çalışmaq, neftçi olmaq belə sahələrdəndir. Məhz bu sahənin çalışanı - fəhləsi, vəzifəlisi, alimi oldu 85-ci yaşını yola salmağa hazırlaşan Rafik müəllim...

Rafik Mirağa oğlu Məmmədov 1936-cı il dekabr ayının 25-də Ordubad rayonunun Vənənd kəndində müəllim ailəsində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) İstehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinə daxil olub, əvvəlcə əyani, sonra isə qiyabi (istehsalatda işləməklə) təhsilini davam etdirib. 1963-cü ildə institutu bitirərək mühəndis-elektrik ixtisasına yiyələnib. Əmək fəaliyyətinə 1961-ci ildə Bakı Elektrik Maşınqayırma Zavodunda (BEMZ) fəhlə kimi başlayıb. 15 il burada çalışaraq fəhləlikdən zavodun Metrologiya və ölçmə texnikası şöbəsinin rəhbəri vəzifəsinə qədər yüksəlib.

R.Məmmədov işlədiyi hər bir sahədə elmi yanaşmaya üstünlük verib, istehsalatda çalışanların əməyinin yüngülləşdirilməsi, istehsalın artırılması və məhsulun keyfiyyətinin yüksəldilməsi üçün daim elmi axtarışlar aparıb.

1976-cı ildə "Neftkimyaavtomat" Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olub, 1981-ci ildə "Alkilbenzin isehsalında propan rektivikasiya kalonunun həyəcanlandırıcı təsirə görə optimal idarəetmə sisteminin tədqiqi və işlənməsi" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Dissertasiya mövzusu neft-kimya proseslərinə həsr olunduğu üçün alim 1982-ci ildə Yeni Bakı Neftayırma Zavoduna (indiki Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu) işə qəbul olunaraq əmək fəailiyyətini burada davam etdirib. R.Məmmədov 27 il ərzində (1982-2009) zavodun İnformasiya Hesablamaları Mərkəzinin (İHM) rəis müavini, rəisi, direktorun müavini vəzifələrində çalışıb.

Rafik müəllim İHM-in rəisi işləyərkən müəssisənin və texnoloji proseslərin avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması və tətbiqi üçün xeyli əmək sərf edib, ən mütərəqqi üsulların zavoda gətirilməsinə çalışıb. Məhz bu fəaliyyətin nəticəsi olaraq zavodda çoxsəviyyəli lokal kompüter hesablama şəbəkələri (LKHŞ) yaradılmış və bunun sayəsində istehsalatın müasir tələblər səviyyəsində idarə olunmasına geniş imkanlar açılmışdır. Belə ki, LKHŞ vasitəsilə kompüter parkından, onların proqram və informasiya resurslarından daha səmərəli istifadə önə çəkilmişdir. O zaman R.Məmmədovun və rəhbərlik etdiyi İHM-in kollektivinin böyük əməyi sayəsində müəssisənin müxtəlif bölmələrinin internetə daxil olması ilə beynəlxalq informasiya mərkəzlərinin resurslarından da istifadə etməyə şərait yaranmışdır.

R.Məmmədovun elmi istiqaməti əsasən mürəkkəb texnoloji proseslərin idarə olunması, optimal rejimlərin seçilməsi, böyük sistemlər üçün avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması olduğundan öz elmi ideyalarını və təcrübəsini zavodun koordinasiya edilən intellektual idarəolunmasına yönəltmiş, nəticədə Yeni Bakı Neftayırma Zavodu idarətmə və informasiya emalı baxımından nümunəvi bir mərkəzə çevrilmişdir.

Rafik müəllim elmi işləri davam etdirməklə yanaşı, eyni zamanda tədris proseslərinin təşkilinin də fəal iştirakçısı olub. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) və Heydər Əliyev adına Neft Emalı Zavodunun birgə əmri əsasında tələbələrin istehsalatla yaxından təmasda olması üçün zavodun nəzdində İHM-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin üç kafedrasının ("İstehsalat proseslərinin avtomatlaşdırılması", "İnformasiya ölçmə və hesablama texnikası" və "Avtomatlaşdırılmış idarəetmə sistemləri") filialları açılandan Rafik müəllim bu kafedraların hər üçündə və eyni zamanda uzun müddət ADNA-da müəllim kimi çalışmış, mühazirələr oxumuşdur. Elmi-pedoqoji fəaliyyətinə görə 1989-cu ildə ona İnformasiya ölçmə və hesablama texnikası kafedrasının dosenti elmi adı verilmişdir.

R.Məmmədov uzun illər ADNA-da müdafiə üzrə Elmi Şuranın üzvü, avtomatlaşdırılmış idarəetmə sistemləri üzrə dövlət attestasiya komissiyasının sədri olmuşdur.

O, avtomatlaşdırma və hesablama texnikası sahəsində dünyada aparılan elmi işlərlə də tanış olmuş, çoxsaylı beynəlxalq konfranslara qatılaraq Almaniya, İtaliya, İspaniya, Finlandiya və Türkiyədə maraqlı məruzələrlə çıxışlar etmiş, eyni zamanda bu elmi yeniliklərin işlədiyi zavodda tətbiqinə nail olmuşdur.

R.Məmmədov ölkədə ictimai-siyasi proseslərdən də kənarda qalmamışdır. 1993-cü ildə təsis konfransında Yeni Azərbaycan Partiyasının (YAP) Nizami rayonu Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu ərazi ilk partiya təşkilatının sədri seçilən Rafik müəllim 16 il (1993-2009) bu vəzifədə çalışmışdır.

2009-cu ildən təqaüddə olsa da, tanınmış alim bu gün də ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir. Onun neft sənayesində çoxillik səmərəli fəaliyyəti dövlətimizin də diqqətindən kənarda qalmayıb və Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

...Tanrının bəxş etdiyi ömür payından yola saldığımız hər il bizi bir az da yaşlandırdığı, müdrikləşdirdiyi, eyni zamanda ucaltdığı kimi, həyatda tutduğumuz yolla, yaşadıqlarımızla o illəri də biz dəyərə mindiririk. Və nə vaxtsa ötən illərimizin hesabatını verəndə ya mənasız keçirdiyimiz günlərin acısına üzülür, ya da "boşuna yaşamamışam" - deyə əldə etdiklərimizlə, qoyduğumuz irslə qürurlanırıq. 85 yaşını haqlamış sadə insan, gözəl ziyalı və alim Rafik Məmmədov kimi.

***Telman ƏLİYEV,***
***akademik***

Unudulmazlar

# Şəhid general



Qarabağın unudulmaz şəxsiyyətlərindən biri də ötən əsrin əvvəllərində Azərbaycan Milli Ordusunun yaradılmasında müstəsna xidmətləri olmuş hərbçi Süleyman bəy Əfəndiyevdir. O, çar ordusunun sıralarından polkovnik rütbəsində tərxis olunduqdan sonra yeni yaradılan Azərbaycan Ordusu üçün təlimatçılar hazırlayan ilk komanda təşkil etmişdir.

Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev 1864-cü il oktyabrın 5-də Ağdamda anadan olub. İlk təhsilini Gəncədə progimnaziyada alıb. 16 yaşlı Süleyman təhsilini davam etdirmək üçün 1880-ci ildə Ukraynaya gedir və Yelizavetqrad Süvari Məktəbinə daxil olur. Həmin məktəbi 1885-ci ildə müvəffəqiyyətlə başa vurur. S.Əfəndiyev Qafqaz Süvari Ordusunun polis nəzarəti idarəsində xidməti fəaliyyətə başlayır və iki il sonra, mayın 18-də ona kornet (leytenant) rütbəsi verilir, 1900-cü ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilir. Eskadron komandiri olan S.Əfəndiyev 1899-cu il martın 15-də çar ordusunun atlı qoşun hissəsində və jandarmeriyada kapitana bərabər olan rotmistr rütbəsinə yüksəlir, ona kavaler fəxri adı verilir. Nümunəvi xidmətlərinə görə "Müqəddəs Anna" ordeninin 2-ci və 3-cü, "Müqəddəs Vladimir" ordeninin 3-cü dərəcələri ilə mükafatlandırılır.

Xidmət yeri bir neçə dəfə dəyişdirilən Süleyman bəy 1907-ci il fevralın 28-dən Kutaisi quberniyası üzrə polis-keşikçi dəstəsinə baş nəzarətçi təyin olunur. Tez-tez Qori Müəllimlər Seminariyasına gələn S.Əfəndiyev burada təhsil alan azərbaycanlı tələbələrin güzəranı ilə maraqlanır, onlardan maddi köməyini əsirgəmir. Görkəmli maarifçi, ədəbiyyatşünas Firidun bəy Köçərli və Səfərəli bəy Vəlibəyovla dostlaşır,Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak edir.

Peşəkarlığı və qüsursuz xidmətləri nəzərə alınaraq S.Əfəndiyevə 1912-ci il dekabrın 6-da 48 yaşında polkovnik rütbəsi verilir.

Rusiyada 1917-ci il fevral inqilabından sonra Süleyman bəy Əfəndiyev həyatını Azərbaycanda milli ordu quruculuğuna həsr edib.

Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında 1917-ci il dekabrın 5-də imzalanmış barışıqdan sonra Qafqaz cəbhəsindəki rus qoşunları geri çəkilir. Bu zaman Zaqafqaziya Komissarlığı 1917-ci il dekabrın 19-da Qafqazdakı rus ordusunun buraxılmasına dair əmr verir, rus hərbi hissələrinin bazasında gürcü, erməni, Azərbaycan və rus milli korpuslarının yaradılması qərara alınır. Dünyanın bu qarmaqarışıq günlərində S.Əfəndiyev Tiflisdəki rəhbərliyini razılığa gətirərək komandiri olduğu alay üçün nəzərdə tutulmuş əmlakın çox hissəsini Gəncəyə çatdırır, qərargaha xeyli avadanlıq və ərzaq verir.

Rus ordusu buraxılarkən Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə göndərilən polkovnik S.Əfəndiyev ilk günlərdən azərbaycanlılardan ibarət könüllü silahlı dəstələrin təşkilinə başlayır. AXC Hərbi Nazirliyi yaradılanda polkovnik S. Əfəndiyev Tərtərdə yerləşən 2-ci Qarabağ Süvari Alayının komandiri olur. Müsəlman korpusunun komandiri Əliağa Şıxlinski tərəfdaşları ilə söhbətlərdə milli ordunu yarada biləcək iki nəfərin adı gündəmə gəlir. Ə. Şıxlinski tərəddüd etmədən S.Əfəndiyevi qonaq çağırır, milli ordunu birgə qurmağın razılığını alır. Polkovnik S.Əfəndiyev peşəkar hərbçi olaraq Gəncədə ilk hərbiyyə məktəbinin və Gəncə Süvari Alayının yaradılmasına nail olur, hərbi kurslar açır, Rusiyadan sürgündən dönmüş Türkiyə Ordusunun zabiti Hüsaməddin Tuğacın iştirakı ilə Gəncənin yaxınlığındakı Zazallı yaşayış məntəqəsinin ətrafında təlim meydançaları yaradır. Azərbaycan Ordusu üçün 150 nəfərdən ibarət ilk təlim komandasını təşkil edir.

S.Əfəndiyevin fəaliyyəti milli hökumət rəhbərliyi və hərbi nazir S.Mehmandarovun diqqətində idi. Hərbi nazir S.Mehmandarovun təqdimatına əsasən AXC Nazirlər Şurasının qərarı ilə o, general-mayor rütbəsinə layiq görülür və birinci piyada diviziyasının başçısı təyin edilir. S.Əfəndiyev AXC tərəfindən general-mayor rütbəsi almış ilk hərbçi olmuşdur.

1919-cu il yanvarın 7-dən S.Əfəndiyev AXC ordusunun 1-ci piyada diviziyasının komandiri olaraq özünəməxsus işgüzarlıqla bu diviziyanın formalaşdırılmasına çalışır. Ağdamda ilk dəfə pulemyotçuluq üzrə kiçik zabitlər məktəbi yaradır. Bu məktəblərdə zabitlər əsgərlərlə birlikdə çalışır, həm öyrənir, həm də öyrədirdilər. General S. Əfəndiyev əlinə bir dəfə də olsun silah almayan gənc əsgərlərə şəxsən özü təlim keçir. S.Əfəndiyev qısa müddətdə alayı əsl hərbi hissə kimi formalaşdırır. Xatırladaq ki, Azərbaycan hökuməti üçün bu diviziyanın təşkilatlanması böyük əhəmiyyət kəsb edirdi. Çünki bu diviziya Qarabağda erməni təcavüzkarlığının qarşısını almaq üçün əsas qüvvə kimi nəzərdə tutulurdu.

Hərbçi əzmkarlığı və işgüzarlığı sayəsində S.Əfəndiyev korpusun 2-ci atıcı diviziyasının 5-ci atıcı alayının komandiri təyin olunur, bir müddət diviziya komandirinin vəzifələrini icra edir. Təəssüf ki, milli ordu quruculuğuna böyük töhfələr verən general S.Əfəndiyev vəzifə başında yoluxduğu səpməyatalaq xəstəliyindən 1919-cu il fevralın 21-də 54 yaşında Ağdamda vəfat edir.

Fevralın 24-də S.Əfəndiyevin tabutu Gəncə vağzalına gətirilir. Həyat yoldaşı Ləndar xanımın xahişi ilə S.Əfəndiyev Qazaxda dəfn edilir. Vəfatı ilə əlaqədar hərbi nazir, artilleriya generalı S.Mehmandarov, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nağı bəy Şeyxzamanlı, Şəfi bəy Rüstəmbəyli və digər siyasi xadimlər dövri mətbuatda verdikləri başsağlıqlarında general-mayor S.Əfəndiyevi tanınmış ictimai xadim, Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı kimi dəyərləndirərək onun xalqımız və ordumuz üçün böyük itki olduğunu bildirmişlər.

General S.Əfəndiyevin xatirəsi Azərbaycan xalqının qəlbində böyük ehtiramla yad edilir. Hazırda Qazax şəhərindəki 1 saylı orta məktəb Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı general S.Əfəndiyevin adını daşıyır.

***R.SALMANLI,***
***"Azərbaycan"***

# Şamo Abasov «Xalq əmanəti» layihəsində

"Xalq Bank" "Xalq əmanəti" layihəsinin iyirmi birinci nəşrində görkəmli Azərbaycan rəssamı Şamo Abasovun (1955-2014) yaradıcılığına müraciət edib. Dekabrın 17-də "Xalq Bank"ın rəsm qalereyasında Şamo Abasovun bədii albomunun təqdimatı və əsərlərindən ibarət sərginin açılış mərasimi keçirilib.




Bədii albomda rəssamın çoxsaylı keramika, qrafika və rəngkarlıq işləri yer alıb, onun həyat və yaradıcılığı əks olunub. Şamo Abasov 1955-ci ildə Cəbrayıl şəhərində anadan olub. 1970-74-cü illərdə Ə.Əzimzadə adına Dövlət İncəsənət Məktəbini bitirən Şamo 1978-84-cü illərdə V.Muxina adına Leninqrad Ali Rəssamlıq-Sənaye Məktəbinin Keramika fakültəsində təhsil alıb. 1986-cı ildən Azərbaycanın və SSRİ-nin Rəssamlar ittifaqlarının üzvü olub.

Şamo Abasov müasir Azərbaycan rəssamlıq məktəbində özünəməxsus dəst-xəti olan sənətkarlardandır. O, yaradıcılıq yolunun əvvəlində dekorativ keramika ilə məşğul olub. İştirak etdiyi beynəlxalq yaradıcılıq qruplarında, simpozium və sərgilərdə nümayiş olunan əsərləri ilə seyrçilərin rəğbətini qazanıb, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib. İllər sonra sevdiyi sənətə - rəngkarlığa qayıdır və rəssam Şamo Abasov kimi daha böyük şöhrət qazanıb.

Rəssamın tablolarında illüziyalar, sirli xülya və xatirələrlə bol bir dünya əks olunub. Onun əsərləri milli koloritlə nəfəs alıb. Yaradıcılığının vizit kartına çevrilmiş Abşeron tipajları, qadın obrazları, özünəməxsus yumor və ironiyaya malik xeyirxah, gülərüz və bir qədər sadəlövh personajları seyrçini rəssamın abstrakt və sirli dünyasına səyahətə aparır. Şamo Abasov qısa, lakin son dərəcə məhsuldar bir həyat yaşayıb. Rəssam 7 may 2014-cü ildə Bakıda vəfat edib.

Rəssamın əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Rəsm Qalereyası, Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi, Dövlət Tretyakov Qalereyası, Beynəlxalq Rəssamlar Konfederasiyası, Ştiqlits adına Tətbiqi İncəsənət Muzeyi, Beynəlxalq Keramika Muzeyi, Azərbaycanın xaricdəki nümayəndəlikləri, eləcə də yerli və xarici kolleksiyalarda qorunur.

"Xalq əmanəti" layihəsi "Xalq Bank"ı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar üç dildə - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Ötən zaman ərzində Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinovun, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilmiş və bədii albomlar nəşr olunmuşdur. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqubun, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin, dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görmüşdür.

***"Azərbaycan"***

# Bakı və Abşeronda "Kənddən Şəhərə" Yeni il yarmarkaları keçirilir




Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təşkil olunan "Kənddən Şəhərə" Yeni il yarmarkası dekabrın 20-dən fəaliyyətə başlayıb.

AZƏRTAC xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və bayram ərəfəsində şəhər sakinlərinin kənd təsərrüfatı və qida məhsullarına olan tələbatlarını təbii məhsullarla dolğun şəkildə qarşılamaqdır.

"Kənddən Şəhərə" Yeni il yarmarkası karantin rejiminin tələblərinə tam əməl olunmaqla keçirilir. Belə ki, yarmarkanın təşkil olunduğu ərazilərdə əvvəlcədən dezinfeksiya işləri aparılıb, həmçinin yarmarkanın fəaliyyəti boyunca tibbi-profilaktik vəziyyətə, o cümlədən vətəndaşlar arasında sosial məsafənin saxlanılmasına xüsusi nəzarət ediləcək. Mütəmadi olaraq fermerlərin və yarmarkanı ziyarət edən vətəndaşların temperaturları ölçüləcək, onlar zəruri tibbi ləvazimatlarla (tibbi maska, əlcək, spirt və s.) təmin olunacaqlar.

Qeyd edək ki, "Kənddən Şəhərə" Yeni il yarmarkasında iştirak tamamilə ödənişsizdir. Burada fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi və digər ləvazimatlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edirlər. Məhsullarının daşınmasında çətinlik yaşayan fermerlərə isə təşkilatçı qurum tərəfindən logistika dəstəyi göstərilib.

"Kənddən Şəhərə" yarmarkası dekabrın 30-dək Bakı və Abşeron ərazisində 3 fərqli ünvanda vətəndaşların xidmətində olacaq: Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının yanı), Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, 5B ("İnqilab" kinoteatrının yanı), Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A.

Yarmarkalarda əvvəlcədən qeydiyyatdan keçmiş 100-ə yaxın fermer öz təsərrüfatlarının məhsulları ilə iştirak edirlər.

# Rusiyada uzun müddət qalmağı planlaşdıran əcnəbilərlə bağlı yeni qaydalar qəbul edilib

Rusiyaya gələrkən icbari daktiloskopiyadan və tibbi yoxlanışdan keçməkdən və şəkil çəkdirməkdən imtina edən əcnəbilərin bu ölkədə qalma müddəti azaldılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Daxili İşlər Nazirliyinin əmri dərc olunub.

Həmçinin əmək miqrantlarında və əcnəbilərdə təhlükəli infeksiyalar aşkar edilərsə və ya onların narkotik istifadəçisi olduğu üzə çıxarsa, bu halda da həmin şəxslərin ölkədə qalma vaxtı qısaldılacaq.

Əmr yanvarın 29-dan qüvvəyə minir. Həmin gündən etibarən Rusiyaya gələn əmək miqrantları və bu ölkədə uzun müddət qalmağı planlaşdıran əcnəbi vətəndaşlar icbari olaraq daktiloskopiyadan, tibbi yoxlamadan keçməli və şəkil çəkdirməlidirlər.

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 577 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 577 yoluxma faktı qeydə alınıb, 672 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 610 min 895 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 587 min 338 nəfər müalicə olunaraq sağalıb, 8 min 208 nəfər vəfat edib. Aktiv xəstə sayı 15 min 349 nəfərdir.




Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 min 777, bu günə qədər isə ümumilikdə 5 milyon 757 min 381 test icra olunub.

# Azərbaycanda COVID-19 əleyhinə vurulan peyvənd dozalarının ümumi sayı 11 milyon 66 min 951-dir

Dekabrın 20-də Azərbaycanda 77 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 5 nəfər, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 49 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı isə 23 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 11 milyon 66 min 951, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 140 min 918, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 641 min 918 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 1 milyon 284 min 115 nəfər təşkil edir.



# "Azercell"in prezidenti: "Əsas məqsədimiz rəqəmsal mühitə qoşulmanı asanlaşdırmaqdır"

## "Azercell Telekom" MMC-yə STEVIE Beynəlxalq Biznes Mükafatlarının Qızıl mükafatı təqdim olunub

Beynəlxalq Biznes Mükafatları nüfuzlu STEVIE mükafatının qaliblərinə təqdimat mərasimi keçirib.




Azərbaycanın lider mobil operatoru "Azercell Telekom" MMC-nin nailiyyətləri STEVIE Beynəlxalq Biznes Mükafatlarının münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Xatırladaq ki, "Azercell" Əşyaların İnterneti (IoT) texnologiyaları əsasında az enerji tələbatlı sensorlar konsepsiyasının tətbiqi üzrə hazırlıq səviyyəsinə görə "İlin ən innovativ şirkəti" nominasiyası üzrə Qızıl mükafata layiq görülüb.

Mükafatın virtual təqdimat mərasimində çıxış edən "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalova bu yüksək etimad üçün münsiflər heyətinə təşəkkürünü bildirib. Z.Zeynalova Azərbaycanda Əşyaların İnterneti əsasında az enerji tələbatlı sensorlar konsepsiyasını tətbiq edən ilk şirkətin "Azercell" olduğunu vurğulayıb: "Əşyaların İnterneti texnologiyasının təklif etdiyi geniş imkanlardan yararlanaraq daha rahat, rəqəmsal mühitə qoşulmanı asanlaşdırmaq və beləliklə, innovativ həlləri abunəçilərimiz üçün əlçatan etmək prioritet məqsədlərimiz sırasındadır. "Azercell Telekom" ölkə Prezidentinin çağırışına əsasən, işğaldan azad olunmuş ərazilərdə "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının gerçəkləşməsi üçün dövlət proqramına dəstək verməyə hazırdır. Böyük qürur hissi ilə vurğulamaq istərdim ki, "Azercell" bu ərazilərdə mobil kommunikasiya infrastrukturunun quraşdırılmasına başlayan ilk şirkətdir".

Dünya işgüzar aləmində ən mötəbər mükafatlardan biri olan STEVIE Beynəlxalq Biznes Mükafatlarının sahibləri 200-dən çox nüfuzlu biznes eksperti, şirkət sahibi və iş adamlarından ibarət beynəlxalq münsiflər heyətinin səsverməsi nəticəsində seçilir. Builki seçim zamanı ekspertlər "Azercell"in ölkədə keçirdiyi bir sıra əhəmiyyətli layihə və təşəbbüsləri, insanların həyat keyfiyyətinin daha da yaxşılaşdırılması naminə texnoloji yeniliklərin tətbiqi istiqamətindəki səylərini qiymətləndiriblər.

Hazırda 5 milyondan çox abunəçinin seçimi olan "Azercell Telekom" MMC ölkədə ilk olaraq "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində istifadə ediləcək qurğuların internet bağlantılarının təmin olunması üçün lazım olan şəbəkə infrastrukturunu sınaqdan keçirərək hazır vəziyyətə gətirib.

Azərbaycanın kommunikasiya sektorunda ilk dəfə "Big Data" texnologiyasını tətbiq edən "Azercell Telekom" MMC kommunikasiya dünyasının ən son yeniliklərini ölkədə tətbiq etməklə, ən yaxşı müştəri təcrübəsi imkanlarını hamı üçün əlçatan etməyə çalışır.

Qeyd edək ki, "Azercell Telekom" indiyədək dəfələrlə müxtəlif nominasiyalar üzrə ilin şirkəti seçilərək STEVIE mükafatına layiq görülüb. Müsabiqənin məqsədi dünyanın müxtəlif ölkələrində fərqli uğur qazanmış şirkətlərin tanıdılmasıdır.

# Məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına məharət dərəcələrinin verilməsi (təsdiqlənməsi) üzrə sınaq imtahanları keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun təlim mərkəzlərində keçirilən sınaqlara cəlb edilən şəxsi heyətin ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ sənədlərlə bağlı bilikləri, fiziki və sıra hazırlıqlarının səviyyəsi sinif otaqları, o cümlədən çöl-səhra şəraitində yoxlanılır.

Hərbi qulluqçular silahlanmada olan müasir zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra edir, müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetirirlər.

Sınaq imtahanlarının keçirilməsində məqsəd şəxsi heyətin döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılmasıdır.

# Gorus-Qafan yolunda SOCAR-ın yanacaqdoldurma məntəqəsi açılıb

Dekabrın 20-də Gorus-Qafan yolunun Qubadlı rayonunun Eyvazlı kəndindən keçən hissəsində Dövlət Neft Şirkətinin (SOCAR) yanacaqdoldurma məntəqəsinin (YDM) açılışı olub.




AZƏRTAC xəbər verir ki, YDM-də "Kapital Bank" ASC xidmət göstərir və onun vasitəsilə müştərilər istədikləri valyutada ödəniş edib yanacaq ala bilərlər.

Açılış mərasimində iştirak edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev jurnalistlərə açıqlamasında deyib: "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Qələbə nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu gün Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycanın - SOCAR-ın ilk yanacaqdoldurma məntəqəsi fəaliyyətə başlayır. Bu məntəqə beynəlxalq yanacaqdoldurma məntəqəsidir. Buradan həm xarici vətəndaşlar, həm də yerli sakinlər istifadə edəcəklər. Bu tədbirlər işğaldan azad olunan torpaqlarda aparılan quruculuq işləri çərçivəsində həyata keçirilir. Azad olunan torpaqların qazla təmin edilməsi proqramı da layihələndirilir və tez bir zamanda bu istiqamətdə də işə başlanacaq".




R.Abdullayevin sözlərinə görə, Şuşa, Ağdam və Füzulidə də yeni YDM-lərin tikintisi davam etdirilir.

**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.12.2021-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

*qəzeti 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

◆ Dünya gündəmi


© Getty Images/AFP/A. Ketaz

# Həqiqətlər açıqlanır

## "The New York Times": "Suriya, İraq və Əfqanıstanda minlərlə dinc sakin qətlə yetirilib"

ABŞ-ın hərbi rəhbərliyi "İslam Dövləti" (İD) beynəlxalq terrorçu qruplaşmasına qarşı kampaniyada dinc əhali arasında qurbanların sayını azaldıb. "The New York Times" qəzetinin təhqiqatında iddia olunur ki, Suriya, İraq və Əfqanıstanda aviasiya zərbələri nəticəsində minlərlə mülki vətəndaş həlak olub, onların arasında çoxlu uşaq var.

Bildirilir ki, NYT-nin sərəncamına Pentaqonun 1,3 mindən çox sənədi daxil olub. Həmin hesabatlar nəşrin saytında dərc olunub.

Bundan başqa, jurnalistlər insanların yaralandığı 100-dən çox yerə gediblər.

Rəsmi məlumata görə, İD-yə qarşı kampaniya zamanı 2014-cü ildən bəri Suriya və İraqda 1,4 min mülki şəxs, 2018-ci ildən isə Əfqanıstanda 200-ə yaxın dinc sakin həlak olub. ABŞ-ın Müdafiə Nazirliyinin 1,3 min rəsmi hesabatında yalnız bir "mümkün pozuntu"aşkar edilib.

Qəzet mülki əhali arasında yüzlərlə qurbanın qeydə alınmadığını iddia edir. Onların dəqiq sayını müəyyən etmək mümkün deyil. Misal olaraq, nəşr terrorçuların "platsdarmları"na endirilən zərbələrdən birini göstərir. Rəsmi olaraq bildirilmişdi ki, 7 nəfərdən 24 nəfərə qədər mülki vətəndaş həlak olub. Lakin NYT aydınlaşdırıb ki, zərbələr insanların sığınacaq axtardığı evlərə vurulurmuş. Əslində həmin əməliyyat zamanı 120-dən çox dinc sakin həlak olub.

NYT, Pentaqonda bu cür insidentlərin tam araşdırılmadığını və gələcəkdə səhvlərin qarşısını almaq üçün tədbirlər görülmədiyini iddia edir. Jurnalistlərin fikrincə, əməliyyat rayonunda vəziyyətin yanlış qiymətləndirilməsi bombardmanlar zamanı qurbanlara gətirib çıxarıb. Belə ki, aviazərbənin hazırlanması zamanı aeroçəkiliş kadrları çox vaxt zərbənin endiriləcəyi ərazidə mülki şəxslərin olub-olmamasını tam müəyyənləşdirməyə imkan verməyib. Bu zaman hərbçilərin intizam məsuliyyətinə cəlb olunması ilə bağlı bir fakt belə yoxdur. Mülki əhalinin həlak olduğu aviazərbələrin ümumi sayının 12 faizində araşdırmaların aparılması tövsiyə olunub.

Dekabrın əvvəlində NYT ABŞ-ın gizli hərbi dəstəsinin hərəkətləri səbəbindən Suriyada dinc sakinlərin öldüyü barədə xəbər verib. Pentaqonun və Dövlət Departamentinin sabiq məsləhətçisi Larri Lyuis bildirib ki, Əfqanıstanda aparılan analoji əməliyyatlarda həlak olanların sayı on dəfə artıqdı.

Bir müddət əvvəl qəzetin əməkdaşları onu da bildiriblər ki, ABŞ Kabilə hava zərbələri endirərkən terrorçunun əvəzinə humanitar işçini qətlə yetirib. Onunla birlikdə daha doqquz adam, o cümlədən yeddi uşaq həlak olub.

Lakin ABŞ-ın Müdafiə Nazirliyi hərbçilərini cəzalandırmamağı qərara alıb. Məlumata görə, Pentaqon rəhbərliyi aparılan araşdırma zamanı Əfqanıstan paytaxtının bombalanması zamanı qanun pozuntularını tapmayıb. Bununla yanaşı, baş verənləri faciəvi səhv adlandırıblar.

NYT-nin sorğusuna cavab olaraq, ABŞ Silahlı Qüvvələri Mərkəzi Komandanlığının nümayəndəsi Bill Urban bildirib ki, hətta dünyanın ən yaxşı texnologiyaları olsa belə, natamam informasiya və ya onun yanlış təfsiri nəticəsində səhvlər baş verir. O əlavə edib ki, əgər aviasiya zərbəsi daha dolğun məlumat əldə olunaraq endirilibsə və qarşıda duran bütün vəzifələr yerinə yetirilibsə, mülki şəxslər arasında olan qurbanlar intizam tənbehi üçün səbəb deyil.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Pirallahı Rayon Məhkəməsinin sədri

**TAPDIQ MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Hamlet Qocayevə atası

**LƏTİF QOCAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" ASC-nin rəhbərliyi və kollektivi cəmiyyətin şöbə müdiri Tural Qüdrətova atası

**İNTİQAM QÜDRƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Günay Abidovaya anası

**HƏYAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Kommersiya Məhkəməsinin kollektivi Bakı Şəhəri Pirallahı Rayon Məhkəməsinin sədri

**TAPDIQ MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Pirallahı Rayon Məhkəməsinin sədri

**TAPDIQ MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5586
Sifariş 2707
Qiyməti 40 qəpik